Xalqın qəzeti!

# Xalq qəzeti

№ 40 (30734) 22 fevral 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


**Neft ehtiyatlarımız – 7 milyard barel**



Səhifə ⇨ 9

# Azərbaycan–Türkiyə: qardaşlıq, dostluq, strateji müttəfiqlik

*Prezident İlham Əliyev Türkiyə parlamentinin Milli müdafiə komissiyasının sədrini qəbul edib*





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarı qəbul edib.**

Söhbət zamanı ölkələrimiz arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsi məmnunluqla qeyd olundu.

Hulusi Akar dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

***AZƏRTAC***

## Ballıcaya xoş gəldiniz, müzəffər Prezidentimiz!



Səhifə ⇨ 5

## Abxaz separatçıları üçün haysayağı “Şaloxo”



Səhifə ⇨ 4

## Təkcə sevgi yetərli deyil



Səhifə ⇨ 12

## Böyük Füzulinin yadigarı...



Səhifə ⇨ 13

## Ermənistan Avropa arzusu ilə Rusiyanı qıcıqlandırır

**Avropa İttifaqının (Aİ) nümayəndə heyəti vizasız rejimin hazırlanması ilə bağlı məsələləri müzakirə etmək üçün Ermənistana səfər edib. Eyni zamanda, ölkə parlamenti İrəvanın Aİ-yə daxil olması prosesinin başlanması ilə bağlı qanun layihəsini qəbul edib. Bəs Brüsselə meyillik nəyə gətirib çıxaracaq?**



Hüquqi baxımdan Aİ-yə üzvlük məsələsi hələ gündəmdə olmasa da, Ermənistan artıq bu qurumla daha dərin tərəfdaşlığa doğru irəliləyir. Ölkədəki Avropa meyilli debatlar Aİ-nin və onun dəyərlərinin cəlbediciliyini nümayiş etdirir. İndi İrəvanla Brüssel arasında münasibətlər həmişəkindən daha yaxındır. Avropa Sülh Fondu çərçivəsində viza rejiminin liberallaşdırılması və 10 milyon avro məbləğində dəstək üzrə dialoqun başlanması bunu təsdiqləyir.

Brüssel İrəvana “Ermənistanın dayanıqlığı və inkişafı” proqramı çərçivəsində maliyyə dəstəyi verir. Qurum yardımı 2024–2027-ci illər üçün 270 milyon avroyadək artırıb. Bu proqram dövlətin sosial-iqtisadi sabitliyinin möhkəmləndirilməsinə, ticarətin, nəqliyyat kommunikasiyalarının və enerji təhlükəsizliyinin inkişafına yönəlib. Bundan əlavə, Hərtərəfli və genişləndirilmiş tərəfdaşlıq sazişi (CEPA) çərçivəsində fəal iş aparılır. Bu, Ermənistanı Aİ standartlarına yaxınlaşdırmalıdır.

Onu da qeyd edək ki, hələ 2024-cü ilin fevralında Brüssel və İrəvan ikitərəfli əməkdaşlığın genişləndirilməsi üzrə işə başlamaq barədə razılığa gəliblər. 2025-ci il yanvarın 9-da Ermənistan hökuməti ölkənin Aİ-yə qəbulu prosesinin başlanması ilə bağlı qanun layihəsini təsdiqləyərək parlamentə göndərib. Bu yaxınlarda həmin sənəd birinci oxunuşda təsdiqlənib. Bununla bağlı, Ermənistnın baş naziri Nikol Paşinyan bəyan edib ki, qanun layihəsinin qəbulundan sonra İrəvan Brüsselllə birlikdə yol xəritəsi hazırlayacaq.

***(ardı 3-cü səhifədə)***

## Demokratik “qolburma”

*Kaxa Kaladzenin söylədiklərinə sözardı*

**İllər əvvəl Avropanın nüfuzlu təşkilatlarından birinin Azərbaycanda media ilə bağlı bir təliminə qatılmışdıq. Daha dəqiq desək, mövzu jurnalistlərin ekstremal şəraitdə necə davranmaları ilə bağlı idi. Xaricdən təlimçi də gətirilmişdi ki, ölkəmizin media təmsilçiləri ilə öz təcrübəsini bölüşsün. Təlimçi ümumi şeylərdən danışdı. Hər kəs gördü ki, onun mövzuya dair deyəcəyi konkret yeni nə isə yoxdur. Təlimçinin deyəcəyi yox, amma edəcəyi bir iş oldu. Açığı çox təəccübləndik, hətta heyrətləndik. Bu barədə yazımızın sonunda söz açacağıq. Güman edirik, diqqətli oxucularımız heyrətimizin mövzu ilə əlaqəsini müəyyənləşdirməkdə çətinlik çəkməyəcəklər.**



*

Gürcüstanın hakim “Gürcü arzusu” Partiyasının liderlərindən biri, paytaxt Tbilisinin meri Kaxa Kaladzenin söylədiklərinə də çox təəccübləndik. O, bildirdi ki, mənsub olduğu qurumun təmsilçiləri müəyyən müddət başlarına gələnlər barədə susub, danışmaq istəməyiblər. Çünki çətinlik çəkiblər. Sən demə, Gürcüstanın baş nazirinin, yəni Kaladzenin partiyadaşının kabinetində onun qolunu burublar. Hətta, ürəkləri soyumayıb, başqa güc tətbiqi metodlarına əl atıb, onunla kobud danışıblar. İstəyiblər ki, Gürcüstan Rusiyaya qarşı çıxsın. Kaladze bu kimi təzyiqlərin ölkəsində Moskvaya qarşı ikinci cəbhə yaratmaq məqsədi daşıdığını vurğulayıb: “Qarşılaşdığımız hər şey çox çətin idi. Məsələn, partiya sədri ilə yanaşı, baş nazirə də öz kabinetində kobud sözlər söylənilləndə, bilavasitə güc tətbiq etməyə, qolunu burmağa, ölkədə ikinci cəbhənin açılmasına cəhd ediləndə müəyyən müddət ərzində bu haqda danışmaq bizim üçün çətin idi. Könüllülərin (Gürcüstandan – red.) Ukrayna müharibəsinə gedəcəkləri çarter reyslərini məcburi şəkildə təşkil etmək cəhdi də olub. Ölkəmizin iqtisadiyyatı və gələcəyi üçün fəlakətli olacaq sanksiyalara qoşulmaq üçün birbaşa cəhd və kobud təzyiq (sonralar bu, hətta qətnamədə də yer alıb) halları ilə üzləşmişik”.

***(ardı 3-cü səhifədə)***

## AİB Azərbaycanın etibarlı maliyyə tərəfdaşıdır




Səhifə ⇨ 9

## Azərbaycanın yeni avtomobil yolları ölkəmizi tərəqqi və rahatlığa qovuşdurur



Səhifə ⇨ 10

## G20: Qlobal problemlərin növbəti müzakirəsi




Səhifə ⇨ 15

# Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, mülki aviasiyada idarəetmə, tənzimləmə, nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, bu sahədə həyata keçirilən fəaliyyətin optimallaşdırılması və dövlət nəzarətinin səmərəliliyinin artırılması məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs yaradılsın.

**2** "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3** Müəyyən edilsin ki:

3.1. Nazirliyin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs (bundan sonra – Agentlik) Azərbaycan Respublikasının ərazisində mülki aviasiya sahəsində dövlət siyasətinin formalaşdırılmasında, həyata keçirilməsində və inkişafında iştirak edən, uçuşların təhlükəsizliyi, aviasiya təhlükəsizliyi və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi üçün tənzimləmənin və nəzarətin (keyfiyyətə nəzarət də daxil olmaqla), habelə mülki aviasiyada dövlət nəzarəti çərçivəsində təhlükəsizliyin təmini ilə bağlı xidmətlər göstərilməsi sahələrində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Agentlik bu Fərmanın 1-ci hissəsində qeyd edilən qurumların hüquqi varisidir, onların hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir;

3.3. Agentliyin fəaliyyətinin təşkil və təmin edilməsi xərcləri dövlət büdcəsinin vəsaiti, həmçinin Agentliyin öz fəaliyyətindən, o cümlədən göstərdiyi xidmətlərdən əldə olunan vəsait, beynəlxalq təcrübəyə əsasən aviadaşıyıcılar tərəfindən hava limanlarına və aeronaviqasiya xidmətlərinə görə ödənilən məbləğdən nəzarət funksiyaları ilə bağlı yığımlar və qanunla qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilir;

3.4. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün dörd üzvdən – sədr və onun üç müavinindən ibarət İdarə Heyəti yaradılır.

**4** Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Agentliyin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

4.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması;

4.1.3. Agentliyin İdarə Heyəti sədrinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.4. Agentliyin yenidən təşkili və ləğvi;

4.2. Nazirliyə:

4.2.1. bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. hava limanlarının (aeroportların) idarə edilməsi ilə bağlı təkliflərini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Agentlik işçilərinin xidməti geyim formaları nümunələrini, fərqləndirmə nişanlarının təsvirini və onların daşınması qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. Agentlik dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan qurumların balansındakı dövlət əmlakının Agentliyin balansına verilməsi və Agentliyin inzibati bina ilə təmin olunması məsələlərinin həlli üçün tədbirlər görsün;

5.4. Agentliyin 2025-ci ildə saxlanılması xərclərinin bu Fərmanın 1-ci hissəsində qeyd edilən qurumlar üçün cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi, növbəti illərdə isə dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində ayrıca sətirlə nəzərdə tutulması ilə bağlı tədbirlər görsün;

5.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6** Nazirlik:

6.1. Agentliyin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

6.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 21 fevral 2025-ci il**

# E.M.Qarayevə 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini Emil Maqsud oğlu Qarayevə 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri ali xüsusi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 21 fevral 2025-ci il**

# Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2025-ci ilin avqust ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 100 ili tamam olur.

Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbi fikir xəzinəsinə qiymətli töhfələr bəxş etmiş söz ustası Bəxtiyar Vahabzadənin 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 21 fevral 2025-ci il**

# Xarici parlamentarilər Milli Məclisdə



**Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurası sədrinin birinci müavini Tariq Humaid Matar Mohd Altayerin rəhbərlik etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.**

Sahibə Qafarova ötən ildən etibarən Azərbaycan parlamentinin APA-ya sədrlik etdiyini və bu təşkilatı Asiya parlamentlərini birləşdirən mühüm platforma kimi daha da gücləndirməyə sadiq olduğunu deyib.

Milli Məclisin sədri bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin BƏƏ-yə səfərləri, həmçinin Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın Azərbaycana rəsmi səfəri çərçivəsində bir sıra mühüm sənədlər imzalanıb. Həmçinin bir milyard dollarlıq maliyyə imkanına malik Birgə İnvestisiya Fondu təsis edilib. "Parlamentlərimiz də ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. Dost BƏƏ-nin Federal Milli Şurası ilə parlamentlərarası əlaqələrin inkişafına böyük önəm veririk" – deyə S.Qafarova qeyd edib.

Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurası sədrinin birinci müavini Tariq Humaid Matar Mohd Altayer Azərbaycanda olmaqdan və APA-nın 15-ci plenar sessiyasında iştirak etməkdən məmnunluğunu bildirib. Qeyd edib ki, Azərbaycanın APA-ya sədrliyi dövründə çox işlər görülüb və bu işlər təşkilatın əhatə etdiyi bölgə üçün çox vacibdir. Qonaq bu təşkilatı orada təmsil olunan ölkələrin parlamentləri ilə iş aparmaq, onları düşündürən məsələləri müzakirə etmək üçün əlverişli platforma adlandırıb.

***

**Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Tailand Krallığının Nümayəndələr Palatasının sədr müavini Paradorn Prissananantakul ilə görüşüb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə APA-nın plenar sessiyasının yüksək səviyyədə təşkil olunduğu, bu təşkilatın bir çox mühüm məsələlərin müzakirəsi baxımından əhəmiyyətli beynəlxalq platforma olduğu diqqətə çatdırılıb. Həmçinin bu cür tədbirlərin təşkilata üzv ölkələr arasında dialoqun gücləndirilməsi və əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından da vacib rolu qeyd edilib.

Söhbət zamanı Azərbaycanla Tailand Krallığı arasında yaxşı əlaqələr olduğu, əməkdaşlığın inkişafı üçün müxtəlif imkanların mövcudluğu da vurğulanıb. Bu mənada parlamentlərimizin qarşılıqlı fəaliyyətinin dövlətlərimiz arasında əlaqələrin daha da inkişafına mühüm və müsbət təsir göstərə biləcəyi ifadə edilib.

Nümayəndələr Palatasının sədr müavini ölkəmizə səfəri ilə bağlı müsbət təəssüratlarını bölüşüb. O, Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasının uğurla təşkil olunması ilə bağlı təbriklərini çatdırıb.

Görüşdə beynəlxalq parlament təşkilatlarında da əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Sahibə Qafarova qonağa Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti və həyata keçirdiyi tədbirlər barədə məlumat verib. Qeyd olunub ki, Azərbaycanın sədrliyi ilə Parlament Şəbəkəsinin yaradılması, onun mühüm beynəlxalq əməkdaşlıq platforması kimi institusional əsaslarının gücləndirilməsi istiqamətində vacib işlər görülüb. Eyni zamanda, Parlament Şəbəkəsinin digər beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığının genişləndirilməsi ilə bağlı da addımlar atılır.

***XQ***

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin mart ayında vətəndaşların qəbulu

## C Ə D V Ə L İ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | **3** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | **3** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | **4** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | **6, 14** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | **6** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | **6** |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin<br>Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | **7, 11, 14** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | **7** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | **7** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | **10** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | **10** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | **11** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | **11** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | **12** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **12** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **13** |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | **14** |
| **Şuşa rayonunda Azərbaycan Respublikası<br>Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | **14** |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında<br>Azərbaycan Respublikası Prezidentinin<br>xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | **17** |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Bəşir Qüdrət oğlu | **17** |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında<br>Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | **19** |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan<br>Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | **19** |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası<br>Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | **19** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Demokratik “qolburma”



(əvvəli 1-ci səhifədə)

Bəli, Gürcüstana Qərb dairələri tərəfindən ciddi təzyiqlər olub. Ölkədə ötən il keçirilmiş parlament seçkilərindən sonra təşkil edilmiş nümayişlər də bunun təsdiqidir. Nəzərə alaq ki, həmin nümayişlər və iğtişaşlar güc yolu ilə ölkənin qanuni seçilmiş hakimiyyətini devirmək məqsədini daşıyırdı. K.Kaladzenin sözlərindən vəziyyətin nə üçün belə şəkil aldığını anlamaq mümkündür. O, ölkəsini anti-Rusiya tədbirlərində iştiraka məcbur etmək cəhdlərinin mövcudluğunu dilə gətirərkən onu da bildirib ki, “başqasına zərər verməyən, ancaq öz xalqına və ölkəsinə ziyan vuran” sanksiyalar mənasızdır. “Biz bu gün ölkə əhalisinin əksəriyyətinin dəstəyi sayəsində hakimiyyətdəyik. Üzərimizə böyük məsuliyyət və eyni zamanda, ölkəmizin maraqlarını qorumaq öhdəliyi düşür. Təbii ki, bizə dostlar, tərəfdaşlar lazımdır. Amma bu dostluq uzun illər pərdə altında qaldı. Çünki əsasən onların maraqları həyata keçirilirdi. Sizə “divara vurun” deyildikdə, o addımı atmamalısınız. Çünki inciyəcəyinizi bilirsiniz. Buna görə də biz həmişə ölkəmizi və xalqımızın maraqlarını müdafiə edəcəyik”,– deyən K.Kaladzenin bildirdiklərindən də Gürcüstanın necə çətin mərhələdən keçdiyini görmək mümkündür.

**

Qeyd edək ki, Gürcüstan Rusiyaya qarşı çıxmağın ağırlığını bir dəfə yaşayıb. 2008-ci ilin Rusiya–Gürcüstan müharibəsi yaddaşlardan silinməyib. Ruslar gürcülərin qoşunlarını paytaxt Tbilisinin 10 kilometrliyinədək qovmuşdu. Məsələ onda deyil ki, Rusiya güclü olduğundan, ona qarşı durmaq yolverilməzdir. Sadəcə, bilavasitə xalqın maraqlarından çıxış etmək lazımdır. Yəni qarşı tərəflə, o cümlədən rəsmi Moskva ilə diskussiyanı məhz bu zəmində qurmağa və nəyisə tələb etməyə ehtiyac var. Amma 2008-ci ildə Gürcüstan prezidenti Mixeil Saakaşvilinin hərəkətləri indi K.Kaladzenin ifadə etdiyi kimi, divara kəllə vurmaq idi. Kəllə Qərbin təhriki ilə vurulurdu və Moskvada da bunu gözəl anlayırdılar.

Bu gün Ukrayna 2008-ci ildə Gürcüstanın yaşadığını yaşayır. O zaman Qərb Gürcüstana yiyə durmamış, onu əjdahanın ağzına vermişdi. Hazırdakı qurban Ukraynadır. Fikrimizdən elə nəticə çıxmasın ki, Rusiyanı haqlı tərəf kimi göstərmək niyyətindəyik. Əsla, elə deyil. Ölkənin həyata keçirdiyi hər bir halda Gürcüstanın və Ukraynanın ərazi bütövlüyünə qəsddir. Ancaq düşünək görək, bu qəsdin qarşısını almaq olmazdımı? Əlbəttə ki, danışıq və müzakirə yolları bitib-tükənməzdir. Axı rasional düşüncə axırda deməli olduğun sözü əvvəldə dilə gətirməməyə əsaslanır. Heç şübhəsiz, Qərb də bu düşüncədən xəbərdardırlar. Ancaq belə yanaşmanı yalnız özlərinə münasibətdə keçərli sayırlar. Başqaları divara kəllə vurub başını yarsa da olar. K.Kaladzenin söylədikləri Qərbin məhz başqalarına laqeyd sifətinin ifşasıdır.

Baxın, bu gün Qərb dünyası Ermənistanı da divara kəllə vurmağa sövq edir. Ölkənin baş naziri Nikol Paşinyanın kabinetində qolunu burmağa, onu nəyəsə məcbur etməyə ehtiyac yoxdur. Çünki belə demək mümkünsə, beyni burulmuş biridir və Qərbin direktivlərini kölə kimi yerinə yetirməkdədir. Özünü, guya, erməni xalqının maraq və mənafelərini qoruyurmuş kimi göstərir. Halbuki, hazırda Azərbaycana qarşı tutduğu zidd mövqe, sülhdən yayınmaq bilavasitə Qərbin direktivlərindən qaynaqlanır. Adama nə qədər başa salınır ki, Naxçıvana maneəsiz yol Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin pozulması olmayacaq, yenə öz sərsəm düşüncəsindən əl çəkmir...

Deməli, Kaladze Gürcüstan hakimiyyətini Ermənistan iqtidarının gününə qoymaq niyyətlərinin puça çıxdığını da açıqlayır. Nəzərə alaq ki, 44 günlük müharibə zamanı Gürcüstanı Rusiyaya qarşı qaldırmaq cəhdləri olub. Təsəvvür edin, savaşda Ermənistanı müdafiə edən, Azərbaycanın haqq davasını, öz torpaqlarını işğaldan qurtarmaq istəklərini, az qala, təcavüzkarlıq kimi qiymətləndirən Qərbin bəzi dairələri rəsmi Tbilisini ölkəmizdən nümunə götürməyə, hücum edib öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməyə səsləmişdilər. Əsl rikayarlıq və ikiüzlülük elə budur. Sonra ikili standartlar siyasətinin daha bir təzahürünü gördük. Qərb aləmi Gürcüstanda hakimiyyətə qarşı çıxmanı demokratik hərəkat, Ermənistandakı eyni əməli hakimiyyətə qəsd olaraq qələmə verdi.

*

Əvvəldə haqqında söz açdığımız məqama qayıtmağın vaxtıdır. Deməli, media ilə bağlı təlim keçən avropalı ekspert ekstremal vəziyyətlərdə jurnalist fəaliyyətindən danışarkən, qəfildən bir iştirakçını səhnəyə dəvət etdi və ona küçə davasında fəndlərini öyrətməyə başladı. Yəni K.Kaladzenin sözlərindən sonra qeyri-ixtiyari həmin ekspertin iştirakçının qolunu burub ona çətin durumdan çıxmaq “yolunu” anlatmasını xatırladıq. Necə heyrətlənməyəsən?

Ən pisi isə budur ki, təlimçiyə etdiyinin jurnalist fəaliyyətinə heç bir aidiyyatının olmadığını bildirəndə gic toyuqlar kimi gözünü döymüşdü. Uzun sözün qısası, Qərbin yanaşması məhz budur. Demokratiya, söz azadlığı, bəşəri dəyərlər, bərabərtərəfli münasibətlər Qərb cəmiyyətləri üçün yalnız quru və mənasız söz yığınıdır. Belə bir durumun formalaşması isə həmin cəmiyyətlərin deqredasiyasından xəbər verir.

Görün, iş nə yerə çatıb ki, Avropada insan azadlığı üçün meyar dedikdə gözlər önündə cins seçimi, transgenderlik, geylik canlanır. Sanki, bəşəri dəyərlər baxımından başqa ölçü yox imiş. Sanki, hər şey düzəlibmiş, yalnız sadaladıqlarımız qalıbmış. Ən pisi isə odur ki, hansısa gey hakimiyyətdə oturub öz aləmində qlobal məsələlər uydurur və uydurduğu gündəmi başqalarına güc, təhdid, təzyiq yolu ilə sırımağa cəhd göstərir, hələ Gürcüstanın timsalında ölkənin daxili işlərinə qarışmağa, qanuni hakimiyyətini devirməyə cəhd göstərir ki, Cənubi Qafqazda Avropadakı kimi zombi və manqurtlar məkanı formalaşsın. O məkan ki, orada xalqın maraq və mənafeləri deyil, yalnız geylərin və transvestitlərin, nasist düşüncə sahiblərinin müəyyənləşdirdikləri saxta gündəm hakim olsun.

Sonda onu da deyək ki, ənənəvi prinsipləri rəhbər tutan ABŞ-ın yeni administrasiyasının, o cümlədən Prezident Donald Trampın və vitse-prezident Cey Di Vensin hazırda açıqladıqları fikirlər, mahiyyət etibarilə, Qərb dairələrinin indiyədək yol verdikləri saxtakarlıq və riyakarlıqları sadalamaqdır. Saxtakarlıqlar və riyakarlıqlar bumeranq effekti ilə qayıdıb onları edənlərin üzlərinə çırpılır. Bu gün vaxtilə qol buranların özlərinin qollarının burulduğu dövrdür. Yekun nəticə də göz önündədir. Avropa son dərəcə miskin və rəzil duruma düşüb.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Replika**

**Ermənistan parlamentinin spikeri Alen Simonyan İtaliyaya səfər edib və ölkənin Deputatlar Palatasının sədri Lorenzo Fontana ilə görüşündə “Azərbaycanda saxlanılan erməni məhbuslar” məsələsini qaldırıb. Əlbəttə, Simonyan, prinsipcə, erməni dövlətini təmsil etmir və bu mənada, istədiyini danışa bilər. Amma nəzərə alaq ki, o, Ermənistanın hakim komandasının üzvüdür. Hakim komandadan söz düşmüşkən, Ararat Mirzoyan bir vaxtlar parlamentin spikeri idi, indi xarici işlər naziridir. Yəni rəsmi şəxsidir və sabah Simonyan da hansısa vəzifəyə gedib rəsmiyə çevrilə bilər. Deməli, indidən sərsəm mövzuları gündəmə gətirməməyi öyrənməlidir.**

# Simonyan, narı belə yeməzlər

## *Erməni spikerin İtaliyada sərsəmləməsi*



Burada bir haşiyə çıxaq ki, A.Simonyan bu yaxınlarda qalmaqalla gündəmə gəlmişdi. Jurnalistlər spikerə vaxtilə Ağdamda əlində nar tutaraq, bölgəmizi vətəni adlandırdığını xatırlatmış və ondan indi nə üçün fərqli mövqe tutduğunu soruşmuşdular. Parlament sədri cavabında hamının səhv edə biləcəyini söyləmişdi. Əlbəttə, demək olmaz ki, Azərbaycanda mühakiməsi gedən ermənilər də səhvə yol veriblər və humanistlik göstərib onları məhkəmə zalından azadlığa buraxaq. Elə humanistlik baxımından həmin ermənilərə şans vermək olmaz. Nəzərə alaq ki, bu adamlar hazırda bəlkə ömürlərində heç zaman rastlaşmadıqları ədalətli yanaşma görürlər. Nəyi pisdir ki? Öyrənsinlər və həyatı anlasınlar. İkincisi, onlar qatı cinayətlərdə günahlandırılırlar. Belələrini azadlığa buraxmaq kimlərinsə haqqını tapdamaqdır. Üçüncüsü, bilavasitə nəzərə alsaq ki, ölkəmizdə mühakiməsi aparılan ermənilər insanlıq əleyhinə cinayətlərdə də ittiham olunurlar, deməli, haqq-ədalət öz yerini tutmasa, bu, bütövlükdə bəşəriyyət üçün mənfi presedentə çevrilər.

Bəli, Bakıda mahakiməsi davam edən ermənilər ədalətli yanaşma görməlidirlər ki, simonyanlardan, petrosyanlardan, aşotlardan və digər “yan”lardan törəyənlər gələcəkdə sələflərinin xarabazar günə qoyduqları Ağdamda yarıcan ağacdan nar dərib özləri üçün vətən qondarmağa həvəslənməsinlər. Bilsinlər ki, özgəsinin yurd-yuvasına göz dikməyin, insanları doğma el-obalarından didərgin salmağın cəzası necə olur. Qulaqlarında sırğa eləsinlər.

Simonyan sərsəm-sərsəm danışmamalıdır, çünki Ermənistanda Azərbaycan xalqına qarşı cinayət törətmiş şəxslər bu gün onun da təmsil olunduğu hakim komandanı təhdid və təhqir edirlər. O şəxslər ki, Bakı həbsxanalarından hələ ki canlarını qurtara biliblər. Hazırda Ermənistanda belələrinin sayı nisbətən azalıbsa, Simonyana daha nə lazımdır? Tutalım, Azərbaycan humanistlik göstərib Ruben Vardanyanı azadlığa buraxdı. Bu, erməni spikerin təmsil olunduğu hakim komandaya lazımdırmı? Əlbəttə ki, yox! O zaman Simonyan nə səbəbə mənasız sözlər danışır?

Bu gün Ermənistanda insanlıq əleyhinə törətdiyi cinayətlərə görə məhkəmə qarşısında dayanmalı olanlar yetərincədir. Bildirək ki, belələri rəsmi İrəvan üçün də təhlükə mənbəyidirlər. Erməni iqtidarı səmimi davransa, özündə qətiyyət və iradə tapsa, onları da Azərbaycana təhfil verməlidir. Çünki bu şəxslər cinayət əməllərini ölkəmizin ərazisində reallaşdırıblar.

Onu da deyək ki, Ermənistan parlamenti spikerinin İtaliyada müzakirəyə çıxardığı məsələ son dərəcə absurddur. Həm də ona görə ki, rəsmi İrəvan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanındığını açıqlayıb. Tanımaq birmənalı olmalı, şübhə yaratmamalıdır. Bu yazıda məhkəməsi davam edən ermənilərə qarşı irəli sürülmüş ittihamlardan danışmaq niyyətində deyilik. Yalnız o fakt yetərlidir ki, bu adamların heç biri Ermənistandan tutulub gətirilməyiblər. Hamısı Azərbaycanda ələ keçiblər. İkincisi, onlar müharibənin davam etdiyi dövrdə əsir düşənlər deyillər. Onların sırasında savaşdan sonra ölkəmizin ərazisində kəşfiyyat-diversiya fəaliyyəti həyata keçirməkdə günahlandırılanlar da var.

Sonda bildirək ki, rəsmi İrəvanın, ümumən erməni hakim komandasının “Azərbaycanda saxlanılan erməni məhbuslar” məsələsini qaldırıb, hansısa beynəlxalq dairələrdən kömək gözləməsi, eləcə də mövcud xüsusda ölkəmizə qarşı antipatiya formalaşdırmaq cəhdləri Ermənistanın özü üçün zərərlidir. Belə bir məsələ barədə söz açmaq onsuz da kövrək olan Bakı–İrəvan sülh prosesini pozmaq, inamsızlıq yaratmaq, etimad mühitinin formalaşmasının qarşısını almaqdır. Yaxşı olar ki, Simonyan bu barədə düşünsün və bir də belə nar yeməsin.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ermənistan Avropa arzusu ilə Rusiyanı qıcıqlandırır

(əvvəli 1-ci səhifədə)

Sənədi parlamentdə təqdim edən hakim partiya “son illərdə Ermənistanla Aİ arasında kifayət qədər intensiv və dinamik münasibətlərin inkişaf etdiyini” vurğulayıb. Buna misal olaraq Aİ-nin “siyasi dəstəyi” göstərilib.

Nikol Paşinyan vurğulayıb ki, qanun layihəsi Aİ-yə dərhal daxil olmaq üçün müraciət kimi qəbul edilməməlidir. Üstəlik, onun sözlərinə görə, yekun qərar yalnız ümumxalq səsverməsi yolu ilə verilə bilər.

Bu arada hökumət başçısı iddia edib ki, Brüssellə əməkdaşlıq artıq “konkret nəticələr verir”. Xüsusilə, viza rejiminin liberallaşdırılması və ölkənin Sülh Naminə Tərəfdaşlıq proqramına qoşulması ilə bağlı danışıqlara başlanılıb. Onun fikrincə, proqram çərçivəsində texniki və maliyyə yardımının həcmi kiçik olsa da, bu addımın siyasi əhəmiyyəti “son dərəcə yüksəkdir”.

Aİ-yə üzvlüyə təşəbbüs keçmiş prezident Robert Koçaryanın Ermənistan fraksiyası tərəfindən tənqid edilib. Partiya bunun ölkənin həm Aİ, həm də Avrasiya İqtisadi İttifaqı (AİI) ilə münasibətlərində problem yaradacağından ehtiyat edir.

Moskva da İrəvanın Brüssellə yaxınlaşmasından açıq şəkildə narazıdır. Baxmayaraq ki, Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov bununla bağlı, “bu, Ermənistanın suveren hüququdur”,– deyib. Eyni zamanda, o, ermənilərə məsləhət görüb ki, Aİ-yə daxil olmaq istəyinin nə dərəcədə qarşılıqlı olduğunu öyrənsinlər. Onun sözlərinə görə, Ermənistanda elə siyasi qüvvələr var ki, Aİ-nin özünün bunda maraqlı olduğuna dair dəqiq anlayış olmadan, bu quruma istiqamətlənmənin ölkənin özü və xalqının maraqları üçün əlavə dividendlər verəcəyini düşünürlər.



D. Peskovun sözlərinə görə, Aİ-yə qəbul prosesinin mürəkkəbliyinə də diqqət yetirmək lazımdır: “Biz bu prosesdə uzun növbəyə salınmış bir çox ölkənin təcrübəsini bilirik”.

O bildirib ki, eyni anda iki fərqli beynəlxalq təşkilatın üzvü olmaq mümkün deyil: “Çətin ki, Ermənistan eyni vaxtda Avropa İttifaqı və Avrasiya İqtisadi İttifaqında olsun. İki fərqli təşkilatın üzvü olmaq, hipotetik olaraq, sadəcə, mümkün deyil. Hər qurumun öz gömrük məkanı, mal və xidmətlərin, insanların və kapitalın bir sərbəst hərəkət zonası var, fərqli normalar var”.

Daha doğrusu, Aİ və AİI daxilində əməkdaşlığı birləşdirmək mümkün deyil, çünki bunlar digər zonadan olan mallara qarşı öz bazarlarını qoruyan sərbəst ticarət zonalarıdır. Bundan əlavə, əgər İrəvan sərbəst ticarət zonasına daxil olarsa, Aİ-nin tələbi ilə Rusiyaya qarşı sanksiyaları tam şəkildə tətbiq etməli olacaq. Bununla da Ermənistanın Rusiya ilə ticarəti başa çatacaq, həmçinin respublikanın AİI-də iştirakı da sonlanacaq.

Peskov qeyd edib ki, AİI-yə üzvlük Ermənistan üçün faydalıdır: “Fayda faizlərlə, yüksək artım templəri ilə ölçülür. Bundan əlavə, AİI çərçivəsində razılaşdırılmış iş mexanizmləri və inteqrasiya formatları xalqların və ölkələrin rifahı üçün işləməkdə davam edir”.

Ümumiyyətlə, Rusiya bəyanatlardan konkret addımlara keçməyincəyə qədər İrəvanla Moskva arasında münasibətlərdə ciddi dəyişikliklər gözləmək lazım deyil. Moskvanın ciddi addımlar atacağı təqdirdə isə Hayastanın iqtisadiyyatı çökəcək. Qeyd edək ki, Rusiya Ermənistan üçün əsas, bəlkə də ən böyük ticarət tərəfdaşıdır. Bundan əlavə, Ermənistanın digər AİI ölkələri ilə ticarət dövriyyəsi respublikanın xarici ticarətinin böyük hissəsini təşkil edir. İrəvan Rusiyanın enerji daşıyıcılarını endirimli qiymətlərlə alır. AİI-nin əmək bazarına giriş də unudulmamalıdır. Bu səbəbdən, Ermənistanın Avropaya inteqrasiyasının nəticəsi erməni əhalisinin tam yoxsullaşması ola bilər. Bu durumda erməni məhsulları daha yüksək rüsumlarla üzləşəcək və bütün bunlar ÜDM-in artım tempinin kəskin azalmasına səbəb olacaq.

Aİ bazarı isə Hayastan iqtisadiyyatını xilas edə bilməyəcək. Məsələn, Rusiya hakimiyyəti bazarı erməni mallarına bağlamaq qərarına gəlsə, bu, özünü daha aydın göstərəcək. Tbilisi nümunəsi göstərdi ki, Aİ ilə azad ticarət zonasının mövcudluğu və çox güclü istəklə belə, Avropa bazarında öz yerini tutmaq çox çətindir. Yəni Hayastanın iqtisadiyyatını Avropa relsinə yönəltmək istəyi fiaskoya uğrayacaq.

Beləliklə, Rusiya və Ermənistan artıq uzun müddətdir ki, de-fakto münasibətlərdə böhran yaşayır. İrəvanın Moskvadan Qərbə üz çevirməsi artıq baş verib, lakin bu, Ermənistanın KTMT və ya AİI ilə münasibətlərinin tam pozulması demək deyil. Bu da haylara sərf edir. Amma iki vektorlu yanaşmanın – AİI-yə üzvlük və Aİ ilə yaxınlaşma prosesinin davam etdirilməsi çətin olacaq. İrəvan nə vaxtsa qərar qəbul etməli olacaq. Əks halda Hayastan ciddi risklərlə üzləşəcək.

*

Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca daha çox avropayönümlü bəyanatlar və bəzi hüquqi qərarlar ortaya çıxa bilər. Çünki bu cür ritorika ölkədə yaxşı “satılır” və Nikol Paşinyanın hakim partiyası öz reytinqlərini yaxşılaşdırmaq üçün bundan faydalanmağa çalışacaq. Buna Paşinyan və onun partiyasının böyük ehtiyacı var. Çünki onların reytinqi 2018-ci ildən bəri ən aşağı səviyyəyə düşüb. Bu yaxınlarda keçirilən ictimai rəy sorğusunun nəticələrinə görə, hazırda seçicilərin yalnız 11,3 faizi Ermənistanın baş nazirinin rəhbərlik etdiyi “Mülki müqavilə” partiyasına səs verməyə hazırdır. Qafqaz Problemləri və Regional Təhlükəsizlik Mərkəzinin aparıcı elmi işçisi Nikolay Silayev deyib: “Buna görə də, onun Avropa yoluna dair məsuliyyətsiz bəyanatları yalnız bütün uğursuzluqlara baxmayaraq, hər hansı yolla hakimiyyətdə qalmaq istəyinin təzahürüdür. Məhz buna görə də, Paşinyan 2026-cı il seçkisinə hazırlığa artıq indidən başlayıb”.

Hazırda Ermənistanın yaxın gələcəkdə Aİ-yə daxil olmaq şansı sıfıra bərabərdir. Hələlik Brüssel Türkiyəni, eləcə də keçmiş Yuqoslaviya ölkələrini qəbul etməyi təxirə salıb. Bundan əlavə, Hayastan Aİ-yə üzvlük öhdəliklərini götürməyə qətiyyən hazır deyil. Beləliklə, birliyə qoşulmaq onilliklər çəkə bilər. Brüssellə münasibətlər möhkəmlənməyə davam etsə də, yeni qarşılıqlı öhdəliklərin yaranmasına səbəb olmayacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Abxaz separatçıları üçün haysayağı “Şaloxo”

*Yaxud ermənilərin bölgə ilə bağlı məkrli planları barədə*



**17 il əvvəl Gürcüstandan qoparılan Abxaziya Muxtar Respublikası separatçı rejimin nəzarəti altındadır. O vaxta qədər də Abxaziyada ermənilərin sayı az deyildi. İndi isə əhalinin, təqribən, 18 faizini təşkil edirlər. Bu, rəsmi statistikadır.**

Fəqət qeyri-rəsmi hesablamalara əsasən, hazırda Abxaziyada ermənilərin sayı abxazlardan çoxdur. Yəni postsovet məkanında Ermənistanın hüdudlarından kənarda ermənilərin çoxluq təşkil etdiyi cəmi iki “bölgə” qalıb ki, onların hər ikisi Gürcüstan ərazisindədir. Bunlardan birincisi Gürcüstanın yüksək dağlıq bölgəsi Samsxe-Cavaxeti (separatçı əhval-ruhiyyənin güclü olduğu rayon), ikincisi isə separatçı ünsürlərin yığnağına çevrilmiş, kurortlarla zəngin Abxaziyadır. Xankəndidəki separatçı “dqr”in süqutundan sonra Qarabağı könüllü tərk etmiş ermənilərin bir qisminin məhz Abxaziyaya üz tutduğu məlumdur. Erməni lobbisinin Abxaziyaya marağı başa düşüləndir. Üstəlik, yerləşdiyi coğrafiyaya, təbii-iqlim şəraitinə görə dənizə çıxışı olan bölgə ermənilər üçün Ermənistan Respublikasının özündən, hətta Qarabağ iqtisadi rayonumuzda unudulmuş “Artsax”dan daha cəlbedici məkandır.

Onu da yada salaq ki, erməni əhalisi işğal dövründə də Qarabağı tərk edirdi. Daşnak-şovinist “çete”sinin rəhbərlik etdiyi Ermənistanın bütün səylərinə baxmayaraq, yalnız Suriya və Livan ermənilərindən ibarət kiçik qrupların Qarabağda məskunlaşdırılmasını təşkil etmək mümkün olmuşdu. Yəni nə İrəvanın, nə lobbinin, nə də xaricdəki diasporun erməniləri kütləvi şəkildə Azərbaycanın işğal olunmuş şəhər və kəndlərində məskunlaşdırmaq “planı” baş tutdu. Bu gün ermənilər qəti surətdə Abxaziyanı tərk etmək istəmirlər. Hayların bu istəyi heç də qondarma “müstəqil Abxaziya”ya ülvi məhəbbətlərindən irəli gəlmir. Əksinə, erməni lobbisinin məkrli planına əsasən, onlar burada “Qarabağ ssenarisi üzrə” separatizmi gücləndirmək, Abxaziya torpaqlarını ələ keçirmək və bu bölgədə özlərinin dövlətini – “Şərqi Ermənistan” yaratmaq barədə düşünürlər. Artıq onların bu xəyanətkar meyillərindən abxazlar duyuq düşməyə başlayıblar. Abxaziya əhalisinin yarısını təşkil edən yerli etnik qrupun getdikcə məhv edilməsi, erməni repatriantların Abxaziyaya yeni “dalğasının” təşkil edilməsi və kütləvi məskunlaşması perspektivi kontekstində “Şərqi Ermənistan” planının reallaşması heç də mümkünsüz sayıla bilməz. Axı, haylar bu cür “ssenariləri” həyata keçirməklə bağlı “tarixi təcrübəyə” malikdirlər.

hakimiyyətə gətirmək cəhdləri alınmadı. Hətta Rusiya Prezident Administrasiyası rəhbərinin müavini Sergey Kirienkonun seçki piarına qoşulması, bu ilin may ayında Abxaziya ilə Rusiya arasında hava nəqliyyatının açılması vədi, üstəlik, Suxumi Hava Limanına “sınaq uçuşu”nun təşkil edilməsinə baxmayaraq, bu plan alınmadı. Qunba Abxaziyanın erməni icmasının yaxından dəstəyi sayəsində 46 faiz səs toplaya bildi. Maraqlıdır ki, doğma Qudauta bölgəsində Qunba cüzi miqdarda səs faizi alıb. Bu isə Abxaziya üçün qeyri-adi vəziyyət hesab olunur. Çünki burada, bir qayda olaraq, yerli namizədi dəstəkləmək adət sayılır. Yəni bu o deməkdir ki, sakinlər ona yerli olmayan abxazdan daha az səs veriblər. Amma digər rayonlardakı erməni kəndlərinin sakinlərinin, demək olar ki, hamısı separatçını dəstəkləyib. Əsasən etnik abxazların səs verdiyi müxalifət lideri Adqur Ardzinba isə səslərin 37 faizini qazanaraq ikinci yeri tutub. Abxaziyada “prezident seçkilərinin” ikinci turu 2025-ci il martın 1-nə təyin edilib. Amma artıq birinci turun nəticələri həm separatçı ərazinin əhalisinin seçki ovqatı, həm də etnik qrupların real nisbəti barədə müəyyən fikirlər yürütməyə imkan verir.

Sosial şəbəkələrdə yayılan ilkin məlumata görə, “seçkilərin” birinci turunda səs verən 25 minlik erməni elektoratdan 24 mindən çoxu “ruspərəst” Badru Qunbaya səs verib. Qudauta bölgəsində nisbətən az erməni yaşayır. Bu amil Adqur Ardzinbanın birinci turda qalib gəlməsini, Badru Qunbanın isə ən aşağı nəticə göstərməsini şərtləndirib. Fevralın 15-də keçirilən “seçkilərin” birinci turundan sonra Rusiyaya müxalif abxaz ictimaiyyəti, demək olar ki, erməni əhalisinin namizəd Badru Qunbaya səs verdiyini bildirir. Şübhə yoxdur ki, ikinci turda imkanlı erməni icması öz haylarından əlavə digər millətlərdən olan seçicilərin “səfərbərliyini” təşkil edəcək. Həmçinin o da ola bilər ki, haylar himayədarlarını separatçı Abxaziyanın “prezidentliyinə dartmaq” üçün öz namizədlərinin marafonunu doldurmaq kimi manipulyasiyaya əl atsınlar. Bəli, bu gün Badru Qunba birbaşa “ermənilərin namizədi” adlandırılır.

Təsadüfi deyil ki, son vaxtlar sosial şəbəkələrdə abxazların özləri arasında Gürcüstanla gələcək barışıq, konfederasiya və bir dövlətdə yaşamağın mümkünlüyü




* **

Ötən 17 ildə separatçı Abxaziyada dəfələrlə “prezident” seçkiləri keçirilib. Amma onların nəticələri dünyanın heç bir ölkəsi tərəfindən, hətta qondarma quruma “patronajlıq” edən Rusiya tərəfindən də tanınmayıb. Bu dəfə də belə olacağı şübhəsizdir. Sadəcə, budəfəki “seçki oyunbazlığı” Gürcüstan ərazisində siyasi və etnik qarşıdurmanın yenidən qızışmasına səbəb ola bilər. Burada “seçkilərin” ilk turunda “kremlpərəst” namizəd Badru Qunbanı

məsələsi qaldırılmağa başlanıb. İntəhası, buna “Rusiya ilə birliyə” arxalanan abxaz erməniləri qəti şəkildə etiraz edirlər. Hətta onlar Gürcüstanla birləşməyə eyham vuran hər kəsi “vətənə xəyanətdə” suçlamaqdan da çəkinmirlər.

***

Hazırda Abxaziyada cərəyan edən hadisələr nədən xəbər verir? Bu hadisələrin sonda bölgə üçün arzuolunmaz fəsadları ola bilərmi? **Bu barədə XQ-yə açıqlamasında Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** Abxaziyada baş verən hadisələri tam mənada Qarabağda separatçıların hərəkətləri ilə üst-üstə düşən fəaliyyət kimi xarakterizə **etdi:** “Məsələ burasındadır ki, Abxaziyada separatçıların özlərini “müstəqil dövlət”



elan etmələri boş xülyadan, gurultulu bəyanatdan başqa bir şey deyil. Çünki onları erməni separatçılarından və Moskvadan savayı heç kəs tanımır və tanımaq fikrində də deyil. Bu necə dövlətdir ki, sakinlərinin nə vətəndaşlığı, nə də pasportları var. Görəsən, onlar xarici ölkələrə hansı pasportla gedirlər? Çox güman ki, Rusiya vətəndaşlığını qəbul edənlər həmin pasportdan yararlanırlar. Amma onu da unutmasınlar ki, Qarabağ separatçılarının aqibəti onları da gözləyir. Bu örnəkdən ciddi nəticə çıxarmalıdırlar.

Aydın məsələdir ki, Gürcüstan özünün suverenliyini gec-tez bərpa edəcək. Təbii ki, bundan ötrü zəruri geosiyasi şərait yetişməlidir. Bunun baş verəcəyinə əminəm. Rəsmi Tbilisi hazırda gündəlikdə duran bir sıra məsələləri həll edəndən sonra ərazi bütövlüyünü də mütləq bərpa edəcək. Bu zaman həm diplomatik üsullar, həm də, zərurət yaranarsa, hərbi vasitədən istifadə imkanları da nəzərdən keçiriləcək. Əsas odur ki, Gürvcüstan hakimiyyəti bu məsələdə israrlıdır və bunu özünün strateji hədəfi hesab edir”.

İndiki “seçki yarışı” zamanı erməni lobbisinin nəzarətində olan media abxaz müxalifətçilərini “Türkiyə və Gürcüstan üçün çalışmaqda” və “anti-erməni” siyasəti yeritməkdə ittiham edərək onlara qarşı görünməmiş kampaniyaya başlayıb. Amma bu gün yerli separatçılarla qol-boyun olub “Şaloxo” rəqsini oynayan hayların sabah abxazların da kürəyinə xəncər saplamayacağına heç kəs zəmanət verə bilməz. Öz növbəsində, erməni icmasının onun nəzarətində olan “prezident” və Abxaziyanı “tamamilə özlərinə” çevirmək səyləri barədə deyilənlər abxazların əksəriyyətində qıcıq yaradıb. Məsələ o həddə çatıb ki, bu, iki etnik qrup arasında gərginliyin artmasına səbəb olub.

Görünən odur ki, budəfəki “seçkilərdə” abxazların erməni icmasının nümayəndələrinə qarşı düşmənçiliyi həddi aşmağa gətirib çıxarıb. Sadə dillə desək, etnik erməninin hansı siyasi baxışa malik olmasından asılı olmayaraq, abxazlar artıq istənilən münaqişədən ermənilərə “təşəkkürlərini bildirmək” üçün istifadə etməyə başlayıblar. Buna misal olaraq, Qaqrada 15 abxazın Daxili İşlər Nazirliyinin keçmiş əməkdaşı, müxalifətin namizədi, separatçı Adqur Ardzinbanın tərəfdarı Samvel Daşyanı döyməsi faktını göstərmək olar. Belə çıxır ki, etnik ermənilər üçün “müxalifət düşərgəsində” olmaq artıq Abxaziyada onların “toxunulmazlığına” zəmanət vermir. Hayların əsl siması əvvəl-axır üzə çıxmalı idi.

Sonda onu da qeyd etməyi zəruri sayırıq ki, Azərbaycan rəhbərliyi Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini dəfələrlə bildirib. Rəsmi Bakı Gürcüstanın Abxaziya bölgəsində bugünədək keçirilən “prezident seçkiləri”ni, eləcə də onların nəticələrini heç vaxt tanımayıb. Azərbaycan Abxaziya məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həlli üçün danışıqların davam etdirilməsini vacib sayır.

***İ.HƏSƏNQALA***
***XQ***

# Neft-qaz sektorunun yeni hədəfləri



***Fevralın 21-də İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının birgə iclası keçirilib.***

Azərbaycanın Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində ölkəmizdə neft-qaz hasilatı sahəsində cari vəziyyət, əsas göstəricilər və perspektivlər, o cümlədən SOCAR-ın və ümumilikdə respublikanın neft-qaz sektorunun uzunmüddətli inkişaf planları, 2035-ci ilədək hasilat proqnozları, Hasilatın Pay Bölgüsü və Risk Xidməti sazişləri çərçivəsində işlənən və yeni yataqlar üzrə ehtiyat həcmləri, “Azneft” İstehsalat Birliyinin fəaliyyəti, Heydər Əliyev adına Neft Emalı Zavodunun yenidənqurma və modernizasiya layihəsinin icra vəziyyəti, neft-kimya məhsullarının istehsalı və ölkədaxili yanacaq tələbatı, SOCAR tərəfindən ölkə xaricində həyata keçirilən layihələr, SOCAR-ın maliyyə göstəriciləri və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə SOCAR-ın prezidenti Rövşən Nəcəfin geniş təqdimatı dinlənilib, eləcə də iqtisadiyyat naziri (SOCAR-ın Müşahidə Şurasının sədri) Mikayıl Cabbarov və Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov çıxış ediblər. İqtisadi Şuranın üzvləri təqdim olunan məsələlərə dair geniş müzakirələr aparıblar.

İclasın yekununda İqtisadi Şuranın və AİH-nin Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə edilən məsələlər barədə qərarlar qəbul olunaraq AİH-in İdarə Heyətinə və SOCAR-a müvafiq tapşırıqlar verilib.

***XQ***

# UNICEF-in nümayəndəsi FHN-də

**Azərbaycanın fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Birləşmiş Millətlər Təşkilatı Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəsi Saca Faruq Abdullahın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə FHN məlumat yayıb.**



K.Heydərov qeyd edib ki, Azərbaycan dövləti uşaqların təhlükəsizliyinin təmin edilməsi, onların müdafiəsi, təhlükəsiz mühitdə yaşaması və böyüməsi məsələlərinə hər zaman xüsusi diqqət yetirir və bu sahədə mühüm addımlar atır.

Nazir uşaq təhlükəsizliyi sahəsində Fövqəladə Hallar Nazirliyinin gördüyü işlər, həyata keçirdiyi tədbirlər barədə qonaqlara ətraflı məlumat verib, bu sahədə UNICEF-in Azərbaycandakı Nümayəndəliyi ilə münasibətlərin genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu vurğulayıb.

UNICEF-in Azərbaycandakı nümayəndəsi xanım Saca Faruq Abdullah səmimi görüşə görə təşəkkür edib, ötən ilin noyabr ayında Azərbaycan tərəfindən qlobal əhəmiyyətli tədbir olan COP29-un ölkəmizdə uğurla keçirildiyini vurğulayıb.

Saca Faruq Abdullah rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə ətraflı məlumat verib, ölkəmizdə uşaq təhlükəsizliyi sahəsində Fövqəladə Hallar Nazirliyi ilə əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

***XQ***

# Minsk qrupu yeni münaqişə üçün saxlanılırmı?

**Helsinki Prinsiplərinin pozulmasından əziyyət çəkmiş ölkə kimi biz ATƏT-in öz prinsiplərini qorumaqda uğursuzluğundan dərin məyusluq hissi keçirən ilk dövlətlərdən biriyik. ATƏT-in daxilində və onun parlament ölçüsündə bu uğursuzluğun səbəblərini hərtərəfli şəkildə araşdırmaq vacibdir.**

Bu fikirləri Milli Məclisin ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Qaya Məmmədov qurumun Vyanada keçirilən qış sessiyasında çıxışı zamanı səsləndirib. O qeyd edib ki, ikili standartlara və beynəlxalq hüququn seçmə yanaşma əsasında tətbiqinə son qoymaq lazımdır. İnsan hüquqlarından siyasi məqsədlər üçün sui-istifadə yolverilməzdir.

Q.Məmmədov bildirib ki, sülhyaratma prosesində tərəflərin razılığı kimi universal prinsip qorunmalıdır. Vasitəçiliyin zorla qəbul etdirilməsi cəhdləri BMT Baş Assambleyasının müvafiq qətnaməsi daxil olmaqla, beynəlxalq hüququn pozulması deməkdir. Məsələn, ATƏT-in qondarma Minsk qrupunu süni şəkildə saxlamağa çalışmaq münaqişə yaratmaq məqsədi daşıyır və sülhə xidmət etmir. Azərbaycanla Ermənistan arasında münasibətlə-




rin normallaşdırılması istiqamətində əldə edilmiş bütün konkret nəticələr ikitərəfli formatda mümkün olub. Azərbaycan qalan məsələlərin xoş niyyət əsasında ikitərəfli şəkildə həllinə sadiqdir.

***XQ***

# Ballıcaya xoş gəldiniz, müzəffər Prezidentimiz!



## *Dövlət başçısının kənd sakinləri ilə görüşü unudulmaz tarixə çevrildi*

**Bir neçə gün idi Xocalı rayonunun Ballıca kəndində bayram əhval-ruhiyyəsi hökm sürürdü. Vətən həsrəti ilə keçən 33 ildən sonra məcburi köçkün həyatları ilə vidalaşıb yenidən doğma yurdlarına qovuşmuş sakinlər sevinc və həyəcan içində onlara bu xoşbəxt günləri yaşadan müzəffər Ali Baş Komandanın, Prezident İlham Əliyevin gəlişinə hazırlaşırdılar. Hamı intizarla dövlət başçısını gözləyir və əmin idi ki, hər bir azərbaycanlının Prezidenti xocalılıları yeni evlərində daimi məskunlaşmaları münasibətilə təbrik etmək, bu xoş günlərdə hər zamankı kimi onların yanında olmaq üçün kəndin ən əziz qonağı olacaq.**

Uşaqdan böyüyə bütün kənd sakinlərinin yaddaşında əbədi iz buraxacaq, unudulmaz tarixə çevriləcək görüş fevralın 19-da baş tutdu. Dövlət başçısı Ballıcada fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış oldu, kəndə köçən bir qrup sakinlə görüşdü. Xoş ab-havada, səmimi şəraitdə keçən görüşdə sakinlərin hər biri Qarabağımızı azad etmiş, Azərbaycanı qalib ölkəyə çevirmiş böyük sərkərdəyə ürəkdən minnətdarlığını bildirir, ağsaqqallar, ağbirçəklər möhtərəm Prezidenti bağrına basaraq ona sevgilərini ifadə edirdilər. Dövlət başçısının səmimiyyəti, hamının üzündə təbəssüm yaradan "dəmir yumruq" zarafatı, kənd əhalisinin məişət qayğılarına həssas münasibəti, Ballıca torpağının məhsuldarlığı, sakinlərin maldarlıqla, əkinçiliklə məşğul olub-olmamaları ilə yaxından maraqlanması isə görüşü daha unudulmaz etdi. Bu görüş, eyni zamanda, yenidən qurulan, bərpa edilən yurd yerlərimizə Böyük Qayıdışın daha bir möhtəşəm nümunəsi, azad Qarabağdan dünyaya verilmiş növbəti zəfər mesajı idi.

Azərbaycan Prezidentinin səfərindən dərhal sonra "Xalq qəzeti"nin Qarabağ bürosu olaraq Ballıca sakinləri ilə görüşdük, onların təəssüratları ilə tanış olduq. Dövlət başçısının Ballıcaya gəlişinə ən çox sevinənlər arasında Quliyevlər ailəsi, sözsüz, ilk sıralardadır. Çünki Prezident İlham Əliyev kənddə fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanışlıq məqsədilə məhz bu ailənin qonağı oldu, ailə üzvləri ilə çay süfrəsi arxasında səmimi söhbət etdi. Elə biz də ilk olaraq Manaf Quliyevin və övladlarının yaşadığı evə baş çəkdik. Dördotaqlı, yeni təmir olunmuş evdə hələ də əziz qonağın gəlib-getməsinin xoş həyəcanı hökm sürürdü. **87 yaşlı Manaf Quliyev** bizimlə söhbətində ən böyük arzusunun reallığa çevrildiyini, özünü çox xoşbəxt hiss etdiyini dedi:

– O qədər sevindim, o qədər sevindim ki, bu sevinci başqa heç nə əvəz edə bilməz. Çünki əziz Prezidentimiz İlham Əliyev evimizin qonağı oldu. Onu üzbəsurət görmək, qucaqlayıb bağrıma basmaq, ürək sözlərimizi demək, minnətdarlığımızı bildirmək ən böyük arzum idi. Daha bundan sonra ölsəm də, dərdim yoxdur.

Çox xoşbəxtəm ki, bu yaşımda azad Qarabağa qayıtmaq, burada yaşamaq mənə qismət olub. Elə bilirəm dünyaya təzə gəlmişəm. Dünyada torpaqdan şirin nə ola bilər? Doğulduğun torpaq, Vətən övladdan da şirindir. Bu gün öz Vətənimdəyəm. Buna görə də xoşbəxtliyimin həddi-hüdudu yoxdur.

M.Quliyev bildirdi ki, bir vaxtlar tez-tez yuxularında gördüyü ata-baba yurduna qayıdacağına inamını heç zaman itirməyib. Ümummili liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra isə bu inamı daha da möhkəmlənib:

– Dövlət başçımızla söhbətimdə də dedim ki, əgər Qarabağ hadisələri başlayan zaman Heydər Əliyev Azərbaycanda olsaydı, torpaqlarımızın işğal edilməsinə heç vaxt imkan verməzdi. Ancaq mən həmişə inanmışam. İnanmışam ki, Ulu öndərin oğlu, bizim möhtərəm Prezidentimiz torpaqlarımızı düşmən tapdağından azad edəcək. Həmişə harada söhbət düşürdüsə, toyda, yasda, deyirdim geci-tezi var, dövlətimizin başçısı ermənilərdən torpağımızı geri alacaq.

Söhbətimizə Manaf kişinin oğlu Məmməd Quliyev də qoşuldu. Bildirdi ki, məcburi köçkün düşəndə 17 yaşı olub, bu gün isə 3 övladı ilə azad Qarabağa qayıdıb:

– Bundan gözəl nə ola bilər ki, həm insanın həsrətində olduğu torpağını alalar, həm də belə rahat, təmirli ev verələr ki, yaşa! Hələ üstəlik də, ölkə Prezidenti şəxsən evinə gələ, şəraitinlə maraqlana. Bu, mənim üçün çox gözlənilməz olsa da, ən böyük arzum idi. İndi görün, mən nə qədər xoşbəxt insanam!

Ballıcada yaşamağımız üçün bizə hər cür şərait yaradılıb. Hər an dövlətimizin qayğısını hiss edirik. Özümün şəxsi təsərrüfatım var. Həm maldarlıqla, həm də arıçılıqla məşğulam. Üstəlik, satış məntəqəsi ilə də təmin edilmişəm. Yəni özümüz istehsal etdiyimiz məhsulları satıb dolanırıq. Allah torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Allahın bu günlərinə şükür!

Quliyevlər ailəsi ilə sağollaşdıqdan sonra dövlət başçısı ilə görüşdə iştirak etmiş ballıcalılardan bir neçəsi ilə həmsöhbət olub onlardan hansı hisslər keçirdiklərini soruşduq.

***Qürbət Hümbətov (müəllim):***

– Hörmətli Prezidentimizin gəlişi bizə böyük sevinc bəxş etdi. Onunla görüşümüz çox səmimi, mehriban bir şəraitdə keçdi. Dövlət başçısı azad Qarabağa qayıdışımız münasibətilə bizi təbrik edərək vurğuladı ki, bütün keçmiş məcburi köçkünlər növbəli şəkildə öz ata-baba yurdlarına qayıdacaqlar. Mən bu görüş üçün, bizimlə bu qədər dərindən maraqlandığı üçün cənab Prezidentə təşəkkür etmək istəyirəm. Arzum budur ki, belə xoşbəxt günləri yaşamaq tezliklə bütün arzulayanlara qismət olsun!

***Pərviz Həbibi (dövlət qulluqçusu):***

– Cənab Prezidentin bizə xüsusi qayğısı və diqqəti çox təqdirəlayiqdir. Qürur duyuruq ki, dövlət başçısı bizi ata-baba torpaqlarına qaytarıb, burada bizə hər şərait yaradılıb, üstəlik, hər zaman bizim yanımızdadır. Görüş biz gənclər üçün xüsusilə əlamətdar oldu. Çünki müzəffər Ali Baş Komandan Böyük Qayıdış prosesində gənclərin fəallığından məmnunluqla bəhs etdi. Bu isə bizim üçün həm fəxrdir, həm də böyük məsuliyyət. Bundan sonra da Vətənimizin, dövlətimizin gələcəyi naminə üzərimizə düşən bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışacağıq. Dövlət başçımızla görüş isə mənim yaddaşımda əbədi iz buraxdı.

***Kamal Məmmədov (təqaüdçü):***

– Müzəffər Ali Baş Komandan, möhtərəm Prezidentimizlə görüş təsəvvür etdiyimizdən də gözəl və möhtəşəm keçdi. O şeylərin ki, necə baş verməsini, necə reallaşmasını insan zəkası dərk edə bilmir, onu möcüzə kimi qarşılayırıq. Mən Prezidentimizin torpaqlarımızı işğaldan azad etməsini, onun bu hünərini, göstərdiyi bu igidliyini möcüzə kimi qiymətləndirirəm.

78 yaşım var. Ömrümün 32 ilini yurddan-yuvadan ötrü göz yaşı tökərək Vətən üçün ağlayaraq keçirmişəm. Ancaq indi bizə Qarabağın bu gözəl guşəsində, Ballıcada yaşamaq, yenidən doğma yurdun təmiz havasını udmaq, saf sularından içmək qismət olub. Bütün bunlar üçün dövlət başçımıza minnətdarıq. Onunla görüş isə sevincimizə sevinc qatdı, bizim üçün ən xoş xatirəyə çevrildi. Allah Prezidentimizi qorusun! Bir ağsaqqal kimi bütün sakinlər adından demək istəyirəm ki, Ballıcaya xoş gəldiniz, əziz Prezidentimiz!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

# Gələcəyə baxış: Suverenliyin möhkəmləndirilməsi

**Fevralın 21-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Yüksəliş" müsabiqəsinin iştirakçılarının təşəbbüsü ilə "Gələcəyə baxış: Yeni reallıqlar şəraitində suverenliyin möhkəmləndirilməsi" mövzusuna həsr olunan forum keçirilib.**




Gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev Azərbaycanın müstəqilliyini və suverenliyini gücləndirmək məqsədilə belə tədbirlərin mütəmadi olaraq keçirilməsinin dövlətçilik siyasətinin inkişafına və beynəlxalq mövqeyimizin daha da güclənməsinə xidmət edəcəyini vurğulayıb.

Daha sonra "Yüksəliş" müsabiqəsi tərəfindən Azərbaycanın suverenliyi mövzusunda hazırlanmış videoçarx forum iştirakçılarına nümayiş etdirilib.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva forumun müstəqil Azərbaycanın bütövlüyünün möhkəmləndirilməsinə töhfə verdiyindən danışıb. O bildirib ki, bu tədbir xalqımızda mübariz birliyin daha da möhkəmlənməyində, birlikdə iştirakçısı və şahidi olduğumuz tarixi prosesin gələcək nəsillərə ötürülməsində böyük rol oynayacaq.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev bildirib ki, son 30 ildə Azərbaycan dövlət quruculuğu və qanunvericilik sahəsində böyük irəliləyişlər əldə edib. 2019-cu ildə Prezident İlham Əliyevin Konstitusiya ilə bağlı Fərmanına əsasən məhkəmə sistemində islahatlar aparılaraq cəmiyyətin məhkəmələrə inamı artırılıb. Daha sonra o qeyd edib ki, ümummilli lider Heydər Əliyev Azərbaycanın tərəqqisi, milli kimliyin güclənməsi və təhsilin inkişafı üçün möhkəm təməl yaradıb. Ulu öndər Heydər Əliyevin və xalqımızın arzusu olan tam suverenlik və ərazi bütövlüyü bu gün gerçəkləşib.

Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov vurğulayıb ki, Prezident İlham Əliyev məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır. Qeyd olunub ki, konstitusiya cəmiyyət inkişaf etdikcə dəyişikliklərə məruz qalır və bu dəyişikliklər dövlətçiliyin möhkəmlənməsinə xidmət edir. 2002, 2009 və 2016-cı illərdə edilən konstitusiya dəyişiklikləri dövlət idarəetməsini gücləndirib və 2020-ci il Vətən müharibəsindən sonra Azərbaycanın suverenliyinin tam əraziyə şamil olunması ilə nəticələnib.

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov bildirib ki, Azərbaycanın suverenliyi bütün ərazilərində bərpa edərək gücləndirilib. O, eyni zamanda, ümummilli lider Heydər Əliyevin Prezident kimi həyata keçirdiyi güclü dövlətçilik siyasətinin ölkənin inkişafında mühüm rol oynadığını vurğulayıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, dövlətin qarşısına qoyduğu hədəflərə çatmaq üçün insan resursları kapitala çevrilməlidir. O, Azərbaycanın inkişafının dərinləşməsi, hüquq sisteminin möhkəmlənməsi, iqtisadi imkanların artırılması və sosial rifahın yaxşılaşdırılması barədə danışıb.

Forumda çıxış edənlər onu da vurğulayıblar ki, Azərbaycanın suverenliyini beynəlxalq aləmdə möhkəmləndirmək və ölkənin daxili siyasətində və iqtisadiyyatında davamlı inkişafı təmin etmək yalnız dövlətin gələcəyi üçün deyil, həm də xalqımızın rifahı, hüquqi, siyasi və iqtisadi müstəqilliyinin daha da genişlənməsi üçün böyük əhəmiyyət daşıyır.

Forum rəsmi çıxışlardan sonra panel müzakirələri ilə davam edib.

"Yüksəliş" müsabiqəsinin iştirakçılarının təşəbbüsü ilə artıq ikinci dəfə forum təşkil olunur. Ötən il baş tutan ilk forum müsbət trendləri müzakirə, müsabiqənin davamlılığını təmin etmək və perspektivli idarəçi kadrlar arasında peşəkar əlaqələri inkişaf etdirmək məqsədilə təşkil olunub.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli Sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən – böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

Beşinci "Yüksəliş" müsabiqəsinin keçirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il dekabrın 18-də müvafiq Sərəncam imzalayıb.

***XQ***

# Heydər Əliyev Fondu 10-dan çox rayonda məktəb inşa edir

**Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində regionlarda yeni məktəb binaları inşa edir.Hazırda Samux, Gəncə, Goranboy, Göyçay, Ucar və digər rayonlarda tikinti işləri aparılır. Ümumiyyətlə, bu il 10-dan çox rayonda yeni məktəb binalarının istifadəyə verilməsi nəzərdə tutulur.**

Qeyd edək ki, 2005-ci ildən həyata keçirilən proqramın əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaq, cəmiyyətin müxtəlif təbəqələrinin, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirərək ümumi işin xeyrinə yönəltməkdir.

Proqram çərçivəsində 2005-2024-cü illərdə ölkənin müxtəlif bölgələrində 100 mindən artıq şagirdin təhsil aldığı 500-dən çox məktəb binası inşa olunub və yenidən qurulub. Bu məktəblərin hər birində müasir laboratoriya, kitabxana, yeməkxana, ən son avadanlıqla təchiz edilmiş kompüter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və ayrıca istilik sistemi var.

***XQ***

# Belarus heykəltaraş "Qızılgülün sirri"ni açacaq

**Martın 14-də Heydər Əliyev Mərkəzində belaruslu heykəltaraş Andrey Ostaşovun "Qızılgülün sirri" adlı sərgisi açılacaq.**




Sərgidə müəllifin "Yuxulara səyahət", "Pişik-qız və tısbağa rəqsi", "Yelpik və albalı", "Ürəklə qız", "Günəşin uşaqları", "Hind fili və kəpənəklər" kimi ilk dəfə məhz Bakıda tamaşaçı qarşısına çıxarılacaq əsərləri də yer alacaq.

1970-ci ildə Belarusda doğulan Andrey Ostaşovun rəssam kimi formalaşmasında Belarus, Rusiya və Avropa incəsənət məktəbinin təsiri olub. Onun əsərlərində gözəllik mütləqdir və o, artıq yox olmaqda olan estet-filosoflar nəslinə aid rəssamdır. Heykəltaraş Uzaq Şərq regionunun məişət əşyaları və tətbiqi sənəti, samuray və Teddi oyuncaq ayılarının, nağıl şahzadələrinin və şamanların təsvirləri ilə cəsarətlə oynayır.

Belarus Rəssamlar İttifaqının üzvü olan Andrey Ostaşovun əsərləri Belarusun Milli İncəsənət Muzeyinin daimi ekspozisiyasında, Avropa və Asiyada şəxsi kolleksiyalarda saxlanılır. Heykəltaraşın fərdi sərgiləri Monako, Paris, Pekin, Sankt-Peterburq, Tbilisi, Şanxay, Vyana və sair şəhərlərdə təşkil olunub.

***XQ***

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir

# “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsin NİZAMNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – Agentlik) Azərbaycan Respublikasının ərazisində mülki aviasiya sahəsində dövlət siyasətinin formalaşdırılmasında, həyata keçirilməsində və inkişafında iştirak edən, uçuşların təhlükəsizliyi, aviasiya təhlükəsizliyi və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi üçün tənzimləmənin və nəzarətin (keyfiyyətə nəzarət də daxil olmaqla), habelə mülki aviasiyada dövlət nəzarəti çərçivəsində təhlükəsizliyin təmini ilə bağlı xidmətlər göstərilməsi sahələrində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Beynəlxalq Mülki Aviasiya Təşkilatının (bundan sonra – BMAT) beynəlxalq standartlarını və tövsiyə olunan təcrübəsini (bundan sonra – beynəlxalq standartlar və tövsiyə olunan təcrübə), digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı və “Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, rəsmi emblemi, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Agentlik məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Agentlik işçilərinin xidməti geyim forması və fərqləndirmə nişanları vardır.

1.8. Agentliyin rəsmi adı aşağıdakı kimidir:

1.8.1. tam halda – “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxs, qısaldılmış halda – DMAA;

1.8.2. ingilis dilində tam halda – “The State Civil Aviation Agency” public legal entity, qısaldılmış halda – SCAA.

1.9. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. müvafiq sahədə tənzimləməni və nəzarəti həyata keçirmək;

2.1.4. müvafiq sahədə mülki hava limanlarının, aerodromların, helikopter meydançalarının və digər mülki aviasiya obyektlərinin fəaliyyətinə nəzarəti həyata keçirmək;

2.1.5. müvafiq sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasına nəzarətin həyata keçirilməsi məqsədilə zəruri tədbirlər görmək;

2.1.6. Azərbaycan Respublikasının hava məkanında uçuşların təhlükəsizliyinin və aviasiya təhlükəsizliyinin idarə edilməsi sistemini təşkil etmək və onun fəaliyyətini təmin etmək üçün tədbirlər görmək;

2.1.7. aviasiya hadisələri və insidentləri baş vermədən, insanların həyat və sağlamlığına, əmlakına zərər vurulmadan, bütövlükdə hər hansı narahatlığa yol verilmədən uçuşların təhlükəsizliyinin daha səmərəli təşkilini təmin etmək;

2.1.8. Azərbaycan Respublikasının hüdudlarında müvafiq sahədə uçuşların təhlükəsizliyinə, aviasiya təhlükəsizliyinə, aviasiya texnikasının səmərəli istifadəsinə və istismarına nəzarəti həyata keçirmək;

2.1.9. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

2.1.10. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Agentliyin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının, məqsədli proqram və sahə standartları layihələrinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. Agentliyin fəaliyyətini Nazirliklə və müvafiq sahədə fəaliyyət göstərən digər qurumlarla əlaqələndirmək;

3.1.3. müvafiq sahəyə aid beynəlxalq müqavilələrlə bağlı danışıqlarda iştirak etmək;

3.1.4. Agentliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;

3.1.5. qanunda nəzərdə tutulan hallarda və beynəlxalq tələblərə uyğun olaraq, mülki hava gəmisinin istismarçılarına və mülki aviasiya ilə əlaqədar fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslərə hüquqmüəyyənedici sənədlər vermək, xarici dövlətlərdə verilən analoji sənədlərin tanınması, onların verilməsindən imtina edilməsi, qüvvədəolma müddətlərinin məhdudlaşdırılması, dayandırılması və ləğvi barədə qərarlar qəbul etmək;

3.1.6. beynəlxalq standartların və tövsiyə olunan təcrübənin milli qanunvericilikdə implementasiyasına münasibət bildirmək, qeyd edilən beynəlxalq standartların və tövsiyə olunan təcrübənin milli qanunvericilikdə implementasiyası ilə bağlı Nazirliyə təkliflər vermək, mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərə beynəlxalq standartları və tövsiyə olunan təcrübəni əks etdirən icrası məcburi olan göstərişlər vermək;

3.1.7. müvafiq sahədə münasibətləri tənzimləyən beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğun olaraq, tələblərə riayət edilməsinə nəzarətin həyata keçirilməsini və keyfiyyətə nəzarət sisteminin tətbiqini təmin etmək;

3.1.8. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, onlardan irəli gələn beynəlxalq standartlar və tövsiyə olunan təcrübə ilə müvafiq sahədə münasibətləri tənzimləyən Azərbaycan Respublikasının normativ hüquqi aktları və tətbiq olunan təcrübəsi arasında fərqlərin mövcudluğu barədə aidiyyəti üzrə Nazirliyə və BMAT-a məlumat vermək;

3.1.9. uçuşların təhlükəsizliyinin, həmçinin aviasiya təhlükəsizliyinin təmin olunması və idarə edilməsi sahəsini tənzimləyən daxili qanunvericiliyin, beynəlxalq standartların və tövsiyə olunan təcrübənin tətbiqi məqsədilə təlimatlar hazırlamaq, təsdiq etmək və rəsmi internet informasiya ehtiyatında yerləşdirmək;

3.1.10. beynəlxalq standartları və tövsiyə olunan təcrübəni nəzərə alaraq, Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.11. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.12. uçuşların və aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində nəzarəti həyata keçirmək;

3.1.13. uçuşların və aviasiya təhlükəsizliyinin, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahələrində qlobal, regional və milli səviyyədə mütəmadi yenilənən müvafiq aviasiya planlarını hazırlamaq, həmin planların icrasına nəzarət etmək;

3.1.14. BMAT-ın və digər sahəvi beynəlxalq təşkilatların tələb etdikləri müvafiq sahə üzrə bəyanatları qəbul etmək;

3.1.15. uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi ilə bağlı beynəlxalq standartların və tövsiyə olunan təcrübənin xidmət təminatçıları tərəfindən səmərəli yerinə yetirilməsinə nəzarət etmək;

3.1.16. mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən xidmətlərin beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğunluğuna nəzarət etmək;

3.1.17. təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün xidmət təminatçılarından uçuşlarının təhlükəsizliyi ilə bağlı məlumatları toplamaq, həmin məlumatların vahid bazasını formalaşdırmaq və risklərin qiymətləndirilməsi məqsədilə təhlillər aparmaq, habelə mülki hava gəmiləri uçuşlarının təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar müvafiq sahədə fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslərin fəaliyyətinə nəzarəti həyata keçirmək, nəzarət tədbirlərinin nəticələri barəsində Nazirliyə məlumat vermək və aşkarlanmış pozuntuların aradan qaldırılmasını mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərdən tələb etmək;

3.1.18. uçuşların təhlükəsizliyinin məqbul hesab olunan həddini əldə etmək, təhlükə mənbələrini aşkarlamaq və risklərə nəzarət etmək, aviasiya hadisələrinin və insidentlərinin qarşısının alınması üçün uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarət çərçivəsində, habelə Azərbaycan Respublikasının hava məkanında aeronaviqasiya, meteoroloji təminat və telekommunikasiya xidmətlərinin və xidmət vasitələrinin keyfiyyəti ilə bağlı mütəmadi müfəttiş yoxlamaları və monitorinqlər aparmaq, Azərbaycan Respublikasının hava limanlarına uçuşlar yerinə yetirən digər dövlətlərə mənsub hava gəmilərinin perron yoxlamalarını həyata keçirmək və aşkar edilmiş pozuntuların aradan qaldırılması üçün müvafiq tədbirlər görmək, milli və beynəlxalq tələblərə uyğun olaraq digər yoxlamalar keçirmək, icazə və tanınma üzrə prosedurların tətbiq olunduğu fəaliyyəti yoxlamaq, icra olunmuş yoxlamaların və monitorinqlərin nəticələri barəsində Nazirliyə məlumat vermək;

3.1.19. aviasiya təhlükəsizliyi sahəsində dinamik dəyişən risklərə adekvat cavab tədbirlərinin hazırlanmasında iştirak etmək;

3.1.20. fəaliyyət istiqamətlərinə uyğun olaraq aviasiya təhlükəsizliyi sahəsində innovativ texnologiyaların və müasir avadanlıqların tətbiqinin hüquqi və təşkilati əsaslarını işləyib hazırlamaq, bu tədbirlərin aviasiya təhlükəsizliyi xidmətləri, hava limanları və hava gəmilərinin istismarçıları tərəfindən həyata keçirilməsinə nəzarət etmək;

3.1.21. mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilə aktları ilə bağlı yaranmış böhran vəziyyətinin nizamlanması üçün əməliyyatlarda iştirak etmək, həmçinin qanunsuz müdaxilə aktları barədə xidməti araşdırma aparmaq, araşdırmalar üzrə hesabatlar hazırlamaq və qanunsuz müdaxilə aktlarının qarşısının alınması üçün profilaktik tədbirlər həyata keçirmək;

3.1.22. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək, görülən işləri mütəmadi təhlil etmək, problemlərin həlli yollarını araşdırmaq və bununla bağlı Nazirliyə müvafiq təkliflər vermək;

3.1.23. Agentlik tərəfindən hüquqi və fiziki şəxslərə verilən sənədlər itirildikdə, zədələndikdə və ya yararsız hala düşdükdə onların dublikatını vermək;

3.1.24. səlahiyyətləri çərçivəsində, mülki aviasiya sahəsinə münasibətdə milli və beynəlxalq tələblərə uyğun olaraq, mülki aviasiya ilə əlaqədar fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxsləri, aviasiya avadanlığı və vasitələrini sertifikatlaşdırmaq, həmçinin verilmiş sertifikatların şərtlərinə onlar tərəfindən riayət olunmasına nəzarət etmək;

3.1.25. mülki hava gəmisinin istismarçılarına və mülki aviasiya ilə əlaqədar fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslərə verilmiş hüquqmüəyyənedici sənədlərin tələblərə uyğunluğuna nəzarət etmək;

3.1.26. “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, şəhadətnamə, vəsiqə və ya sertifikatlar vermək, həmçinin xarici dövlətlərin səlahiyyətli orqanlarının verdikləri analoji sənədlərin müəyyən olunmuş qaydada tanınmasını həyata keçirmək;

3.1.27. müvafiq sahədə yüklərin və poçtun, bort ehtiyatlarının, hava limanı tədarüklərinin aviasiya təhlükəsizliyini təmin etmək məqsədilə qeydiyyatdan keçmiş yük agentlərinə və məlum yükgöndərənlərə (tədarükçülərə) sertifikatlar və fərdi kod nömrəsi vermək, onların reyestrini aparmaq və verilmiş sertifikatların şərtlərinə riayət olunmasına nəzarəti həyata keçirmək;

3.1.28. mülki pilotsuz uçuş aparatlarını məsafədən idarə edən pilotlara (operatorlara) şəhadətnamələr vermək;

3.1.29. mülki hava gəmilərinin dövlət qeydiyyatını və reyestrini, aviasiya personalının şəhadətnamə, vəsiqə və sertifikatlarının, sertifikatlaşdırılmış mülki hava limanlarının, aerodromların və helikopter meydançalarının və mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərin reyestrlərini aparmaq;

3.1.30. xidmət təminatçıları tərəfindən Azərbaycan Respublikasının hava məkanında uçuş qaydalarının tələblərinə riayət olunmasının təmin edilməsinə nəzarəti həyata keçirmək;

3.1.31. mülki hava gəmisi istismarçılarının xüsusi şəraitlərdə uçuş əməliyyatlarının yerinə yetirilməsinə hazırlığını yoxlamaq və onlara müvafiq icazələr vermək;

3.1.32. təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq mülki aviasiya sahəsində fəaliyyət göstərən bütün subyektlər üçün mülki hava gəmilərinin və hava limanlarının rejim zonalarının ərazisində digər nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinə və istismarına dair texniki tələb, qayda və təlimatların layihələrini Nazirliyə təqdim etmək, onların icrasına nəzarəti həyata keçirmək;

3.1.33. Azərbaycan Respublikasının ərazisinə və Azərbaycan Respublikasının ərazisindən təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınmasını həyata keçirmək istəyən istismarçılara icazələr vermək, habelə xarici dövlətdə müvafiq icazə almış xarici dövlətlərin istismarçılarının tanınmasını həyata keçirmək;

3.1.34. təhlükəli yüklərin mülki hava gəmiləri ilə təhlükəsiz daşınmasına nəzarət etmək;

3.1.35. təhlükəli yüklərin göndərilməsi və mülki hava limanlarında emalı (qəbulu, saxlanılması, qorunması və hava gəmisinə yüklənməsi) ilə məşğul olan fiziki və hüquqi şəxslərin, təyin olunmuş poçt operatorları tərəfindən təhlükəli yüklərin poçtla göndərilməsi zamanı Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, beynəlxalq standartların və tövsiyə olunan təcrübənin şərtlərinə riayət olunmasına nəzarət etmək;

3.1.36. xarici dövlətlərin rəsmi nümayəndə heyətini və (və ya) diplomatik poçtu daşıyan xarici hava gəmilərinə Azərbaycan Respublikasının mülki hava limanlarına enməsi və Azərbaycan Respublikasının hava məkanı üzərindən keçməsi ilə bağlı icazələr vermək;

3.1.37. mülki eksperimental və mülki hava gəmiləri ilə hərbi avadanlığın (ləvazimatın), hərbi avadanlıq (ləvazimat) hesab edilməyən təhlükə potensiallı, o cümlədən xüsusilə təhlükəli yüklərin (malların) daşınması üçün icazə vermək;

3.1.38. xarici ölkələrin dövlət aviasiyasına məxsus hava gəmilərinin Azərbaycan Respublikasının beynəlxalq hava limanlarına enməsi ilə bağlı rəy vermək;

3.1.39. Azərbaycan Respublikasının hüdudlarında müvafiq sahədə uçuşların təhlükəsizliyinə, aviasiya texnikasının səmərəli istifadəsinə və istismarına nəzarəti təmin etmək;

3.1.40. mülki hava gəmilərinin uçuşa və istismara yararlılığının təmin edilməsinə, mülki hava gəmilərinə texniki xidmət göstərilməsinə nəzarəti həyata keçirmək;

3.1.41. aviasiya texnikasının təmirini və texniki xidməti həyata keçirən təşkilatlar və istismarçılar tərəfindən uçuşa yararlılıq normalarına riayət olunmasına nəzarət etmək;

3.1.42. Azərbaycan Respublikasının hava məkanında və mülki hava limanlarında hava gəmilərinin uçuşlarına aeronaviqasiya, telekommunikasiya, informasiya xidmətləri və meteoroloji xidmət göstərilməsini təşkil etmək və həmin xidmətləri göstərənlər üçün tələblərin müəyyənləşdirilməsində iştirak etmək;

3.1.43. mülki hava limanlarının, aerodromların, helikopter meydançalarının beynəlxalq uçuşlar üçün açılması (bağlanması) barədə Nazirliyə təkliflər vermək;

3.1.44. aerodromyanı ərazinin hüdudlarında yaşayış məntəqələrinin layihələndirilməsinə, inşasına, habelə sənaye, kənd təsərrüfatı və digər obyektlərin inşasına və yenidən qurulmasına uçuşların təhlükəsizliyinə dair tələblərə riayət edilməklə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq razılıq vermək;

3.1.45. uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə fiziki və hüquqi şəxslər tərəfindən hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada razılıq vermək;

3.1.46. mülki aviasiyaya hava hərəkəti xidmətlərini təmin edən xidmət təminatçılarına hava hərəkətinə xidmətin, o cümlədən meteoroloji xidmətin həyata keçirilməsinə razılıq vermək;

3.1.47. hava limanlarının (aerodromların), yerüstü naviqasiya vasitələrinin texniki vəziyyəti və istismarı ilə bağlı məlumatları toplamaq və təhlil etmək;

3.1.48. aerodromların ərazisində hava gəmilərinə texniki və yerüstü xidmətlər göstərən xüsusi avtonəqliyyatın istismarı, uçuşların radio-işıq texniki təminatı, aerodromların sertifikatlaşdırma tələblərinə uyğun istismarı ilə bağlı müfəttiş yoxlamaları aparmaq;

3.1.49. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, hava limanlarının, aerodrom və helikopter meydançalarının inşası və yenidən qurulması ilə əlaqədar müvafiq ərazilərin ayrılması, tədqiqat, layihələndirmə və tikinti fəaliyyəti üçün rəy vermək və bu işlərin aidiyyəti qurumlarla əlaqələndirilməsi məqsədilə işçi qruplar yaradılması ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.50. mülki aviasiyanın fəaliyyəti ilə bağlı ətraf mühitin mühafizəsi sahəsində ümumi koordinasiya işi aparmaq;

3.1.51. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya Katibliyinin funksiyalarını həyata keçirmək;

3.1.52. mülki hava limanlarında hava gəmiləri üçün müəyyən edilmiş uçuş vaxt slotlarının paylanılması işində iştirak etmək, bu sahədə nəzarəti həyata keçirmək, aşkar edilmiş nöqsanlarla bağlı tədbirlər görmək;

3.1.53. aviasiya hadisəsi zamanı axtarış və xilasetmə işlərinin təşkilində iştirak etmək;

3.1.54. Azərbaycan Respublikasının ərazisində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən digər ərazilərdə qəzaya uğramış mülki hava gəmisi heyətinin və sərnişinlərinin axtarışı və xilas edilməsi üçün xidməti araşdırma aparmaq, eləcə də xarici dövlətlərin axtarış və xilasetmə işlərinə məsul olan aviasiya qəza-xilasetmə üzrə həyata keçirilən zəruri tədbirlərdə iştirak etmək;

3.1.55. Azərbaycan Respublikasının ərazisində (mülki hava limanlarında və onlardan kənarda) mülki hava gəmilərinə münasibətdə qəza-xilasetmə və yanğınsöndürmə işlərinin təşkilinin monitorinqini aparmaq;

3.1.56. fövqəladə hallarda aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə müvafiq sahədə fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlarda səfərbərlik hazırlığını həyata keçirmək, mülki müdafiə tədbirləri görmək, fövqəladə halların nəticələrinin aradan qaldırılmasında iştirak etmək;

3.1.57. mülki hava gəmilərinə münasibətdə baş vermiş aviasiya hadisələri və insidentləri ilə bağlı hadisə yerində iştirak, aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyaya yardım göstərmək, aviasiya hadisələrinin və insidentlərinin qarşısını almaq məqsədilə aviasiya ictimaiyyəti arasında informasiyanın yayılmasını həyata keçirmək, aviasiya hadisələrinin və insidentlərinin uçotunu aparmaq;

3.1.58. aviasiya hadisələrinin və insidentlərinin monitorinqinin, onların araşdırılmasına nəzarətin həyata keçirilməsi və qarşısının alınması məqsədilə uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi üzrə məlumatların avtomatlaşdırılmış qaydada toplanılması və təhlili sistemini təsdiq və tətbiq etmək;

3.1.59. aviasiya hadisələrinin və insidentlərinin araşdırılmasında və araşdırma materiallarının tərtibində iştirak etmək;

3.1.60. mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən müvafiq sahədəki insidentlərə dair xidməti araşdırmanın vəziyyəti ilə bağlı monitorinq keçirmək;

3.1.61. aviasiya hadisələrinin qarşısının alınmasına dair tövsiyələr hazırlamaq məqsədilə Azərbaycan Respublikasının mülki aviasiya hava gəmilərinin uçuşlarının təhlükəsizlik vəziyyəti ilə bağlı təhlillər aparmaq, onların nəşrini və xidmət təminatçılarına göndərilməsini təmin etmək;

3.1.62. beynəlxalq müqavilələrə əsasən Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda uçuş marşrutlarını təsdiq etmək, bu marşrutların istismarına, habelə “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, fiziki və hüquqi şəxslər tərəfindən müntəzəm və qeyri-müntəzəm (çarter) uçuşların həyata keçirilməsinə icazə vermək;

3.1.63. müvafiq sahəyə aid beynəlxalq müqavilələrin (sazişlərin) layihələrini işləyib hazırlamaq, yeni hava əlaqələrini (marşrutlarını), beynəlxalq hava daşımaları üçün uçuş tezliklərini və onların yerinə yetirilməsinin kommersiya şərtlərini müəyyən etmək;

**(ardı 7-ci səhifədə)**

# “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsin NİZAMNAMƏSİ

(əvvəli 6-cı səhifədə)

3.1.64. qəza halları istisna olmaqla, hava gəmisində olan şəxslərin həyat və sağlamlığına təhlükə yarandığı hallarda və ya texniki nasazlıq səbəbindən Azərbaycan Respublikasının hava məkanına daxil olan beynəlxalq uçuşları yerinə yetirən hava gəmilərinin enməsi üçün, “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, hava limanını müəyyən etmək;

3.1.65. “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qurumlarının təkliflərinə əsasən, hava məkanının konkret hissələrini mülki aviasiya üçün qadağan olunmuş və ya məhdudlaşdırılmış zona kimi müəyyən etmək;

3.1.66. Azərbaycan Respublikasının ərazisində yerli hava xətlərində aviadaşımalar və aviasiya xidmətinin bütün növləri ilə bağlı tarif və yığımların tətbiqinə dair Nazirliyə təkliflər vermək;

3.1.67. “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, hava nəqliyyatı vasitələri ilə xarici ölkələrə və ya xarici ölkələrdən daşınan sərnişinlərin icbari fərdi qəza sığortası üzrə icbari qaydada sığortalanmasına nəzarət etmək;

3.1.68. beynəlxalq hava daşımaları ilə məşğul olan mülki hava gəmiləri heyətlərinin və Agentlik personalının pasport-viza təminatı üçün tədbirlər görmək;

3.1.69. Agentliyin nəzarət funksiyasını həyata keçirən müfəttişlərini xüsusi geyim forması ilə, əməyin təhlükəsizliyi ilə bağlı fərdi qoruyucu vasitələrlə və səlahiyyətlərini təsdiqləyən vəsiqələrlə təmin etmək;

3.1.70. aviadaşımalar bazarının rəqabət əsasında formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək, mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərin rəqabəti məhdudlaşdıran hərəkətlərinin qarşısının alınması üçün müvafiq tədbirlər görülməsi ilə əlaqədar Nazirliyə məlumat vermək;

3.1.71. fəaliyyət istiqamətləri üzrə elektron xidmətləri “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.72. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentlik əməkdaşlarının əlavə təhsilinin və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.73. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.74. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.75. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.76. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.77. mülki aviasiyaya dair müvafiq texnoloji, texniki, iqtisadi, maliyyə, sosial, ekoloji və digər məlumatlardan ibarət informasiya sistemi yaratmaq;

3.1.78. hava limanları xidmətləri və aeronaviqasiya xidmətləri ilə bağlı yığımların hesablanması qaydasına (metodikasına) uyğun müəyyən edilmiş yığımların tətbiqi ilə əlaqədar hava limanı və aeronaviqasiya sahəsində fəaliyyət göstərən subyektlərə münasibətdə iqtisadi nəzarəti həyata keçirmək və Nazirliyə hesabatlar təqdim etmək;

3.1.79. mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərin, o cümlədən mülki hava limanlarının fəaliyyətinin iqtisadi tənzimlənməsini həyata keçirmək, iqtisadi və maliyyə vəziyyətini təhlil etmək;

3.1.80. müvafiq sahəyə maliyyə yardımı və texniki yardım cəlb edilməsi məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlığa dair Nazirliyə təkliflər vermək;

3.1.81. müvafiq sahəyə investisiyaların cəlb edilməsi və onlardan səmərəli istifadə üçün əlverişli şərait yaradılmasına dair təkliflər hazırlamaq;

3.1.82. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və təlim kursu proqramlarının tərtibi ilə bağlı tələbləri müəyyən etmək, aidiyyəti tədris mərkəzlərinin təlim kursu proqramlarını təsdiq etmək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.83. müvafiq sahədə müqavilə əsasında ödənişli əsaslarla hazırlıq kursları və təlimlər təşkil etmək;

3.1.84. müvafiq sahədə fəaliyyət göstərən mütəxəssislərin ayrı-ayrı kateqoriyalarının sağlamlıq vəziyyətinin, həmçinin onların peşəkar hazırlıq səviyyəsinin yoxlanılması üçün tədbirlər görmək, onların nəzəri və praktiki bilik səviyyəsi üzrə testlər keçirmək;

3.1.85. uçuş heyətinə mürəkkəb uçuş (hava) şəraitlərində uçuşlara icazələr verilməsi üçün yoxlamalar həyata keçirmək;

3.1.86. uçuş heyətinin, hava hərəkətinə xidmət dispetçerlərinin və digər aviasiya personalının sağlamlığına tibbi nəzarətin monitorinqini keçirmək;

3.1.87. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.88. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.89. dövlət və hökumət başçıları, habelə yüksəkvəzifəli nümayəndə heyətləri üçün nəzərdə tutulmuş uçuşların (liter reyslərin) hazırlanmasına və yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

3.1.90. “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda və aviasiya sahəsini tənzimləyən digər normativ hüquqi aktlarda müəyyən olunmuş hallarda mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən təqdim edilmiş sənədləri təsdiq etmək;

3.1.91. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.92. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğvi haqqında Nazirliyə təkliflər vermək;

3.2.2. müvafiq sahə üzrə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə Nazirliyə təkliflər vermək;

3.2.3. müvafiq sahədə beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. müvafiq sahə üzrə təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.2.5. müvafiq sahədə yoxlamalar aparmaq, icrası məcburi olan göstərişlər və sərəncamlar vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.6. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar, komitələr və komissiyalar yaratmaq, həmçinin onların yaradılması təşəbbüsü ilə çıxış etmək və işində iştirak etmək;

3.2.7. uçuşların təhlükəsizliyinin, aviasiya təhlükəsizliyinin təmin edilməsi, aviasiya hadisələrinin və insidentlərinin araşdırılması məsələlərinə dair məlumatları əldə etmək;

3.2.8. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə, o cümlədən mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.9. müvafiq sahədə beynəlxalq standartların və tövsiyə olunan təcrübənin icrası məqsədilə elmi və kommersiya təşkilatlarını, müstəqil ekspertləri və mütəxəssisləri, o cümlədən xarici mütəxəssisləri müqavilə əsasında öz fəaliyyətinə cəlb etmək;

3.2.10. mülki aviasiyada dövlət nəzarəti çərçivəsində təhlükəsizliyin təmini ilə bağlı yerli və xarici fiziki və hüquqi şəxslərə müqavilə əsasında xidmətlər göstərmək;

3.2.11. Agentliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.12. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.13. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.14. müvafiq sahənin fəaliyyətini tənzimləmək məqsədilə strukturların yaradılması, ləğvi və yenidən təşkili üzrə təkliflər vermək;

3.2.15. Agentliyin müfəttiş yoxlamalarını həyata keçirən müfəttiş heyəti vasitəsilə hava gəmilərinə, xidməti otaqlara daxil olmaq, texniki vasitələrlə, mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərin fəaliyyətinə dair bütün sənədlərlə (məlumatlarla) maneəsiz tanış olmaq, müvafiq sahədə çalışan vəzifəli şəxslərə uçuşların və aviasiya təhlükəsizliyinin təmin edilməsi məsələləri barədə tapşırıqlar və müfəttiş göstərişləri vermək, habelə onların icra müddətlərini müəyyən etmək;

3.2.16. geyim formaları nümunələrinin, fərqlənmə nişanlarının və mülki aviasiyada geyim formalarının daşınması qaydalarının təsdiq edilməsinə dair təkliflər vermək;

3.2.17. təşkilati-hüquqi və mülkiyyət formalarından asılı olmayaraq, mülki hava gəmilərinin uçuşlarının təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar müvafiq sahədə fəaliyyət göstərən bütün hüquqi və fiziki şəxslərin fəaliyyətinin müfəttiş yoxlamaları keçirilən zaman mülki aviasiya sahəsində fəaliyyət göstərən müvafiq subyektlərin nümayəndələrini bu yoxlamalara cəlb etmək;

3.2.18. uçuşların təhlükəsizliyinə, aviasiya təhlükəsizliyinə birbaşa təhdid yaradan çatışmazlıqlar və pozuntular aşkar olunduqda, həmin təhdidlər aradan qaldırılanadək mülki hava gəmilərinin və aerodromların, onların avadanlığının istismarını dayandırmaq, mülki aviasiya mütəxəssislərini işdən kənarlaşdırmaq və bu hallar üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsi məqsədilə zəruri tədbirlər görmək;

3.2.19. hərbi və digər xüsusi rejimli zonaların yaxınlığında yerləşən hava limanları və aerodromların təhlükəsizliyinə təhdidlər yarandıqda, həmin hava limanlarının və (və ya) aerodromların təhlükəsizliyi təmin olunana qədər mülki məqsədlər üçün istismarına məhdudiyyətlər tətbiq etmək və ya onların fəaliyyətini dayandırmaq;

3.2.20. BMAT tərəfindən nəşri tələb edilən Aeronaviqasiya Məlumatlar Toplusunun, Aeronaviqasiya Məlumat Xidmətinin və heyətə vaxtında çatdırılması mühüm olan məlumatlardan ibarət bildirişin yayımlanmasını təmin etmək;

3.2.21. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.22. müvafiq sahədə maliyyə-iqtisadi, investisiya və tarif-qiymət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

3.2.23. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətinin əlaqələndirilməsi barədə Nazirliyə təkliflər vermək;

3.2.24. müvafiq sahədə işlər görmək və xidmətlər göstərmək;

3.2.25. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.26. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda müəyyən olunmuş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən olunmuş hallarda digər ödənişlər tutmaq;

3.2.27. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Agentliyin idarə olunması**

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanı onun İdarə Heyətidir.

4.3. Agentliyə ümumi rəhbərliyi və nəzarəti 4 (dörd) üzvdən – sədr və onun 3 (üç) müavinindən ibarət İdarə Heyəti həyata keçirir. İdarə Heyətinin sədrini Azərbaycan Respublikasının Prezidenti, İdarə Heyəti sədrinin müavinlərini isə Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri vəzifəyə təyin və vəzifədən azad edir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyəti sədrinin müavinləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Agentliyin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.2. Nazirliklə razılaşdırmaqla, Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.5.3. Agentliyin inkişaf istiqamətləri ilə bağlı Nazirliyə təkliflər vermək, strateji məqsəd və planlarını müəyyən etmək;

4.5.4. Agentliyin fəaliyyətini təşkil etmək;

4.5.5. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və BMAT-ın beynəlxalq standartları və tövsiyə olunan təcrübəsinə uyğun olaraq, onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğlərinin müvafiq sahədə çalışan personalın əməkhaqqından az olmamaq şərtilə təsdiq edilməsi, o cümlədən Agentliyin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sisteminin müəyyənləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

4.5.6. Nazirliyin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.7. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.8. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.9. Agentliyin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.5.10. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək və bu barədə Nazirliyə məlumat vermək;

4.5.11. Nazirliyin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.12. bu Nizamnamənin 3.1.74-cü yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.13. Agentliyin strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.14. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.15. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.16. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.17. Agentliyin fəaliyyəti ilə əlaqədar İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri ayda azı bir dəfə İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.7. İdarə Heyətinin üzvlərinə, habelə İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə İdarə Heyətinin iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.8. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.9. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.10. İdarə Heyətinin sədri:

4.10.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.10.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.10.3. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.10.4. öz təşəbbüsü, habelə İdarə Heyətinin hər hansı bir üzvünün təklifi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.10.5. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

4.10.6. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.10.7. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.10.8. özünün və Agentliyin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.10.9. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, onun idarə, filial və nümayəndəliklərinin və tabeliyindəki digər qurumların strukturunu, ştat cədvəlini və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

4.10.10. Agentlik işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.10.11. Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.10.12. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim edir, onların həvəsləndirilməsi üçün tədbirlər görür;

4.10.13. işçilərin sosial hüquqlarının həyata keçirilməsini təmin edir, işçilərin maddi təminatının və əmək şəraitinin yaxşılaşdırılması, habelə mülki aviasiya personalına tətbiq edilən xidmət şərtlərinin Agentliyin işçilərinə də tətbiq edilməsi üçün tədbirlər görür;

4.10.14. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.10.15. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.10.16. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.10.17. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.10.18. Agentliyin kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir.

4.11. İdarə Heyətinin üzvləri:

4.11.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.11.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.11.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.11.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.11.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.12. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

**5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Agentliyin nizamnamə fondunun məbləği 2 636 206 (iki milyon altı yüz otuz altı min iki yüz altı) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsinin vəsaiti, Agentliyin öz fəaliyyətindən, o cümlədən göstərdiyi xidmətlərdən əldə olunan vəsait, beynəlxalq təcrübəyə əsasən aviadaşıyıcılar tərəfindən hava limanlarına və aeronaviqasiya xidmətlərinə görə ödənilən məbləğdən nəzarət funksiyaları ilə bağlı yığımlar, ianələr, qrantlar, cəlb edilən investisiyalar və qanunla qadağan edilməyən digər vəsait hesabına formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Agentlik qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Agentliyin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə dövlət büdcəsinə köçürülür.

5.6. Agentliyin müvafiq sahədə gördüyü işlərin və göstərdiyi xidmətlərin qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

**6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirir.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

**7. Agentlikdə uçot və hesabat**

7.1. Agentlik “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Agentliyin ləğvi və yenidən təşkili**

Agentliyin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 23** **Bakı şəhəri, 15 fevral 2025-ci il**

**İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında**

"Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

İş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2025-ci il 27 və 28 mart iş günləri ilə müvafiq olaraq 10 mart və 1 aprel istirahət günlərinin yerləri dəyişdirilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 24** **Bakı şəhəri, 19 fevral 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə"**

2012-ci il 12 dekabr tarixli 310 nömrəli, "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə" 2013-cü il 3 may tarixli 75 nömrəli, "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə" 2015-ci il 3 avqust tarixli 272 nömrəli, "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpaqları alan orqanın müəyyən edilməsi barədə" 2020-ci il 21 dekabr tarixli 502 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 dekabr tarixli 310 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1374 (Cild I) 1-ci və 2-ci hissələrində ismin müvafiq hallarında "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri ismin müvafiq hallarında "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

**2.** "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 3 may tarixli 75 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 564 (Cild I) 1-ci və 2-ci hissələrində ismin müvafiq hallarında "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri ismin müvafiq hallarında "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

**3.** "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpağı alan orqanın müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 avqust tarixli 272 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 958 (Cild I) 1-ci və 2-ci hissələrində ismin müvafiq hallarında "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri ismin müvafiq hallarında "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

**4.** "Torpağın alınmasını zəruri edən dövlət ehtiyacının və həmin torpaqları alan orqanın müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 dekabr tarixli 502 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1603 (Cild I) 1-ci və 2-ci hissələrində ismin müvafiq hallarında "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri ismin müvafiq hallarında "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 25** **Bakı şəhəri, 19 fevral 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 104 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1191-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyul tarixli 155 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 104 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 601 (Cild I); 2024, № 1, maddə 111) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.2. Hərəkətdə olan iriqabaritli və (və ya) ağırçəkili nəqliyyat vasitələrinin qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərini ölçən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin elektron tərəziləri və foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələri ilə, habelə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş halda Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin nəzarət məntəqələrində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən saxlanılmaqla, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşları ilə birgə xüsusi ölçü alətləri, cihazları və tərəzilər vasitəsilə yoxlanılır.".

**2.** Aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

"4.2-1. Bütün elektron tərəzilər və foto və ya video qeydiyyat funksiyalarına malik texniki vasitələr, habelə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkətinə icazələrin verilməsi ilə bağlı Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sisteminə inteqrasiya edilməlidir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 29** **Bakı şəhəri, 19 fevral 2025-ci il**

**"Hava limanları və (və ya) aerodromların layihələndirilməsi və istismarına dair Tələblər"in təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Hava limanları və (və ya) aerodromların layihələndirilməsi və istismarına dair Tələblər" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 31** **Bakı şəhəri, 20 fevral 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 sentyabr tarixli 423 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət Əməyin Mühafizəsi Fondunun Əsasnaməsi"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2146 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 sentyabr tarixli 423 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1577 (Cild l); 2024, № 4, maddə 461) ilə təsdiq edilmiş "Dövlət Əməyin Mühafizəsi Fondunun Əsasnaməsi"nin 2.7.8-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakıı məzmunda 2.7.9-cu yarımbənd əlavə edilsin:

"2.7.9. Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin tabeliyində "Əməyin Mühafizəsi Mərkəzi" publik hüquqi şəxsin saxlanma xərcləri və fəaliyyətinin maliyyələşdirilməsinə.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 34** **Bakı şəhəri, 20 fevral 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 549 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 549 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12 (II kitab), maddə 2745; (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 3.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"3.3. "Azərbaycan Dövlət Aqrar Universiteti" publik hüquqi şəxs:

3.3.1. "Azərbaycan Dövlət Aqrar Universiteti" publik hüquqi şəxsin nəzdində "Gəncə Dövlət Aqrar Kolleci" publik hüquqi şəxs.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 35** **Bakı şəhəri, 20 fevral 2025-ci il**

**"Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 avqust tarixli 170 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 avqust tarixli 170 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 196 (Cild I); 2024, № 1, maddə 111, № 2, maddə 210) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"nin 4.6-2-ci bəndinə (hər iki halda) "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 avqust tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 662 (Cild I) ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"nın 1.2-ci, 1.5-ci və 1.6-cı bəndlərinə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin.

**3.** "ASAN ödəniş" sisteminə qoşulmaq üçün texniki tələblər"in və "ASAN ödəniş" sistemindən istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 oktyabr tarixli 341 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1559 (Cild I); 2024, № 11, maddə 1247) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adına (hər iki halda), preambulaya, 1-ci, 2-ci və 3-cü hissələrə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "ASAN ödəniş" sisteminə qoşulmaq üçün texniki tələblər"in adına və 1.1-ci bəndinə (hər iki halda) "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin;

3.3. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "ASAN ödəniş" sistemindən istifadə Qaydaları" üzrə:

3.3.1. adına, 1.1-ci (hər üç halda), 2.1-ci və 3.1-ci bəndlərə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin;

3.3.2. 3.13-cü bənddə "bank, poçt və ya digər ödəniş təşkilatları" sözləri "ödəniş xidməti təchizatçıları" sözləri ilə əvəz edilsin.

**4.** "İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 466 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1954 (Cild I); 2024, № 3, maddə 294, № 4, maddə 438) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan və bu qaydaların pozulması ilə əlaqədar digər inzibati xətalarla bağlı çıxarılan inzibati tənbeh vermə haqqında Elektron Qərar"a "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş 3-1 nömrəli əlavə - "Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər, işsizlikdən və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar çıxarılan inzibati tənbeh vermə haqqında Elektron Qərar"a "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 615 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2560 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Lisenziyalar və icazələr" portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər"in 10.2-ci bəndinə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 453 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1873 (Cild I) ilə təsdiq edilmiş "İxtira, faydalı model və sənaye nümunələrinin dövlət reyestrinə daxil edilməsi Qaydası"nın 2.3-cü və 3.3-cü bəndlərində "sistemi üzərindən" sözləri "informasiya sistemi üzərindən ödəniş xidməti təchizatçıları vasitəsilə" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 iyul tarixli 238 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 968 (Cild I); 2024, № 2, maddə 229) ilə təsdiq edilmiş "Aqrar sığorta" informasiya sisteminin Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

7.1. 3.2.7-ci yarımbəndə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin;

7.2. 7.1.9-cu yarımbənddə "ASAN ödəniş" sistemi" sözləri "ASAN ödəniş" informasiya sistemi üzərindən ödəniş xidməti təchizatçıları" sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 avqust tarixli 293 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1110 (Cild I) ilə təsdiq edilmiş "Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının tərtib edilməsi Qaydası"nın 3.1-ci və 4.2-ci bəndlərində "sistemi üzərindən" sözləri "informasiya sistemi üzərindən ödəniş xidməti təchizatçıları vasitəsilə" sözləri ilə əvəz edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 498 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1833 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Uyğunluğa dair sənədlər toplusu"nun 4.2-ci bəndinə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin.

**10.** "Şərtlər toplusunun nümunəvi forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 503 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1838 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "İşlərin açıq tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması"nın 5.2-ci bəndinə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin;

10.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Malların açıq tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması"nın 5.2-ci bəndinə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin;

10.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Xidmətlərin açıq tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması"nın 5.2-ci bəndinə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin;

10.4. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Satınalma predmetinin ikimərhələli tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması"nın 5.2-ci bəndinə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin;

10.5. həmin Qərarla təsdiq edilmiş 8 nömrəli əlavə - "İşlərin kotirovka sorğusu metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması"nın 5.2-ci bəndinə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin;

10.6. həmin Qərarla təsdiq edilmiş 9 nömrəli əlavə - "Malların kotirovka sorğusu metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması"nın 5.2-ci bəndinə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin;

10.7. həmin Qərarla təsdiq edilmiş 10 nömrəli əlavə - "Xidmətlərin kotirovka sorğusu metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması"nın 5.2-ci bəndinə "ASAN ödəniş" sözlərindən sonra "informasiya" sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# AİB Azərbaycanın etibarlı maliyyə tərəfdaşıdır

## *Bank ölkəmizə 5 milyard dollar yatırım qoyub*

**Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Şahin Babayevin Asiya İnkişaf Bankının (AİB) özəl sektorun inkişafı üzrə regional direktoru Enriko Pinalinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü zamanı ölkəmizdə nəqliyyat sektorunun inkişafı, bu sahədə AİB tərəfindən icra olunan layihələrlə bağlı müzakirələr aparılıb. “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Rövşən Rüstəmovun bankın ölkəmizdəki nümayəndəliyinin rəhbəri xanım Sunniya Durrani-Camalla görüşündə isə rəqəmsallaşma, dekarbonizasiya, dayanıqlılıq və digər istiqamətlərdə əməkdaşlıq barədə fikir mübadiləsi olub, eləcə də iki qurum arasında səmərəli tərəfdaşlıq münasibətləri və AİB-in Azərbaycanın dəmiryol infrastrukturunun inkişafına dəstəyi yüksək qiymətləndirilib.**




Bildirilib ki, enerjiyə qənaət, bərpa olunan enerji istehsalı, tullantıların idarə olunması, resursların səmərəli istifadəsi kimi sahələr karbon izinin azaldılmasına böyük önəm verən “Azərbaycan Dəmir Yolları” ilə bank arasında əməkdaşlığın yeni mərhələsi kimi nəzərdən keçirilə bilər.

Görüşdə, həmçinin AİB-in dəstəyi ilə həyata keçirilən Azərbaycan dəmiryol sisteminin rəqəmsallaşdırılması, Sumqayıt – Yalama dəmiryol xəttinin bərpası kimi layihələr və yeni istiqamətlərdə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, son illər ölkəmizin maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, həmçinin beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində çoxsaylı layihələr həyata keçirilib. Prezident İlham Əliyev 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənən “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”də bununla bağlı nəzərdə tutulan müəyyən tədbirlərin icrası diqqət mərkəzində saxlanılıb. Respublikada investisiya mühitinin daha da yaxşılaşdırılmasına müsbət təsir göstərən məsələlərin həlli, beynəlxalq maliyyə institutları ilə əlaqələrin genişləndirilməsi də gerçəkləşdirilib.

Xatırladaq ki, Azərbaycan və AİB arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi 26 il ərzində ölkəmizin bu maliyyə qurumu ilə tərəfdaşlığı getdikcə dərinləşib. Bankın ətraf mühit, rəqəmsal inkişaf, dövlət – özəl sektor tərəfdaşlığı, enerji, ölkəmizin tranzit – logistika potensialının artırılması və müxtəlif infrastruktur layihələrinin maliyyələşdirilməsində yaxından iştirakı daim diqqətdə saxlanılıb.

Yeri gəlmişkən, AİB Azərbaycanla əməkdaşlığında ölkəmizin iqtisadiyyatının şaxələndirilməsi, inklüziv artımın təşviqi ilə bağlı hər zaman önəmli addımlar atıb. Eyni zamanda, COP29-un ev sahibi seçilməsi münasibətilə Azərbaycanı təbrik edən və ölkəmizin “yaşıl” inkişaf gündəliyinin əhəmiyyətini yüksək dəyərləndirən ölkələrdən biri olub.

AİB hazırda ölkəmizin nəqliyyat, dəmiryolu və bərpaolunan enerji infrastrukturu layihələrinə böyük maraq göstərir, bu istiqamətdə respublikamızın aidiyyəti dövlət qurumları ilə müzakirələr aparır.

Beynəlxalq maliyyə təşkilatı olan AİB 1966-cı ildə yaradılıb. Əsas məqsədi Asiya məkanında, bütövlükdə, Şərq ölkələrində iqtisadiyyatın inkişafına yardım göstərməkdən ibarət olan bankın baş ofisi Filippinin Manila şəhərində yerləşir. AİB-ni maliyyələşdirən 67 üzv-ölkə var ki, onlardan 48-i Asiya və Sakit Okeanı regionunda yerləşir.

Azərbaycan Respublikası 1999-cu il oktyabrın 20-də Asiya İnkişaf Bankına üzvlüyə qəbul olunub. 2004-cü ilin noyabr ayından etibarən isə təşkilatın ölkəmizdə nümayəndəliyi fəaliyyət göstərir. Azərbaycanın AİB-in səhmlərində payı 0,447 faiz təşkil edir.

Ötən müddətdə Azərbaycan Respublikası AİB-dən ümumi dəyəri, təxminən, 5 milyard dollardan çox olan kredit, qrant və texniki yardımlar əldə edib. Bu layihələr əsasən maliyyə, dövlət sektorunun idarə edilməsi, kənd təsərrüfatı, enerji, səhiyyə, su idarəçiliyi və nəqliyyat sahələrinə aiddir. Hökumətin Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsinə dəstək olaraq AİB-in Azərbaycana qısa və orta müddətli yardımı dövlət sektorunun idarə etməsi, nəqliyyat və enerji, eləcə də şəhər yerlərinin infrastrukturu və özəl sektorun inkişafı sahələrində əməliyyatları ehtiva edəcək.

Azərbaycanla AİB arasında səmərəli əməkdaşlıqdan danışarkən, onu da qeyd etməliyik ki, bank tərəfindən ayrılan investisiya əsasən infrastruktur sahəsinə yönəldilib. Məsələn, elektrik enerjisinin istehsalı, dəmir yolu tikintisi, yol salınması, su və kanalizasiya ilə bağlı çoxsaylı layihələrin gerçəkləşdirilməsi bunun bariz ifadəsidir.

# “Nəzarət texnologiyaları üzrə Yol Xəritəsi”

**Azərbaycan Mərkəzi Bankı (AMB) “2024–2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası” çərçivəsində müəyyənləşdirilən hədəflərə uyğun təşəbbüslərin həyata keçirilməsini uğurla davam etdirir.**

AMB-dan bildirilib ki, Dünya Bankı ilə birgə həyata keçirilən “Maliyyə sektorunun modernləşdirilməsi” layihəsi çərçivəsində Mərkəzi Bank ilə Dünya Bankı Qrupu tərəfindən birgə hazırlanan “Nəzarət texnologiyaları üzrə Yol Xəritəsi” təsdiqlənib.

Yol Xəritəsi nəzarət texnologiyalarının (“SupTech”) inkişafı üçün strateji çərçivəni müəyyənləşdirməklə 2024–2029-cu illər üzrə Mərkəzi Bank tərəfindən bu istiqamətdə planlaşdırılan layihə və təşəbbüslər portfelini əhatə edir. Sənəd, eyni zamanda, “SupTech”in tətbiqinin potensial töhfələrini də özündə kompleks şəkildə cəmləyir.

“SupTech” risk əsaslı nəzarət məqsədləri üçün texnologiya və dataların istifadəsi ilə bağlı gələcək perspektivləri müəyyənləşdirməyi hədəfləyir. “SupTech” vasitələrinin tətbiqi nəzarət proseslərinin səmərəliliyini artırmağa, maliyyə institutlarının hesabatlığının keyfiyyətini və tənzimləyici tələblərə riayətolunma səviyyəsini yüksəltməyə, nəticədə, maliyyə sisteminin dayanıqlığını gücləndirməyə xidmət edir.



“SupTech” Mərkəzi Bankın nəzarət sahəsindəki əsas strateji məqsədi olan risk əsaslı nəzarət yanaşmasının “Risk əsaslı nəzarət üzrə Siyasət Konsepsiyası”na uyğun surətdə tətbiqinə nail olmaq üçün əsas dəstəkləyici amil rolunu oynayacaq. Yol Xəritəsinin icrası həm də Mərkəzi Bankın “2024–2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası”nda müəyyənləşdirilən hədəflərə – data əsaslı “SupTech” həllərin tətbiqi ilə nəzarət proseslərini təkmilləşdirməyə və nəzarət informasiya sisteminin tətbiqinə nail olmağa dəstək verəcək.

# Özəl fəaliyyət genişlənir

**Dövlət Vergi Xidmətindən XQ-yə bildirilib ki, cari il fevral ayının 1-nə respublika üzrə uçotda olan 1 milyon 604 min 938 vergiödəyicisinin 87 faizi fiziki, 13 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.**



Məlumata əsasən, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 5,4 faiz, o cümlədən fiziki şəxslərin sayı 5,1 faiz, hüquqi şəxslərin sayı isə 7,6 faiz artıb. Fevral ayının 1-nə qeydiyyatda olan kommersiya qurumlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,3 faiz artaraq 191 min 643 vahid təşkil edib.

Bu ilin yanvar ayı ərzində 1307 kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, onların 90,1 faizi yerli investisiyalı, 9,9 faizi xarici investisiyalı qurumlardır. Kommersiya qurumlarının 87,5 faizi elektron qaydada qeydiyyata alınıb. Yanvarda qeydiyyatdan keçən yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının xüsusi çəkisi 97,5 faiz təşkil edib.

Dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində aktiv ƏDV ödəyicilərinin sayı 40.901 vahid təşkil edərək ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,3 faiz artıb.

Dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində fəal ƏDV ödəyicilərinin sayı 40 min 901vahid (ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,3 faiz çox) təşkil edib. ƏDV ödəyicilərinin ümumi qeydiyyatda xüsusi çəkisi 32,2 faizə çatıb.

Dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 91,5 faizi məhdud məsuliyyətli cəmiyyət, 1,1 faizi səhmdar cəmiyyət, 1,1 faizi kooperativ və digər formalarda yaradılıb.

# Xarici investisiyalı qurumların sayı çoxalır

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, bu ilin yanvar ayında 90,1 faizi (1178 qurum) yerli investisiyalı, 9,9 faizi (129 qurum) xarici investisiyalı olmaqla 1307 kommersiya qurumu dövlət qeydiyyatından keçib.**



Qeyd edilib ki, kommersiya qurumlarının 87,5 faizi elektron qaydada qeydiyyata alınıb. Yanvar ayında qeydiyyatdan keçmiş yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının xüsusi çəkisi isə 97,5 faiz olub.

Vergi Xidmətinin məlumatına görə, 2025-ci ilin fevral ayının 1-nə respublika üzrə uçotda olan 1 milyon 604 min 938 vergi ödəyicisinin 87 faizi fiziki şəxs, 13 faizi hüquqi şəxs və digər təşkilatlar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 5,4 faiz, o cümlədən fiziki şəxslərin sayı 5,1 faiz, hüquqi şəxslərin sayı isə 7,6 faiz çoxalıb. Fevral ayının 1-nə qeydiyyatda olan kommersiya qurumlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,3 faiz artaraq 191 min 643 vahidə yüksəlib.

Dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində fəal ƏDV ödəyicilərinin sayı 40 min 901 vahid təşkil edərək ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,3 faiz artıb. ƏDV ödəyicilərinin ümumi qeydiyyatda xüsusi çəkisi 32,2 faiz təşkil edib. Dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 91,5 faizi məhdud məsuliyyətli cəmiyyət, 1,1 faizi səhmdar cəmiyyət, 1,1 faizi isə kooperativ və s. formalarda yaradılıb.

# Neft ehtiyatlarımız – 7 milyard barel

**ABŞ Energetika Nazirliyinin mediada yayılan məlumatına əsasən, Azərbaycanda təsdiq edilən neft ehtiyatları 2025-ci il yanvarın 1-nə 7 milyard barel, qaz ehtiyatları isə 60 trilyon kubfut təşkil edir. Bildirilib ki, Azərbaycanda kondensat nəzərə alınmadan neft hasilatının pik səviyyəsi 2009-2010-cu illərdə gündəlik, təxminən, 1 milyon barel həcmində qeydə alınıb.**

Məlumatda qeyd edilib ki, proqnozlara görə, ölkədə ümumi maye karbohidrogen hasilatı 2024-2026-cı illər ərzində orta hesabla gündəlik 600 min bareldən bir qədər çox olacaq. Hasilatın 2010-cu ildə gündəlik 823,1 min barel səviyyəsində pik həddə çatmasına baxmayaraq “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar bloku Azərbaycanda maye karbohidrogenlərin hasilatının əsas mənbəyi kimi qalacaq. Bu yataqlar blokundan çıxarılan neft və “Şahdəniz” qaz yatağından əldə edilən kondensat respublikamızın hasil və ixrac etdiyi əsas maye karbohidrogenlər olacaq.

ABŞ Energetika Nazirliyinin məlumatına görə, 2025-ci il yanvarın 1-nə Qazaxıstanda təsdiqlənmiş neft ehtiyatları 30 milyard barel, Türkmənistanda 600 milyon



barel, Özbəkistanda isə 594 milyon barel təşkil edir.

Qeyd edilib ki, 2023-cü ildə Xəzər regionunun üç ölkəsi (Azərbaycan, Qazaxıstan, Türkmənistan) və Özbəkistanın payına qlobal enerji istehsalının 3 faizi, qlobal istehlakın isə 1 faizi düşüb.

# Metallurgiya sənayesi yenilənir



**Bakı Şəhər Statistika İdarəsindən “XQ”yə bildirilib ki, ötən il paytaxtın metallurgiya sənayesində 607,2 milyon manatlıq (əvvəlki illə müqayisədə 93 milyon manat, yaxud da 18,1faiz çox) məhsul istehsal edilib. Belə ki, 2023-cü ildə Bakının metallurgiya sənayesində istehsalın həcmi 514,2 milyon manat olub.**

Qeyd edək ki, ötən il Azərbaycanda metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində 1milyard 349,3 milyon manatlıq məhsul istehsal olunub, hazır metal məmulatlarının istehsalı sahəsində 38,9 faiz, metallurgiya sənayesi məhsullarının istehsalında isə 27,1 faiz artım müşahidə edilib.

2024-cü ildə metallurgiya sənayesi üzrə mis məftilin istehsalı 5,5 dəfə, alüminium məmulatlarının istehsalı 72,1 faiz, armatur istehsalı 28,7 faiz, hazır metal məmulatlarının istehsalı sahəsi üzrə metaldan sair məmulatların istehsalı 20,4 faiz, izolyasiyası olmayan çoxnaqilli məftil, troslar və oxşar məmulatların istehsalı isə 17,9 faiz artıb.

# Kənddə subsidiya ödənişləri artıb

**2024-cü ildə aqrar sektor üzrə subsidiyaların ödənilməsi üçün 362,5 milyon manat vəsait sərf olunub. Bu isə əvvəlki ilin müvafiq göstəricisini 2,9 faiz və ya 10,1 milyon manat üstələyib.**




Aqrar Tədqiqatlar Mərkəzinin hesabatına əsasən, ötən il əkin subsidiyası üzrə 268,8 milyon manat, pambıq satışına görə 57,7 milyon manat, ərzaqlıq buğda satışına görə 11 milyon manat, süni mayalanma yolu ilə alınmış hər buzova görə 10,3 milyon manat, sertifikatlı toxum və tinglərin satışına görə 5,6 milyon manat, təkrar əkinlərə görə 5,1 milyon manat, tütün satışına görə 1,46 milyon manat, barama satışına görə 1,37 milyon manat, şəkər çuğunduru satışına görə isə 918,4 min manat vəsait ödənilib.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

22 Fevral Avtomobil Yol İşçilərinin Peşə Bayramı Günüdür

# Azərbaycanın yeni avtomobil yolları ölkəmizi tərəqqi və rahatlığa qovuşdurur

**Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələri ilə yanaşı, yol təsərrüfatının sistemli və hərtərəfli inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Dövlət başçısı yol infrastrukturunun yenidən qurulması, yeni yolların çəkilişi ilə bağlı görülən işlərə xüsusi əhəmiyyət verərək bu sahədə həyata keçirilən tədbirlərin gedişatı ilə şəxsən maraqlanır, açılış və təməlqoyma mərasimlərində iştirak edir, dəyərli tövsiyə və tapşırıqlarını verir.**



Prezident İlham Əliyevin 20 fevral 2008-ci il tarixli sərəncamı ilə fevral ayının 22-nin ölkəmizdə "Avtomobil yol işçilərinin peşə bayramı günü" kimi təsis edilməsi isə yol təsərrüfatına, eləcə də bu sahədə çalışanlara diqqət və qayğının parlaq təzahürüdür. Artıq 18-ci ildir ki, peşə bayramlarını qeyd edən yol təsərrüfatının işçiləri dövlət qayğısına cavab olaraq infrastrukturun təkmilləşdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirməklə Azərbaycanda gedən ümumi inkişaf prosesinə mühüm töhfələr verirlər. Məhz onların fədakarlığı sayəsində sosial infrastrukturun mühüm sahələrindən sayılan yol təsərrüfatının yenidən qurulması, yeni yolların salınması, mövcud yolların isə əsaslı şəkildə təmiri ilə bağlı çoxsaylı layihələr həyata keçirilib.

Ölkəmizdə XIX əsrdən başlayan yol tikintisinin ən möhtəşəm inkişaf dövrü isə son 20 ili əhatə edir. Ötən müddətdə ölkəmizdə modern və ən qabaqcıl standartlara cavab verən yol-nəqliyyat infastrukturu formalaşdırılıb. Yeri gəlmişkən, dövlət başçısının yol təsərrüfatının inkişafı ilə bağlı qəbul etdiyi proqramlar çərçivəsində aparılan uğurlu islahatlar nəticəsində Azərbaycan yol infrastrukturunun keyfiyyəti reytinqində MDB dövlətləri arasında 1-ci, dünyanın 140 ölkəsi arasında isə 27-ci yerdə qərarlaşmağa müvəffəq olub.



Ölkə Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 2004-2024-cü illər ərzində ölkədə 6 min 593,7 kilometr respublika əhəmiyyətli, 11 min 643,6 kilometr yerli əhəmiyyətli, 2 min 529,8 kilometr Bakı şəhər yolları olmaqla, ümumilkdə, 20 min 767,1 kilometr uzunluğunda yeni yollar çəkilib, yenidən qurulub və təmir edilib. Eyni zamanda, yol-nəqliyyat infrastrukturunun beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində aparılan kompleks tədbirlər nəticəsində həm respublika əhəmiyyətli, həm də şəhər, rayon, qəsəbə və kənddaxili yollar müasir səviyyədə yenidən qurulur. Heç şübhəsiz, bu da öz növbəsində, rahat gediş-gəlişi təmin etmək, yük və sərnişin daşınmasını asanlaşdırmaqla vətəndaşların həyat şəraitini daha da yaxşılaşdırır.

Son 20 ildə ölkə ərazisində birinci texniki dərəcəli avtomobil yollarının uzunluğu 2 min kilometrdən çox artaraq 2 min 189 kilometrə çatıb. Şimal – Cənub və Şərq – Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin ölkəmizin ərazisindən keçən hissəsini təşkil edən magistral avtomobil yollarının birinci texniki səviyyədə yenidən qurulması, yollarda müxtəlif səviyyəli qovşaqların tikintisi hesabına nəqliyyat vasitələrinin təhlükəsiz və sürətli hərəkəti təmin edilib. Bunun da nəticəsində 2024-cü il ərzində beynəlxalq marşrutların ölkə ərazisindən keçən hissəsi ilə 7 milyon tondan çox yük daşınıb. Göründüyü kimi, ötən 20 ildən artıq bir müddətdə Prezident İlham Əliyev tərəfindən yol təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş proqramlar çərçivəsində aparılan uğurlu islahatlar nəticəsində işğaldan azad edilmiş ərazilərdə tikintisi başa çatmış avtomobil yolları da nəzərə alınmaqla dünya standartlarına tam cavab verən avtomobil yollarının uzunluğu 12 dəfəyədək artıb.

Azərbaycanda avtomobil yolları şəbəkəsinin yenilənməsi və inkişafı istiqamətində paytaxtda və regionlarda çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunub. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən ümumi istifadədə olan avtomobil yollarında və Bakı şəhər yollarında 2004–2024-cü illər ərzində beynəlxalq standartlara cavab verən, müasir texnologiyalar əsasında, orijinal dizaynda 335 körpü və yol ötürücüsü tikilib, 56-sı təmir edilib, 163 yeraltı və yerüstü piyada keçidi, eləcə də 45 tunel inşa olunub. Həmin qurğular nəqliyyat sistemində sıxlıq və tıxacların aradan qaldırılması ilə yanaşı, vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan tarixi qələbə ölkəmizdə yol-nəqliyyat məsələləri ilə bağlı vəzifələri və hədəfləri də yenilədi. İşğaldan azad edilmiş ərazilərdə dövlət başçısının şəxsi nəzarəti ilə dünyanın ən modern yol infrastrukturunun yaradılmasına başlandı. Bu gün işğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin şəxsi nəzarəti ilə dünyanın ən modern yol infrastrukturu yaradılır. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, eləcə də dövlətimizin başçısının imzaladığı sərəncamlar əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra olunan layihələrin sayı 44, avtomobil yollarının ümumi uzunluğu isə 3 min 40 kilometr təşkil edir. Ötən illərdə 7 yolun tikintisi başa çatdırılıb. Hazırda inşası davam edən 38 layihənin isə 2025–2026-cı illərdə tamamlanması nəzərdə tutulub. Bundan əlavə, agentlik tərəfindən 6 şəhərin (Şuşa, Füzulu, Qubadlı, Zəngilan, Kəlbəcər və Cəbrayıl) daxili yollarının, eləcə də 7 kəndə gedən avtomobil yollarının tikintisi davam etdirilib.

İşğaldan azad olunmuş ərazilərdə çəkilən avtomobil yollarının üzərində 70,8 kilometrlik 45 tunel, 9 min 581,6 metrlik 447 körpü və 3 min 871 metrlik 16 viaduk inşa edilir. Şanlı Zəfər tariximizin ötən 4 ilində 59,6 kilometrlik 28 tunelin, 8 min 339,1 metrlik 392 körpünün və 1695 metrlik 9 viadukun tikintisi tamamlanıb. Ümumilikdə isə, ötən müddətdə 28,5 kilometrlik Tərtər–Suqovuşan–Talış, 101 kilometrlik Zəfər, 22 kilometrlik Talış–Tapqaraqoyunlu–Qaşaltı sanatoriyası, 44,5 kilometrlik Bərdə –Ağdam, 12,3 kilometrlik Füzuli –Hadrut avtomobil yollarının, həmçinin Hacıqabul–Bəhramtəpə –Mincivan – Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun 173,6-235 kilometrlik hissəsinin (61,4 kilometr) tikintisi başa çatdırılıb. Bununla yanaşı, Laçın şəhərinə daxil olmadan 22 kilometrlik yeni alternativ çəkilib.

Hazırda icrası davam etdirilən Əhmədbəyli – Füzuli –Şuşa, Şükürbəyli – Cəbrayıl – Hadrut, Xudafərin – Qubadlı – Laçın, Toğana – Kəlbəcər – İstisu, Kəlbəcər – Laçın, Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd, Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd – İranla dövlət sərhədi, Ağdam – Füzuli, Ağdam – Hindarx – Ağcabədi, Qubadlı – Eyvazlı, Qubadlı – Mahmudlu – Yazdüzü – Ermənistan sərhədi, Xudafərin – Qubadlı – Laçın, Hadrut – Tuğ – Azıx avtomobil yollarının, eləcə də Araz çayı üzərində avtomobil körpülərinin tikintisi layihələrinin isə 2025-2026-cı illərdə başa çatdırılması nəzərdə tutulub.

Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Dövlət Proqramına uyğun olaraq, Şuşa, Ağdam, Füzulu, Qubadlı, Zəngilan, Kəlbəcər, Cəbrayıl və Laçın şəhərlərinin daxili yollarının tikintisi də həyata keçirilir. Bundan əlavə, ölkə Prezidentinin müvafiq sərəncamına əsasən, Cəbrayılın Horovlu, Ağdamın Kəngərli, Qubadlının Mahrızlı, Zilanlı, Zəngilanın Cahangirbəyli, Xocalının Malıbəyli və Suqovuşan – Sərsəng su anbarı – Qozlukörpü – Kəlbəcər avtomobil yolunun 24-cü kilometrliyindən ayrılan Umudlu kəndinə gedən magistral, eləcə də 6 rayonlararası avtomobil yollarının tikintisi işləri də aparılır.

Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Əhmədbəyli– Füzuli – Şuşa avtomobil yolunun tikintisi yekunlaşdırılır. Xatırladaq ki, mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol 19,3 kilometr qısadır. Hazırda layihə üzrə son tamamlanma işləri görülür, asfalt-beton örtüyünün aşınma layının döşənməsi işləri icra olunur. Bundan başqa, yol boyu dəmir-beton baryerlərin, əyrixətli metal sədd çəpərlərinin, işıqlandırma qurğularının və yol avadanlıqlarının quraşdırılması, yolun üfiqi nişanlanma xətlərinin çəkilişi, istirahət və parkinq yerlərinin tikintisi davam etdirilir. Xatırladaq ki, Əhmədbəyli – Füzuli – Şuşa avtomobil yolu başlanğıcını Hacıqabul – Horadiz – Ağbənd – Zəngəzur dəhlizi magistral avtomobil yolundan (M6) götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirir.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2021-ci il oktyabrın 17-də Füzuli rayonuna səfəri zamanı təməli qoyulan Ağdam–Füzuli avtomobil yolunun inşası da hazırda sürətlə davam edir. Sözügedən yol Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilən rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır. Uzunluğu 65,7 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla tikilir. Yol çiyinlərinin eni hər bir istiqamətdə 3,75 metr, ayırıcı zolağın eni 4 metr olmaqla yol yatağının eni 26,5 metr təşkil edir. Hazırda yol boyu dəmir-beton tipli küveytlərin tikintisi və ayırıcı zolaqda yerləşdirilən dəmir-beton konstruksiyalı baryerlərin quraşdırılması işləri davam etdirilir.

Bərdə – Ağdam avtomobil yolunun davamı olan Ağdam – Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli rayonları ərazisindən keçir. Yolun istifadəyə verilməsi Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yol boyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.



2024-cü ilin noyabrında Bakı şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP 29) keçirilməsi ilə əlaqədar olaraq paytaxtımızın ilk növbədə təmiri tələb olunan 10 kilometr uzunluğa malik 8 Noyabr prospekti də daxil olmaqla 31 ünvanda əsaslı təmiri işləri aparılıb. Bütövlükdə isə, ötən il ölkə ərazisində 382,7 kilometr uzunluğunda avtomobil yolları, prospekt və küçələr yenidən qurulub və təmir olunub.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"na uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Pirşağı–Novxanı–Xırdalan–M4 avtomobil yolunun tikintisi davam etdirilir. Uzunluğu 29 kilometr olan avtomobil yolu 1A texniki dərəcəli və 6 hərəkət zolaqlı olmaqla inşa edilir. Layihə üzrə 10 qovşağın, 14 körpünün, 1 kommunikasiyalar üçün kanal körpüsünün, 1 qapalı və 1 üstü açıq tunelin tikintisi nəzərdə tutulub. Bununla yanaşı, layihədə 7 düzbucaqlı keçidin, 33 dairəvi və müxtəlif diametrli boruların, eləcə də drenaj quyuların tikintisi, müxtəlif ölçülü drenaj borularının və yol boyunca ehtiyat keçid boruların quraşdırılması işləri həyata keçirilir.

Hazırda layihə üzrə yolun tikintisi altına düşən yaşayış və qeyri yaşayış obyektlərinin bir hissəsinin söküntüsü, həmçinin kommunikasiya xətlərinin köçürülməsi işləri aparılır. Artıq yolun 6 kilometrlik hissəsində torpaq yatağının tikintisi, 4 kilometrlik hissəsində isə əsasın alt və üst laylarının tikintisi, eləcə də yeni asfalt-beton örtüyünün döşənməsi və digər işlər tamalanıb. Tikinti işləri "İnşaat norma və qaydaları"na əsasən, texnoloji ardıcıllıq və yüksək keyfiyyətlə icra olunur. Tərtib olunmuş qrafikə uyğun şəkildə işlərin vaxtında yekunlaşdırılması üçün layihə boyu tikinti prosesinə lazımi sayda texnika və işçi qüvvəsi cəlb edilib.

Qeyd edək ki, yeni yolun inşası Abşeron yarımadasının şimal-şərq hissəsindəki yaşayış məntəqələrinin paytaxta daxil olmadan Bakı – Quba –Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolu ilə şimal istiqamətində nəqliyyat əlaqəsini təmin etməyə, eləcə də Bakı – Şamaxı – Yevlax magistral avtomobil yoluna çıxmaqla ölkəmizin qərb bölgəsi ilə səmərəli və rahat nəqliyyat əlaqəsi qurmağa imkan verəcək.

Eyni zamanda, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Pirşağı – Novxanı – Xırdalan – M4 avtomobil yolunun tikintisi layihəsi çərçivəsində Kürdəxanı yol qovşağı olunur. 1 yol ötürücüsündən və 4 qoldan ibarət qovşaq isə yolun 1,8-ci kilometrlik hissəsində inşa edilir. Hazırda ərazidə yeni yol yatağının inşası, drenaj quyularının və drenaj borularının quraşdırılması, eləcə də istinad divarlarının tikintisi həyata keçirilir. Xatırladaq ki, yeni yol qovşağı Bilgəh, Kürdəxanı, Pirşağı, Novxanı və Balaxanı istiqamətində gediş-gəlişi rahatlaşdırmaqla, ərazidə hərəkətin təhlükəsizliyi və fasiləsizliyi təmin etməyə imkan yaradacaq.

Bakı şəhərinin perspektiv inkişafı nəzərə alınmaqla Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Həsən Əliyev küçəsindən Ziya Bünyadov prospektinə paralel olaraq metronun "Koroğlu" stansiyasına qədər yeni avtomobil yolunun tikintisi də sürətlə davam etdirilir. Yeni yol Heydər Əliyev prospektində və Ziya Bünyadov prospektində nəqliyyat vasitələrinin sıxlığının azaldılması və hərəkətin təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Artıq tikinti altına düşən yaşayış və qeyri yaşayış obyektlərinin, eləcə də torpaq sahələrinin ölçüləri hazırlanıb və maneələrin qiymətləndirilməsi işləri yerinə yetirilib. Hazırda yolun Əliyar Əliyev və Mirzə Uluqbəy küçələrinin kəsişməsinədək olan hissəsində (Keşlə bazarının qarşısı) tikinti işləri aparılır.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin göstərişi ilə kəndlərarası avtomobil yollarının tikintisinin başa çatdırılması, habelə Bakı şəhəri və ətraf qəsəbələrdə avtomobil yollarının tikintisi və yenidən qurulmasının davam etdirilməsi 2016-cı ildən başlayaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə həvalə edilib. Dövlət başçısının tövsiyə və tapşırıqlarının icrasını təmin etmək məqsədilə yol təsərrüfatı işçiləri tərəfindən bu istiqamətdə də mühüm tədbirlər həyata keçirilib. Ötən müddətdə agentlik tərəfindən 107,3 min nəfər əhalinin yaşadığı 71 yaşayış məntəqəsini birləşdirən, ümumi uzunluğu 252 kilometr olan 12 kəndlərarası avtomobil yollarının yenidən qurulması başa çatdırılıb.

Göründüyü kimi, ölkəmizdə yeni yolların salınması, mövcud yolların əsaslı şəkildə yenidən qurulması ilə bağlı layihələr uğurla davam etdirilir. Bütövlükdə isə, Prezident İlham Əliyevin diqqət və qayğısına əməli işlə cavab verən ölkənin yol təsərrüfatı işçiləri daha yüksək nailiyyətlərin əldə olunması üçün bütün imkanları səfərbər edərək ölkəmizin sosial-iqtisadi inkişafına mühüm töhfələr verəcəklər.

***XQ-nin analitik qrupu***

# Azərbaycan elmində akademik tədqiqat ənənə və təcrübəsi

**I məqalə**

**Fevralın 20-də AMEA-nın ümumi yığıncağının keçirilməsi və orada müzakirə edilən məsələlər, əslində, ölkənin elmi camiyəsi üçün hadisədir. Hər şeydən öncə, cəmiyyət AMEA-nın 2024-cü ildə fəaliyyətinin qiymətləndirilməsində maraqlıdır. Təşkilatın bu müddətdə apardığı tədqiqatlar, elmi fəaliyyətin təşkili ilə bağlı həyata keçirdiyi proqramlar, ölkənin sosial, mədəni, siyasi, elmi həyatında iştirakı kimi məsələlər, əlbəttə, bütövlükdə, Azərbaycan üçün əhəmiyyətlidir. Başqa bir tərəfdən, AMEA-nın illik fəaliyyəti ölkədə gedən sürətli islahatlar, yeniləşmələr, strateji inkişaf kursunun həyata keçirilməsi prizmasında da maraq doğurur.**

*Akademiyanın indiyə qədər topladığı təcrübə bizim üçün əzizdir, onu qorumalı, saxlamalıyıq.*

*Heydər ƏLİYEV,*
*ümummilli lider*

Bunlarla yanaşı, AMEA 2025-2030-cu illəri nəzərdə tutan Strateji İnkişaf Konsepsiyası və "Yol xəritəsi"ni də təqdim edirdi. Təşkilatın ictimai və humanitar bölmələrinin ümumi hesabatı fonunda bu məsələ AMEA miqyasını aşaraq bütövlükdə, Azərbaycan elminin qarşıdakı 5 il müddətində inkişafı baxımından çox əhəmiyyətli görünür. Çünki Strateji İnkişaf Konsepsiyası və "Yol xəritəsi" AMEA-nın qarşıdakı 5 il müddətində fəaliyyətinə həm elmin geniş inkişafı, həm də bu prosesin ölkənin strateji inkişaf kursuna hansı faydaları verəcəyi baxımından böyük aktuallıq kəsb edir.

Bu sənədlərlə ölkənin baş elmi təşkilatının ümumi yığıncağının akademik elmi tədqiqatın dövlət, elmi mühit, təhsil və bütövlükdə, ictimaiyyət üçün lazımlığı



və aktuallığı ilə bağlı bir neçə mesaj verdiyini düşünmək olar. Həmin mesajlar üzərində bir qədər geniş dayanmaq üçün elmi baxımdan əhəmiyyəti olan bir neçə anlayışı izah etmək lazım gəlir. Çünki yalnız bu halda ümumi yığıncağın tarixi, elmi mənası və dövlət quruculuğunda elmin iştirakı haqqında ciddi nəzəri əsaslandırılmış təsəvvür əldə etməyin mümkünlüyünə inanırıq.

Bunun üçün Azərbaycan elmində "akademik tədqiqat ənənəsi", "akademik tədqiqat təcrübəsi" və "akademik araşdırma kültürü" kimi anayışların yeri və rolu üzərində qısa dayanmağa ehtiyac vardır.

## Akademik tədqiqat ənənəsi

Burada "ənənə" dedikdə, hər hansı hadisənin (və ya prosesin) müəyyən qaydalar kompleksi vasitəsiilə nəsillərdən-nəsillərə kəsintisiz ötürülməsi başa düşülür. Ümumi səviyyədə "ənənə" latınca "traditio"dandır ki, "ötürmə" mənasını verir. Deməli, bizim interpretasiyada "akademik tədqiqat ənənəsi" ümumi səviyyədə "tradito" məna çalarları sərhədini aşmır. Bu baxımdan, bütövlükdə, elmi ənənə elmi təcrübənin toplanması, saxlanması və ötürülməsi mexanizmlərinin sistemidir. Burada elmin özünəxas normaları, dəyərləri, problemlərin qoyuluşu və həlli nümunələri ayrıca yer tutur. Onu da vurğulayaq ki, qeyd olunan özəlliklər mədəniyyət sxemi, kültür fenomeni və bütövlükdə, mədəniyyət növü kontekstində elmi ənənənin elementləri ola bilər.

Ümumilikdə, dünya elmi tarixində elmi ənənəyə fərqli yanaşmalar olmuşdur. Bu sırada, adətən, S.Tulmin, P.Feyerabend, T.Kun, İ.Lakatos, M.Polani və digərlərini xatırlamaq olar. Burada başlıca fərq elmi ənənəi konkret olaraq hansı faktor və ya faktorlara görə müəyyənləşdirməkdən ibarətdir.

Bu qısa ümumnəzəri izahların fonunda biz "akademik tədqiqat ənənəsinə" konkret məna veririk. Akademik tədqiqat ənənəsi konkret ölkədə tarixən özünü göstərən və nəsillərdən-nəsillərə kəsintisiz ötürülən elə araşdırma qaydalarının kompleksidir ki, bütövlükdə, "akademiklik" anlayışının məna yükü çərçivəsində vahid bucaq altında baxıla bilir. Nəzəri konstruksiyanı mürəkkəbləşdirmədən Azərbaycan nümunəsində akademik tədqiqatı və onun ənənəsini izah edək.

Azərbaycanda akademik tədqiqat tarixi onun tam mənasında ənənə olduğunu sübut edir. Çunki burada həm "akademiklik" anlayışının konkret anlamı mövcud olmuşdur, həm də bu anlam çərçivəsində tədqiqat nəsillərdən-nəsillərə akademiyalar vasitəsilə ötürülmüşdür. Mənbələr göstərir ki, bu prosesin təməlində iki kültür faktoru durur. Onlardan biri yunan akademik tədqiqatlarının rasionallığıdır. Digəri isə Azərbaycanın müsəlman mədəniyyət sistemində coğrafi məkan olaraq mövcud olmasıdır. Nəticədə uzun müddət Azərbaycan akademiyalarında yunan akademizminin dünyəvi rasionallığı ilə İslami dəyərlərin elmi və kültürəl anlamının sintezi əsas fəaliyyət istiqaməti olmuşdur. Qısaca olaraq, tarixi faktlara baxaq.

## Faktlar nələri deyir

Burada bu sətirlərin müəllifinin "AMEA inkişaf və yeniləşmə yollarında" adlı monoqrafiyasında olan materiallardan istifadə edilmişdir. Hər bir faktın mənbəyi monoqrafiyada göstərilmişdir.

Beləliklə, mənbələr göstərir ki, Azərbaycanın indiki coğrafi-mədəni məkanında Bizansda akademiyalar ləğv ediləndən sonra (V əsrdə Edessa, VI əsrdə Afina akademiyaları ləğv edilmişdir) çox sayda akademiya yaranmışdır. Ulu öndər Heydər Əliyevin bu bağlılıqda bir kəlamı çox mətləblərdən xəbər verir. Heydər Əliyev öyrədirdi ki, "çoxəsrlik tariximiz özünün böyük elmi və görkəmli alimləri ilə məşhurdur".

Doğrudan da, qədimdən Azərbaycanın coğrafi-mədəni məkanında folklor, ədəbiyyat, fəlsəfə, riyaziyyat, etika, coğrafiya, fizika, kimya, tibb və s. elm sahələri mövcud olmuş və onlar hətta bir-biri ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir. Ancaq tədqiqatlarda qeyd olunur ki, "Azərbaycanın tarixi ərazisində ilk yazılı elmi əsərlərə isə İslam dininin qəbulundan sonrakı dövrlərdə rast gəlinir. IX əsrdə məşhur "Hikmət evi" ("Beytül-hikmət") adlı Bağdad Akademiyasının meydana gəlməsi müsəlman sivilizasiyasında, o cümlədən Azərbaycanda elmin inkişafına ciddi təkan vermişdir. Bu, öz dövrü üçün güclü elmi kadrları olan, müxtəlif elm sahələrini – riyaziyyat, tibb, biologiya, astronomiya, həndəsəni öyrənən elm ocağı idi".

Orta əsrlərdə Ərdəbil, Təbriz, Xoy, Naxçıvan, Şamaxı, Marağa, Urmiyə və digər şəhərlərdə çoxsaylı elmi mərkəzlər fəaliyyət göstərmişdir. Nəsirəddin Tusinin Marağa rəsədxanası dünyada məşhur idi. Orada müxtəlif ölkələrdən gəlmiş insanlar elm öyrənir və vətənlərində N.Tusi rəsədxanasının elmi tədqiqat ənənəsini davam etdirirdilər. Onu vurğulayaq ki, N.Tusinin elmi mərkəzi akademik tədqiqatın şərtləri daxilində fəaliyyət göstərirdi. Orada indi akademik fəaliyyət üçün lazım olan elmi-metodoloji və maddi-texniki struktur mövcud idi. "Nəsirəddin Tusinin təşkil etdiyi alimlər yığıncağı, müasir dildə desək, akademiyanın Rəyasət Heyəti Təbriz şəhərində yerləşirdi". Ayrıca şəhərcikdə tələbələr və tədqiqatçılar üçün şərait yaradılmışdı.

Dünyaya məlumdur ki, öz dövrlərində Xaqani Şirvani, Nizami Gəncəvi, Fələki Şirvani, Fazil Şirvani, Əminəddin Müzəffər Təbrizi, Müxdəsəddin Səlmasi və başqaları dəyərli elmi və bədii-fəlsəfi əsərlər yaratmışlar.

Bir sıra mənbələrdə Şamaxı Akademiyası müasir Azərbaycan Respublikasının coğrafi-mədəni məkanında bu qəbildən olan ilk elm mərkəzi hesab olunur. Onu Ömər Osman oğlu yaratmışdı. O, Azərbaycan alimi və həkimi kimi tanınmışdı. Şamaxı Akademiyasının tərkibində ciddi araşdırmalar aparılan tibbi məktəb mövcud idi. Orada xarici tədqiqatçıların da çalışdığı haqqında informasiyalar vardır.

İndi Şamaxı şəhərinin yaxınlığında olan Məlhəm kəndi həmin akademiyanın dərmanlarını hazırlayan məkan kimi Şamaxı Akademiyasının bugünümüzə gəlib çatan "mədəni yaddaşı", əlaməti, "tarixi yadigarı"dır. Şamaxı Akademiyasında Ömər Osman oğlu xariçi mühitin faktorlarının insan fiziologiya və patologiyasında təsirinin öyrənilməsinə çox geniş yer verirdi. Bunların içərisində Günəşin təsirindən o qədər danışmışdır ki, onun doğulduğu yer indi də "Dədə Günəş" adı ilə məşhurdur. Ömər Osman oğlunun təşkil etdiyi akademiyanın nəzdində kimyaçılar da fəaliyyət göstərirdilər. Ömər Osman oğlu və onun davamçılarının elmdə əsas nailiyyətlərindən biri yalnız faktlara və müşahidələrə əsaslanmaları və onların dərin təhlilini vermələri idi. Demək olar ki, onun təşkil etdiyi akademiyanın tibbi şöbəsi birinci növbədə Azərbaycanda kliniki tədqiqat metodlarını yaymağa başlamışdır. Əfsuslar olsun ki, zəlzələlər və yadellilərin hücumu nəticəsində Şamaxı Akademiyasından bizə gəlib-çatan əsərlər və abidələr məhduddur və əldə olan məlumatlar da lazımi dərəcədə tədqiq olunmamışdır".

XIII əsrdə Azərbaycan tarixçisi və məşhur həkimi Rəşidəddin Təbrizdə Elmlər Akademiyası yaradır. Burada Çindən, Misirdən, Hindistandan və Qərb ölkələrindən gəlmiş mütəxəssislər işləyirdilər. "Bu akademiyanın idarələrinin hamısı Təbrizin yaxınlığındakı "Rübe-Rəşidi" ("Rəşidi kvadratı") adlanan ərazidə yerləşirdi. Akademiyanın xarabalıqları indi də həmin yerdədir. Burada o zaman alimlər küçəsi, alimlər evi, alimlərin işləməsi üçün geniş laboratoriyalar və s. mövcud idi. Bu akademiyada əsas yeri tibb, əczaçılıq, botanika tutmuşdur.

Maraqlıdır ki, həmin akademiyanın yaxınlığında "Fəxrabad" adlı yerdə böyük botanika bağı varmış. Orada akademiyanın klinikalarında müalicə olunan xəstələr üçün indiki dildə desək, ekoloji cəhətdən təmiz, yüksək keyfiyyətli göy-göyərti və meyvələr becərilirmiş"...

"Rəşidəddin Azərbaycan alimlərinə böyük qiymət verirdi. O, yazırdı ki, Aristotel və Platonun öz dövrləri var idi. İndi isə başqa dövrdür. Azərbaycanın dahi həkimlərindən Mahmud İbn İlyas və Mahzabəddin Təbrizi haqqında çox danışırdı".

XV-XVIII əsrlərdə Azərbaycandakı elmi mərkəzlər fəaliyyətlərini davam etdirmişdir. Həmin dövrdə Əbdürrəşid Bakuvinin elmi fəaliyyəti çox səmərəli olmuşdur; ölkənin coğrafiyası və təbiəti ilə bağlı qiymətli məlumatlar vermişdir.

XIX əsrdə Azərbaycanın şimal hissəsinin Rusiya və Avropa elmi-mədəni mühitinə inteqrasiyaya başlaması ilə akademik tədqiqatlarda yeni dönəmə qədəm qoyulmuşdur. Geosiyasi aspektlə yanaşı, akademik elmi fəaliyyət istiqamətində də Azərbaycan Qərblə Şərqin körpüsü rolunu oynamışdır.

XX əsrdə bu tendensiya xüsusi intensivliklə davam etmişdir. 1919-cu ildə Bakı Dövlət Universitetinin yaradılması ilə Avropa ali məktəblərinə azərbaycanlı tələbələrin göndərilməsi üçün yeni imkanlar meydana gəlmişdir. Bu da sonrakı mərhələdə Azərbaycanda akademik tədqiqatlarda Qərb, Rusiya və Şərq elmi araşdırma ənənələrinin sintezini yaratmaq üçün ciddi təkan rolunu oynamışdır. Həmin kontekstdə 1922-1923-cü illərdə yaradılmış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu ayrıca qeyd edilməlidir. "Onun əsasında Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu yaradıldı (1923). Artıq burada humanitar, təbiət elmlərini və Şərqi öyrənən bölmələr vardı. Bu cəmiyyəti və institutu XX əsrdə Azərbaycanda akademik tədqiqatların təşkilinin ilk formaları hesab etmək olar. Məhz cəmiyyətin bazasında SSRİ Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan şöbəsi təşkil olundu. Burada rus alimləri ilə yanaşı, Ə.Haqverdiyev, B.Çobanzadə, M.Əfəndiyev, A.Tağızadə və başqa alimlər çalışırdılar. 1935-ci ildə həmin şöbə SSRİ EA-nın Azərbaycan filialına çevrildi. Burada Azərbaycanın təbii sərvətlərinin tədqiqinə də xüsusi diqqət yetirilirdi. O səbəbdən də Elmi Tədqiqat Neft İnstitutu və Azərbaycan Elmi Tədqiqat Neft Maşınqayırma İnstitutu təsis edildi".

Bu proses nəticəsində 1940-cı ilə Azərbaycanda 60 elmi müəssisə yaradılmışdı və orada 3 minə yaxın elmi işçi fəaliyyət göstərirdi. Yuxarıda qeyd etdiyimiz kimi, 1945-ci ildə isə Azərbaycan Elmlər Akademiyası təsis edildi.

Bu faktlar bizə Azərbaycanda akademik tədqiqat ənənəsinin məzmununu müəyyən etməyə əsas verməklə yanaşı, AMEA-nın indiki fəaliyyətinin məzmun, mahiyyət və məqsədini həmin ənənə kontekstində ümumi yığıncaqda müzakirə edilən məsələlər fonunda təhlil etməyə imkan verir. Burada "akademik tədqiqat ənənəsi" anlayışı ilə yanaşı, "akademik tədqiqat təcrübəsi" və "akademik araşdırma kültürü" anlayışlarını Azərbaycan kontekstinə də aydınlıq gətirmək gərəkdir.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# "Böyük manipulyator"

*Mark ENDEVELD*

*(əvvəli ötən saylarımızda)*

Prezidenti kimi Kohler də özündənrazı, hamıya yuxarıdan aşağı baxan, təkəbbürlü bir adamdır. "Onda da eynilə Makronda olduğu kimi yumor hissi var", – deyə Kohlerin tabeliyində olan adamlardan biri etiraf edir. Yadımdadır ki, bir dəfə hansısa iclasda çıxış edəndən sonra "kimin sualı var?", – deyə bizə müraciət etdi. Heç kimdən səs




çıxmadı. Kohler başını bulayıb dedi: "Bəli, ağıllı adam ağzını açanda hamını heyrətə gətirir. Ona sual verməyə heç kim cəsarət eləmir...". İqtisadiyyat Nazirliyində Aleksi Kohler həmsöhbətlərindən birinə çəkinmədən demişdi ki: "Burada nazir mənəm! Halbuki nazir Makron idi".

Makron ilə Kohler arasındakı bu sarsılmaz müttəfiqlik, İqtisadiyyat Nazirliyindən başlamışdı. Makron lovğalığı və ünsiyyət effektləriylə, Kohler isə sənaye məsələlərindəki təcrübəsi ilə fərqlənirdi. Bundan başqa, o vaxt nazir Makron yaxşı bilirdi ki, o, Brüsselə qarşı heç bir manevr edə bilməyəcək, ona görə də bütün vacib dosyeləri Kohlerin əli ilə maliyyə naziri Mişel Sapana ötürürdü. Makron onu da bilirdi ki, o, İqtisadiyyat Nazirliyində "müvəqqətidir", ona görə də bütün fikrini gələcək prezident seçkilərinə cəmləmişdi. 2015-ci ilin yazından başlayaraq onun diqqət və enerjisinin yalnız bir hədəfi vardı: prezident seçkiləri!

## İqtisadiyyat Nazirliyinin yalançıları

İqtisadiyyat Nazirliyində mühüm məsələlərin çoxunu kabinet direktoru Kohler özü həll edir. Makron nazirliyin bu ikinci adamına tam azadlıq verir. Elə olur ki, hətta özünün o qədər də dərindən bilmədiyi və ya o qədər də xəbəri olmadığı işləri Kohlerin razılığı ilə qəbul edir. Ona görə də Makron ilə Kohler – üzdə hərəsi öz rolunu oynasa da – arxada bütün qərarları bir yerdə qəbul edir və lazım gələndə bir-birini müdafiə edirlər. Kiçik eynəkli və boz kostyumlu bu kabinet direktoru, heç kimə nazirinin əsl ambisiyalarını görməyə imkan vermir.

Makronun ən yaxın əməkdaşı kimi bu yüksək dövlət məmuru, ali dövlət orqanlarında bilərəkdən hamıya yalan danışır ki, nazirinin siyasi layihəsindən, eləcə də onun kabinetinin real fəaliyyətindən heç kəsin xəbəri olmasın. İqtisadiyyat Nazirliyinin bu saf məhsulu ilə gələcək prezident seçkilərinin qalibi arasındakı yaxınlıq məhz bu orijinal yalandan doğulur. Bəlkə də, elə buna görə 2016-cı ilin avqustunda, Makron Aleksi Kohler üçün zəmanət verir ki, o, dəniz yolu ilə daşınmalarda dünyada ikinci yeri tutan Aralıq Dənizi Gəmiçiliyi Şirkətinin maliyyə direktoru olsun. Makron onu da bilir ki, əvvəllər Kohler bir müddət Aralıq Dənizi Gəmiçiliyi Şirkətini gəmilərlə təchiz edən San-Nazar tərsanəsində də çalışıb. Bundan başqa, Kohlerlər ailəsinin İtaliyada və İsveçrədə gəmiçilik şirkətinə rəhbərlik edən Apontlar ailəsi ilə lap qədimlərdən yaxın əlaqələri var.

O dövrdə bir sıra digər şəxslər də bu orijinal yalanda iştirak edib, Makron-Kohler cütlüyü ilə əməkdaşlıq edəcəklər... hətta onlarla bir yerdə prezident Fransua Hollanda qarşı xəyanətdə də iştirak edəcəklər. Onlardan biri İsmael Emeliendir. Milyarder Vənsan Bolloreyə məxsus olan çox məşhur Havas kommunikasiya agentliyində çalışan otuz yaşlı bu cavan oğlana, elə həmin şirkəti idarə edənlərdən biri Jil Finşelşteyn himayədarlıq edir. Bu sonuncu, həm də Sosialist Partiyasının tarixi mərkəzlərindən biri olan Jan-Jores Fondunun baş direktorudur. Bu fondun prezidenti isə Emmanuel Makronun çox yaxın bir adamı, keçmiş nazir, 1988-ci ildə Fransua Mitteranın kampaniyasının xəzinədarı olmuş Henri Nalletdir.

İqtisadiyyat Nazirliyində İsmael Emelien "xüsusi məsləhətçi" titulu daşıyırdı. O bu titulu Yelisey sarayında da saxlayacaq. Prezidentin ətrafında olan adamların bəziləri onu "yekəxana", "sinik", "sərt və qapalı" bir adam kimi təqdim edirlər. 2015-ci ilin payızından bu gənc və təkəbbürlü oğlan Makronun gələcək prezident kampaniyasının hazırlığına başlayır. İqtisadiyyat Nazirliyində Makronun yaxın çevrəsi tam sürətlə fəaliyyət göstərir. Gələcək namizəd prezident seçilməmişdən bir il əvvəl əhali arasındakı sorğulara 325 min 643 avro pul xərcləyir. Nazir istefa verməmişdən əvvəl dövlət tərəfi ndən onun üçün ayrılmış nümayəndəlik xərclərinin 80 faizi də (təxminən 120 min avro) bu sorğulara xərcləyir. 2016-cı ilin yanvarında Makron Las-Veqasda keçirilən French Tech Night tədbirində iştirak edir. Havas agentliyi tərəfindən gələcək əmək naziri Müriel Penikonun rəhbərlik etdiyi, eyni zamanda, həm İqtisadiyyat Nazirliyinə (Makron), həm də Xarici İşlər Nazirliyinə (Fabiüs) tabe olan Biznes Frans üçün hazırlanan bu tədbirdə məqsəd Fransa şirkətlərini xaricdə tanıtdırmaqdır. Las Veqasın The Linq Hotel sarayında təşkil edilən bu tədbirdə Emmanuel Makron ətrafına toplaşan gənc sahibkarlardan prezidentlik ambisiyalarını gizlətmir. Havas tərəfindən təşkil olunan bu tədbirin "məsləhət" tərəfinə 118 min 54,50 avro, texniki "xərclərinə" isə 147 min 217,75 avro pul xərclənir.

Onu da qeyd etmək lazımdır ki, Havas agentliyi İqtisadiyyat Nazirliyində özünü öz evindəki kimi hiss edir. Challenges qəzetinin yazdığına görə, Jil Finşelşteyn hələ 2012-ci ildə Büdcə üzrə nazir müşaviri Jerom Kauzak və ovaxtkı iqtisadiyyat naziri Pier Moskoviçi üçün ödənişli missiyalar təşkil etmişdi. 2013-cü ildə isə İqtisadiyyat Nazirliyinin yeddi nümayəndəsinə biznes üzrə məsləhət vermək üçün səkkiz məşhur agentlikdən ibarət bir qrup yaratmışdı. Təbii ki, Havas agentliyi də bu səkkiz agentliyin arasında idi. 2016-cı ilin yazında bu şübhəli işlərdə ittiham olunmaqdan qaçmaq üçün İsmael Emelien Havas agentliyindəki vəzifəsindən istefa verib bütün bacarığını və enerjisini Makronun yaratmaqda olduğu "Hərəkətdə!" hərəkatına yönəldir.

## Planş bandası Puatiye şəhərinin bandasına qarşı

Əlindən hər iş gələn, çevik, bir yerdə qərar tuta bilməyən İsmael Emelien Makronun ətrafında bərqərar olan müxtəlif dairələrdə heç də yekdilliklə qəbul olunmur. Yelisey sarayının gələcək "xüsusi məsləhətçisi" 2015-ci ilin iyununda fəaliyyətə başlayan "Gənclər Makron ilə" (JAM) qrupu ilə rəqabət aparır. Bu qrupun üzvləri iyirmi yaşlarında, üzləri tər-təmiz təraş edilmiş, əyinlərində həmişə qara kostyumlar olan Puatiye şəhərinin hüquq fakültəsinin keçmiş tələbələridir. Gənc Sosialist Hərəkatının keçmiş fəalları, Dominik Stros-Kan meyilli, 2016-cı ildə anti-CPE (26 yaşdan aşağı olan gənclərin ilk əmək müqaviləsi) tətillərində iştirak edən bu gənclər hüquq fakültəsində təhsil alan dövrdə bir yataqxanada yaşayıblar.

Puatiye şəhərinin hüquq fakültəsində təhsil almış bu iddialı gənclər arasında Pier Person və Saşa Hulie kimi deputatlar, İqtisadiyyat Nazirliyində Makronun parlament müşaviri olmuş Stefan Sejurne və Milli Assambleyanın prezidentinin müşaviri Florian Hümez də var. Onlar Gənc Sosialist Hərəkatında, eləcə də tələbələr birliyində siyasi texnikaları mükəmməl mənimsəyiblər. Ona görə də Dominik Stros-Kanın bu keçmiş pərəstişkarları Sosialist Partiyasının mədəniyyətinə yaxşı bələddirlər. Onların siyasi rəqibləri, mütəmadi olaraq Parisin Planş küçəsindəki qərargahda yığışan nüfuzlu Siyasi Elmlər İnstitutunun və Ali Kommersiya məktəbinin məzunları isə, öz növbələrində, texnokrat Pier Moskoviçiyə meyillidirlər. Göründüyü kimi, Planş bandası ilə Puatiye bandası arasındakı rəqabət yalnız eqo və ya ambisiyadan irəli gəlmir, həm də onların bitirdikləri siyasi məktəblərin fərqindən, eləcə də tərbiyə aldıqları sosial mühitdən irəli gəlir.

Puatiye bandasını dəstəkləyən Emmanuel Makronun İqtisadiyyat Nazirliyində ilk kabinet direktoru olmuş Anna Rubinşteyndir. 2014-cü ilin oktyabrında Stefan Sejurneni məhz bu qadın parlament müşaviri təyin etmişdi. Sosialist Partiyasının tarixi fəalı, Loran Fabiüsa yaxın olan Anna Rubinşteyn Stefan Sejurne ilə, eləcə də LREM partiyasının gələcək deputatı Qiyyom Şişlə Fransa adaşı bölgəsinin ovaxtkı prezidenti Jan-Pol Üşonun ofisində tanış olmuşdu. Puatiye bandasının uşaqları bu qadına o qədər yaxındırlar ki, onu o qədər sevib hörmət edirlər ki, hərdən ona "maman" deyə müraciət edirlər. 2016-cı ildə bu bandaya Stefan Sejurnenin dəstəyi ilə Ot-dö-Sen departamentinin gələcək deputatı Qabriel Attali da qoşulacaq. Bu adamların hamısı "Gənclər Makron ilə" qrupunda böyük fəaliyyətə başlayacaqlar.

*(ardı var)*

Yubilyarlarımız

# Xalqa qələmlə xidmətin nüfuz və dəyəri





**Azərbaycan Mətbuat Şurasında keçirilən növbəti yubiley mərasimində milli jurnalistika məktəbimizin istedadlı və nüfuzlu yetirməsi, Əməkdar dövlət qulluqçusu İsrafil Qurbanovun anadan olmasının 75 illiyi həmkarları, dostları və doğmalarının əhatəsində sevgi-sayğı ilə ilə qeyd edildi.**

Həmkarımızı media ictimaiyyəti adından səmimi təbrik edən MŞ sədri Rəşad Məcid jurnalist peşəsini həmişə uca tutduğuna, dövlət qulluqçusu kimi çoxillik xidməti zamanı da ölkə mediası ilə sıx əlaqə saxladığına görə təltif edildiyi yubiley diplomunu İsrafil Qurbanova təqdim etdi. Şura rəhbəri yubilyarın zəngin və mənalı ömür yoluna nəzər salaraq onun uzun illər ali dövlət qurumlarında kargüzarlığın, informasiya-nəşriyyat fəaliyyətinin ana dilimizdə qurulmasında fəal iştirak etdiyini məmnunluqla qeyd etdi. O bildirdi ki, İsrafil Qurbanov rəsmi həyatın ölkə mediasında yüksək peşəkarlıqla əks olunması ilə bağlı fəaliyyətini bu sahədə yetirmələri örnək kimi qəbul ediblər.

Məclisin təşkilatçısı olan Ahıl Jurnalistlər Məclisinin sədri, "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu yubilyarın bioqrafiyası barədə ətraflı məlumat verərək bildirdi ki, 1973-cü ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini yüksək təhsil uğurları ilə bitirmiş İsrafil Qurbanov orduda 2 illik zabit xidmətdən sonra peşə fəaliyyətinə Azərbaycan Jurnalistlər Birliyinin "Müxbir" bülletenində başlayıb. Azərbaycan və rus dillərində tarixi materiallarla sərbəst işləmək bacarığına görə həmkarımız Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutuna baş elmi işçi vəzifəsinə irəli çəkilib.

İstedadlı, məsuliyyətli və çalışqan jurnalist kimi həmkarımız 1981–1989-cu illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti aparatında böyük məsləhətçi vəzifəsində çalışarkən rəsmi materialların Azərbaycan dilində hazırlanmasına və nəşr edilməsinə layiqli töhfə verib. 1989–1991-ci illərdə Azərbaycan KP MK-da kargüzarlıq ana dilimizdə təşkil ediləndə İsrafil Qurbanov bu sahədə təcrübəli praktik dil mütəxəssisi kimi partiya aparatının ümumi şöbəsinə təlimatçı vəzifəsinə gətirilib. O, 1991-ci ildən başlayaraq yeni formalaşan Azərbaycan Respublikası Prezidenti Administrasiyasında məsləhətçi, sektor müdiri, 2007-ci ildən isə şöbə müdirinin müavini vəzifələrində nümunəvi xidmət göstərib.

Çoxillik səmərəli fəaliyyəti zamanı İsrafil müəllim Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına, "Dövlət qulluğunda fərqlənməyə görə" və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" medallarına, dövlət qulluğunda uzunmüddətli səmərəli xidmətinə görə 3-cü və 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenlərinə, "Əməkdar dövlət qulluqçusu" fəxri adına layiq görülüb.

Ahıl Jurnalistlər Məclisinin sədr müavini Əminə Yusifqızı, türkoloq-folklorşünas Əli Şamil, AMEA-nın Ədəbiyyat İnstitutunun redaktoru Maral Poladova, yubilyarın tələbəlik yoldaşlarından Əməkdar jurnalist Rəhim Hüseynzadə, Kinemotoqrafçılar İttifaqının redaktoru Akif Cabbarlı, jurnalistlər Əzizə Şamil, Elmira Qurbanova, Məsaim Abdullayev, Şərif Kərimli, Fuad Babayev, İmran Bədirxanlı, Şöhlət Abbas yubilyarın nüfuzlu jurnalist və dövlət qulluqçusu kimi yarım əsrlik fəaliyyətinin Vətənə xidmətin dəyərli nümunəsi olduğunu söylədilər.

Türkiyəli ədəbiyyatşünas Seyfəddin Altaylı, şərqşünas-diplomat Abbasəli Həsənov, diaspor fəalı Qənimət Səfərov, bioloq alim Mədət Qurbanov, iqtisadçı alim Ülvi Bayramov, həkim-cərrah Gəray Qurbanov, yubilyarın qızı Elnurə Qurbanova və başqaları İsrafil Qurbanovu fədakar vətəndaş və sadiq dost, qayğıkeş insan və gözəl ailə başçısı kimi səciyyələndirdilər.

Sonda çıxış edən İsrafil Qurbanov keçdiyi ömür yoluna və fəaliyyətinə verilən yüksək dəyərə görə MŞ rəhbərliyinə və məclis iştirakçılarına səmimi təşəkkürünü çatdırdı. O bildirdi ki, bundan sonra da doğma jurnalistika xidmətini davam etdirmək üçün həvəslə çalışacaq, yarımçıq qalmış mövzuları üzərində işləyəcək, yeni axtarışlar aparacaq.

*T.RÜSTƏMLİ*
*XQ*

# 4-cü Beynəlxalq Media Forumu

**Fevralın 19-da Ər-Riyad şəhərində Səudiyyə 4-cü Beynəlxalq Media Forumu işə başlayıb. Forum çərçivəsində müasir media trendləri müzakirəyə çıxarılıb. Həmçinin Səudiyyə Ərəbistanının media mühiti barədə təqdimatlar keçirilib.**



Tədbirdə iştirak edən Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü, qurumun xarici əlaqələr komissiyasının sədri Müşfiq Ələsgərli "Xalq qəzeti"nə açıqlamasında bildirib ki, forumun açılış mərasimində Səudiyyə Ərəbistanının energetika naziri, Şahzadə Əbdüləziz bin Salman Əl Səud, həmçinin media naziri Salman bin Yousef Al-Dosari çıxış ediblər. Onlar medianın yeni trendləri, eyni zamanda, ölkənin media siyasəti barədə barədə rəylərini bölüşüblər.

Şahzadə Əbdüləziz Səudiyyə Ərəbistanının siyasi-iqtisadi konsepsiyaları barədə də danışıb. O, ölkəsində dəyişiklikləri ehtiva edən proqramlara ciddi önəm verildiyini diqqətə çatdırıb.

Böyük Britaniyanın keçmiş baş naziri Boris Conson da foruma qatılaraq açılış mərasimində çıxış edib. Onun "Media və siyasət" mövzunda məruzəsi ciddi maraq doğurub.

Forumda media sahəsində mövcud qlobal çağırışlar və onlara qarşı reaksiyalar müzakirəyə çıxarılıb. Xüsusi olaraq, süni intellekt texnologiyalarının təsirləri üzərində dayanılıb. Bu sahədə effektiv fikir mübadiləsi aparmaq üçün rəqəmsal texnologiya üzrə ixtisaslaşmış şirkət təmsilçilərinin forumda çıxışları dinlənilib.

"Müasir media iqtisadiyyatı", "inkişaf etmiş rəqəmsal mühitdə media iqtisadiyyatının dinamikası", "davamlılıq strategiyalarının təhlili" məsələləri də diqqət mərkəzində olub. Gələcək media mənzərəsinin proqnozlaşdırılması yolları və yaradıcı istedadların bu sahənin yenidən formalaşdırılmasında roluna diqqət yetirilib.

Forum çərçivəsində medianın gələcəyi sərgisi (FOMEX) təşkil olunub. Sərgidə böyük media və texnologiya şirkətləri özlərinin yeni innovasiyalarını təqdim ediblər.

Səudiyyə Ərəbistanının aparıcı media qurumlarının təmsilçiləri də forumda çıxış edərək, fəaliyyət prinsipləri və yeni media trendləri barədə fikirlərini bildiriblər. Forum iştirakçılarına, həmçinin ölkənin xarici siyasət kursu, beynəlxalq sülhün əldə edilməsində Səudiyyə Ərəbstanının rolu barədə də məlumatlar verilib.

*XQ*

Nikahdan əvvəl...

# Təkcə sevgi yetərli deyil

## *Sağlam ailə üçün tibbi-fizioloji uyğunluq da lazımdır*

**Yetkin cəmiyyətdə sağlam ailə modeli olmalıdır. Çoxları belə fikirləşir ki, ortada sevgi olduqdan sonra gənclərdə hər hansı xəstəlik aşkarlansa belə, onlar ailə qura bilərlər. Hətta nikahdan öncəki məcburi müayinəni düzgün hesab etməyənlər də var. Amma gələcək nəslin sağlamlığı və artımı ilə bağlı gündən-günə çoxalan problemlərin fonunda məsələnin vacibliyi zəruridir. Mütəxəssislər hesab edirlər ki, evlilikdən əvvəl aparılan müayinələr gələcəkdə daha xoşbəxt ailənin təməlinin qoyulmasına yardımçı olar.**



Ötən ilin yanvar–sentyabr aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 36 min 651 nikah və 15 min 964 boşanma halları qeydə alınıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 5,1-dən 4,8-ə düşüb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (2,1) qalıb. Boşanmalar dünyaya sağlam övlad gətirə bilməmək problemindən də qaynaqlanır. Milli Məclisin deputatı Günay Ağamalı jurnalistlərə açıqlama verərkən evlənməzdən öncə aparılan müayinələrin siyahısına narkomaniyanın da salınmasının vacibliyini deyib. Bununla bağlı apardığımız araşdırmanın nəticələri ilə sizi tanış edirik:

**Hicran Hüseynova, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri:**

– Bildiyiniz kimi, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə qaydası sağlam ailənin formalaşması üçün şəraitin yaradılması, irsi xəstəliklə və anadangəlmə inkişaf qüsuru ilə uşaqların doğulmasının qarşısının alınması məqsədi ilə Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 13-cü maddəsinə əsasən hazırlanmışdır.

Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş xəstəliklərin siyahısı üzrə aparılan klinik və laborator müayinələrdən, habelə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhətlərin verilməsindən ibarətdir. İstənilən halda ümumi qan testi verilərkən insanda hər hansı aşlılıq və zərərli vərdişə aludəçilik özünü büruzə verir. Və o zaman həkim həmin şəxsə müvafiq sağlamlıq mərkəzinə müraciət etməli olduğunu tövsiyə edir.

**Kamila Əliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ailə məsələləri şöbəsinin müdir müavini:**

– Ailələrin sağlamlığı, onların sosial rifahının daha da yaxşılaşdırılması, uşaqların dünyaya sağlam gəlməsi, həm fiziki, həm mənəvi cəhətdən sağlam nəsil kimi formalaşması dövlət siyasətinin başlıca prinsiplərindəndir. Elmi araşdırmalar göstərir ki, nikaha daxil olan cütlüklərin sağlamlığında mövcud olan problemlər doğulan uşaqlarda genetik xəstəliklərə, sağlamlıq imkanları məhdud olan uşaqların dünyaya gəlməsinə və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur. Belə nikahların mənfi nəticələrini nəzərə alaraq dövlət tərəfindən mütəmadi olaraq işlər aparılır, qanunvericilikdə dəyişikliklər edilir.

Bu baxımdan, 2015-ci ildə Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında Qanun qəbul edilmişdir. Qanuna əsasən, 1 iyun 2015-ci il tarixindən etibarən nikaha daxil olmaq istəyən şəxslər siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən xəstəliklər üzrə tibbi müayinədən keçməlidirlər. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi, habelə həmin şəxslərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların müraciəti ilə yaşayış yeri üzrə dövlət və (və ya) bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir.

Tibbi nəticələr həkim sirridir. Nikahdan əvvəl icbari tibbi müayinənin tətbiqi ilə irsi genetik xəstəliklərdən əziyyət çəkən, sağlamlıq imkanları məhdud olan uşaqların dünyaya gəlməsinin qarşısının alınmasına və sağlam nəslin formalaşdırılmasına şərait yaradılmışdır. Bu sahədə beynəlxalq təcrübənin araşdırılması göstərir ki, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmək üçün nəzərdə tutulan xəstəliklərin siyahısının genişləndirilməsi ailələrdə sağlam mühitin formalaşmasına, uşaqların dünyaya sağlam gəlməsinə öz töhfəsini verə bilər.

Qeyd etmək lazımdır ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, eləcə də komitənin Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən mütəmadi olaraq gənclərin ailə həyatına hazırlığı, onlarda təhlükəsiz və sağlam həyat tərzi mədəniyyətinin formalaşdırılması, fiziki inkişafın təbliği, onların zərərli vərdişlərdən qorunması istiqamətində mütəmadi olaraq maarifləndirici görüşlər, mühazirələr keçirilir.

Təhsil müəssisələrində yeniyetmə və gənclərə reproduktiv sağlamlığı qorumaqla gələcəkdə sağlam ailəyə sahib olma imkanları, düzgün gigiyena qaydaları izah edilir. Məlumatlılıq səviyyəsini artıran elektron vəsaitlər hazırlanaraq əhalinin geniş kütləsinin istifadə etdiyi məkanlarda (metro stansiyalarının reklam lövhələrində, Baku Bus ASC nəqliyyat vasitələrinin lövhələrində) yerləşdirilir və sosial şəbəkələr vasitəsilə yayımlanır, çap məsulları hazırlanır və paylanılır.

**Hicran Bağırova, tibb elmləri doktoru, professor:**

– Nikahdan əvvəl reallaşdırılan müayinələr gələcək ailə üçün yalnız müsbət nəticələr verir. Düşünürəm ki, gənclərin ailə qurmazdan əvvəl müayinə olunması digər problemləri də aradan qaldırır. Hazırda talassemiya, hepatit, QİÇS və bəzi xəstəliklər var ki, bu zaman müayinələrin aparılması çox yaxşı nəticələr verir. Gənclər müalicə olunur və bu, ailə qurduqdan sonra onların dünyaya sağlam övlad gətirəcəklərinə zəmanət verir.

Siyahıda göstərilən xəstəliklər gənclər arasında nə qədər tez aşkarlansa, onun müalicəsi də tez və asan başa gələr, onların ailə qurduqdan sonra dünyaya sağlam uşaq gətirəcəklərinə inamları artar. İllər öncə bu məsələyə etinasız yanaşılsa da, hazırda ucqar dağ kəndlərində də gənclər nikahdan öncə müayinə olunurlar.

**Yazgül Abdıyeva, "Sağlamlığın Qorunması" İctimai Birliyinin sədri, tibb elmləri doktoru:**

– Nikahdan əvvəl tibbi müayinələrin aparılması sağlam gələcəyimizə hesablanıb. Nazirlər Kabinetinin qərarına əsasən, həm nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçməli olduğu xəstəliklərin siyahısı təsdiq edilib, həm də tibbi müayinədən keçmə qaydası və onu təsdiq edən arayışın forması qəbul edilib.

Həmin qaydada qeyd edilib ki, nikaha daxil olmaq istəyən şəxslər hemoqlobinopatiyalar, böyük beta-talassemiya, aralıq beta-talassemiya, drepanotalassemiya, oraqvari hüceyrəli anemiya, İİV/QİÇS və sifilis xəstəlikləri üzrə tibbi müayinədən keçməlidirlər. Bu müayinələr zamanı narkomaniyaya asılılıq kimi zərərli vərdiş də aşkarlanır. Müayinədən keçmə qaydası sağlam ailənin formalaşması üçün şəraitin yaradılması, irsi xəstəliklə və anadangəlmə inkişaf qüsuru ilə uşaqların doğulmasının qarşısının alınması məqsədi ilə hazırlanmışdır.

Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi təsdiq edilmiş xəstəliklərin siyahısı üzrə aparılan klinik və laborator müayinələrdən, habelə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhətlərin verilməsindən ibarətdir.

Tibbi müayinə və məsləhətlər nikaha daxil olmaq istəyən şəxslərin və ya onlardan birinin yaşayış yeri üzrə TƏBİB-in müəyyən etdiyi tibb müəssisəsində, tərəflərdən biri azadlıqdan məhrum edilmiş şəxs olduqda isə həmin şəxsin olduğu cəzaçəkmə müəssisəsinin tibb xidməti tərəfindən pulsuz həyata keçirilir.

Nikaha daxil olmaq istəyən şəxslərə müayinələrin nəticəsi barədə ayrı-ayrılıqda məlumat verilir və buna uyğun olaraq onlara tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhətlər verilir. Müayinə nəticələri yazılı formada təqdim edilməklə rəsmiləşdirilir və müayinədən keçdiklərini təsdiq edən arayış verilir.

Həmin arayış elektron formada tibb müəssisəsinin rəhbəri tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənir və dərhal e-sistem vasitəsilə Səhiyyə Nazirliyinə, oradan isə həmin gün yenə e-sistem vasitəsilə Ədliyyə Nazirliyinin "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sisteminə ötürülür. Arayışda müayinənin nəticələri əks olunmur. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin nəticələri həkim sirridir və yalnız müayinə olunanlara bildirilir.

Sonda onu da deyək ki, Nazirlər Kabineti "2023–2027-ci illər üzrə ixtioz və bullyoz epidermoliz xəstəliklərinin müalicəsinə və profilaktikasına dair Tədbirlər Proqramı" təsdiq edilməsi ilə bağlı sərəncam imzalayıb. Sənədə görə, ixtioz və bullyoz epidermoliz xəstəliyinin irsi olaraq keçdiyi nəzərə alınmaqla, risk qrupuna daxil olan şəxslərin nikahdan əvvəl tibbi müayinələri aparılmalıdır. Bu məqsədlə qanunvericilikdə yenidən dəyişiklik edilməsinə dair təkliflər hazırlanacaq, tibbi müayinələri həyata keçirən tibb müəssisələri müəyyən ediləcək. Qeyd edilən xəstəliyin müayinəsinin aparılmasına isə ciddi nəzarət olunacaq.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

Əliağa Vahid – 130

# Böyük Füzulinin yadigarı...

**Təqdirəlayiq haldır ki, Rusiyada işıq üzü görən “Literaturnaya qazeta”nın onlayn versiyasının 17 fevral sayında Azərbaycanın böyük qəzəlxanı, mərhum şairimiz Əliağa Vahidin həyat və yaradıcılığı barədə məqalə yayımlanıb. Rusiya Federasiyası Dövlət Tibbi Profilaktika Elmi-Tədqiqat Mərkəzinin elmi laboratoriyasının rəhbəri, Tacikistan Tibb Elmləri Akademiyasının xarici üzvü, həkim-kardioloq, tibb elmləri doktoru, professor Mehman Məmmədovun qələmə aldığı, böyük sənətkarın 130 illiyinə həsr olunan məqalənin sərlövhəsi belədir: “Dahi Füzulinin ardıcılı” («Наследник великого Физули»). Oxuculara “Sergey Yeseninin bakılı dostu” girişi ilə təqdim olunan həmin məqalənin tərcüməsini “XQ” oxucularının ixtiyarına veririk.**

2025-ci il fevralın 17-də müasir qəzəl ənənəsini yaradan şair Əliağa Vahidin anadan olmasının 130 illiyi tamam oldu. Qəzəl Şərq poeziyasının klassik janrıdır, mənaca bir qədər Avropa sonetlərinə bənzəyir.

Vahid “Böyük Füzulimizin yadigarı mən özüməm...” yazırdı. O, bədii üslubun yeni vəzn və çalarlarından, qafiyələrindən istifadə edərək yaradıcılığında sözün ifadə dolğunluğuna nail olmuşdu. Qəzəlləri xalq arasında o qədər məşhur idi ki, ona “qəzəl ustadı” mənasını verən “Qəzəlxan” ləqəbi verilmiş, “Vahid” təxəllüsünü isə özü seçmişdi.

Əliağada anadangəlmə şeir yazmaq, bədahətən qafiyə qoşmaq qabiliyyəti var idi. Ona görə də yaradıcılığının ilk illərində tez-tez meyxana yarışlarına qatılırdı. O, haqlı olaraq Azərbaycanda meyxananın banisi sayılır.

Vahid nomenklatur şair olmağa can atmadığına, sosialist realizmi üslubuna riayət etmədiyinə görə hakimiyyət ona xüsusi diqqət yetirmirdi. Sərbəst yaradıcılığa üstünlük verən şair, əsasən, lirik şeirlər qələmə alırdı.

Əminliklə deyə bilərik ki, Vahid hələ sovet dövründə, ədəbiyyatın bir qədər asudəlik qazandığı “Xruşşov yumşalması”ndan çox-çox əvvəl alternativ poeziya nümunələri yaradan sənətkardır. Yəqin yaradıcılığındakı azadlıqsevərliyi onu görkəmli rus şairi Sergey Yeseninə yaxınlaşdıran əsas amil olub.

Əliağa Məmmədqulu oğlu İsgəndərov 1895-ci il fevralın 17-də Bakı qəzasının Masazır kəndində dülgər ailəsində anadan olub. Mədrəsədə cəmi iki il oxumuş, kasıblıq ucbatından ailəsinə kömək üçün təhsilini tərk etmək məcburiyyətində qalmış Əliağa erkən yaşında fəhləliyə başlayır. Onun əla yaddaşı var idi. Klassik poeziya nümunələrini, xüsusən əruz vəznində yazılmış qəzəlləri asanlıqla əzbərləyir, üstəlik, onları ifa etməyin qaydalarını mənimsəyirdi.

Gənclik illərində Əliağa “Məcməüş-şüəra” ədəbi dərnəyinə daxil olur, burada o dövrün tanınmış şairləri Müniri, Azər İmaməliyev və digərləri ilə tanış olur. Məhz onların yaradıcılığının təsiri altında ilk lirik şeirlərini yazır.

1914-cü ildən etibarən şeirləri dövrün aparıcı jurnallarında – “İqbal”, “Zəhmət”, “Bayrağı-ədalət”, “Bəsirət”, “Tuti”, “Məzəli”də dərc olunurdu. Gənc Vahid böyük şairimiz Sabirin yaradıcılığının təsiri ilə satirik şeir janrına da üz tutur. Onun satirik şeirlərinin toplandığı “Xəsisliyin süqutu” adlı ilk kitabı 1916-cı ildə nəşr olunub.

Yaradıcılığının ilkin dövrlərinə aid satirik əsərlərində Əliağa cəmiyyətdə gördüyü naqislikləri, sosial ədalətsizliyi, dini fanatizmi və xurafatı tənqid edirdi. Sonralar Məhəmməd Füzuli və Seyid Əzim Şirvani yaradıcılığı ilə yaxından tanış olan şair qəzəl janrına üz tutur. Onun qəzəlləri poetik dilinin sadəliyi, xalqın danışıq üslubuna yaxınlığı və ahəngdarlığı ilə seçilirdi.

1919–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti ordusunda sıravi əsgər kimi xidmət edən Əliağa burada da qələmi yerə qoymur. Həmin illərdə dövri mətbuatda onun “Əsgər” və ya “Əsgər Əliağa Vahid” imzaları ilə şeirləri dərc olunurdu. Qeyd edək ki, ona “Vahid” (bir dənə, tək, yeganə - tərc.) ədəbi təxəllüsünü götürməyi yaradıcılığının gənclik çağında Bakının tanınmış qəzəl ustası Mirzə Əbdülxaliq Yusifi tövsiyə etmişdi. Oktyabr sosialist inqilabını böyük ruh yüksəkliyi ilə qarşılayan şair onun xalqına xeyir gətirəcəyinə ürəkdən inanırdı. “Yoldaşlarıma – fəhlə və əsgərlərə”, “Məktəb nə deməkdir”, “Qalx, mələyim...” və başqa şeirləri ilə sovet hakimiyyətinin təbliğatında fəal iştirak edirdi.

Azərbaycanda sovet quruluşu bərqərar olandan sonra Əliağa Vahid “Kommunist” qəzeti və “Molla Nəsrəddin” satirik jurnalı ilə əməkdaşlığa başlayır. O, “Kupletlər” (1924) və “Mollahan” (1938) toplularında yeni quruluşun əleyhdarlarını satirik şeirləri ilə tənqid edirdi.

Amma Vahid bəzi həmkarlarından fərqli olaraq, gənc sovet respublikasında hökumətdən heç nə ummayıb, heç vaxt şöhrət dalınca qaçmayıb, daim xalqın arasında olub. Bəlkə də irtica illərində onun həyatını xilas edən məhz bu cəhətləri idi.

Ə.Vahid 1935-ci ildə “Kommunist” qəzeti redaksiyasında ədəbi işçi, eyni zamanda, Azərbaycan Dövlət Nəşriyyatında korrektor kimi fəaliyyət göstərib.



1938-ci ilin oktyabrında Dövlət Kolxoz və Sovxoz Teatrına ədəbi rəhbər təyin edilən Ə.Vahid 1941-ci ildə müvəqqəti olaraq Lənkəran Dövlət Teatrına bədii qiraətçi kimi işləməyə göndərilir. Təyinatda məqsəd Azərbaycanın ucqar rayonlarında sosializm ruhunu yüksəltmək üçün keçirilən hərbi-vətənpərvərlik konsertlərində iştirak etməsi olub.

## Vahid – Yesenin dostluğu

1924–1925-ci illərdə rus şairi Sergey Yesenin qısa fasilələrlə Bakının Mərdəkan kəndində yaşayıb. Sonralar möhkəm dostluğa çevriləcək iki böyük sənətkarın tanışlığı 1924-cü ildə baş verib. O vaxt S.Yesenin tez-tez yerli çayxanaya gedirdi. Bir gün əlini cibinə salmaq istəyəndə ona deyirlər ki, çayın pulu artıq ödənilib. Buna təəccüblənən şair ödənişi kimin etdiyini soruşur. Bu zaman Yeseninə çayxanada oturmuş Vahidi göstərirlər. Beləliklə, iki böyük sənətkarın dostluğu başlayır. Vahid Yesenini özünün də getdiyi ədəbi məclislərə dəvət edir, orada yeni yazdığı qəzəllərini oxuyurdu. Yesenin heç nə başa düşmədiyini, amma Vahidin qəzəllərinə musiqi kimi qulaq asdığını deyir. O, bir gün Vahiddən soruşur: “Şeirlərin nədən bəhs edir?” Vahid gülümsəyərək cavab verir: “Şair nədən yaza bilər? Həyat–ölüm və nakam sevgi haqqında... Elə sizin kimi”. Bu fakt yazıçı-publisist Hüseyn Nəcəfovun “Balaxanı mayı” sənədli-bədii povestində öz əksini tapıb.

## Bənzərsiz poeziya

Özünü Məhəmməd Füzuli ədəbi cərəyanının davamçısı sayan Əliağa Vahid sovet ədəbiyyatında qəzəl janrının görkəmli nümayəndəsinə çevrilir. Milli poeziyanın qədim ənənələrini yüksək ustalıqla davam etdirən şair XX əsrdə qəzəl janrının mükəmməl nümunələrini yaratmışdır.

Onun dərin fəlsəfi lirikası ilə seçilən zəngin bədii irsi təkcə Azərbaycanda deyil, ümumən, Şərq ədəbiyyatı tarixində orijinal və təkrarolunmaz hadisədir. Azərbaycan dili üzrə mütəxəssislər təsdiq edirlər ki, Vahidin şeirləri son dərəcə melodikdir. Ancaq sənətkarın rus dilinə tərcümə olunan qəzəllərinin sayı çox deyil. Onun şeirləri, əsasən, söz oyunu, özünəməxsus, orijinal assosiasiyalar və alleqoriyalar üzərində qurulub. Vahidin qəzəllərinin əksəriyyətini mənasını itirmədən rus dilinə tərcümə etmək mümkün deyil. Bu xüsusda Vladimir Portnovun bir neçə uğurlu tərcüməsini qeyd etmək lazımdır. Onlardan birini oxucuların nəzərinə çatdırırıq:

***Помнишь, как зашли мы к вам***
***однажды,***
***Как потом остались там однажды?***
***До утра болтали и шутили,***
***Ссорились - какой был гам однажды!***
***Помнишь наши ласки, наше счастье, -***
***Как бродили по лугам однажды...***
***Долго мы среди цветов плутали,***
***Баловались - стыд и срам! - однажды.***
***Нас в одно спаяла страсть и***
***нежность, -***
***Кто ж разбил нас пополам однажды?***
***Оба мы остыли, охладели, -***
***Как ни горько, буду прям однажды.***
***Прошлое, Вахид, не возвратится,***
***Выйдешь к утренним лучам однажды.***

Vahid, eyni zamanda, Şərq klassik poeziyasını dərindən bilən gözəl mütəxəssis olub. O, Nizami, Xaqani, Fələki, Hafiz, Nəvai və başqa klassiklərin ölməz əsərlərindən bəzilərini farscadan Azərbaycan dilinə tərcümə edib.

## Şairin həyatının son illəri

Əliağa Vahidin qəzəlləri ayrı-ayrı məcmuələr halında, amma təəssüf ki, az tirajla çap olunub. Şairin sağlığında nəşr olunmuş sonuncu əsərlər toplusuna (“Azərnəşr” nəşriyyatı, Bakı, 1964) 354 qəzəli daxil edilib.

Həmin qəzəllərdəki bədii ifadə vasitələri, obrazlar sistemi klassik mövzulardan qaynaqlanır: sevgi, görüşlər və ayrılıqlar, sədaqət və xəyanət, bir də şərab. Yəni taleyin vurduğu məhəbbət yaralarını, peşmançılıqları “sağaldan” ecazkar “balzam”. Əlbəttə ki, bülbüllər, qızılgüllər və aşiq cütlüklər – Adəm və Həvva, Yusif və Züleyxa, Leyli və Məcnun, Fərhad və Şirin motivləri də öz yerində...

Sovet Azərbaycanı hökuməti Əliağa Vahidi bir neçə medalla təltif etmişdir. O, 1959-cu ildən respublika əhəmiyyətli Fəxri pensiyaçı təqaüdünü alırdı. Unudulmaz sənətkar ömrünün son illərini vəfalı həyat yoldaşı Feodosiya Andreyevna İskəndərova ilə yaşadı. Əliağa Vahid 1965-ci il sentyabrın 30-dan oktyabrın 1-nə keçən gecə Bakıda vəfat etmiş, Birinci Fəxri xiyabanda dəfn edilmişdir.

1991-ci ildə C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında şairin həyat və yaradıcılığına həsr olunmuş “Qəzəlxan” filmi çəkilmişdir. 1992-ci ildə film Daşkənddə keçirilən Asiya, Afrika və Latın Amerikası ölkələrinin XI Beynəlxalq Kino Festivalında mükafata və diploma layiq görülüb.



Əliağa Vahidin qeyri-adi heykəli hazırda “İçərişəhər” Qala-qoruğunda ən çox ziyarət olunan məkanlardan biridir. XX əsrin 80-ci illərinin sonunda xalqın sevimli şairinin abidəsinin ucaldılması qərara alınır. Bu ideyanı Azərbaycanın ovaxtkı tikinti sənayesi naziri Arif Mansurov və Əməkdar memar Sənan Salamzadə irəli sürüblər.

Oxucuların nəzərinə çatdıraq ki, Əliağa Vahidin heykəli ictimai ianələr hesabına ərsəyə gətirilib. Büst-kompozisiyanın müəllifi və yaradıcısı tanınmış heykəltəraş Raqib Həsənovdur. Abidənin hazırlanmasında, həmçinin Azərbaycanın digər məşhur heykəltəraşı Natiq Əliyev də iştirak edib. Büst-heykəl Sankt-Peterburq şəhərində bürüncdən tökülüb.

Böyük söz ustadının bənzərsiz heykəli 1990-cı ildə Bakıda Filarmoniya bağında qoyulmuş, amma 2009-cu ildə İçərişəhərin Kiçik Qala küçəsinə köçürülmüşdür. Hazırda büstün qərar tutduğu məkan (keçmiş Qubernator bağı – tərc.) “Əliağa Vahid bağı” adlanır.

Uzaqdan tamaşa edəndə adi büst təəsüratı bağışlayır. Amma yaxınlaşanda... İlk baxışda bürünc saçlar, sadəcə, qıvrım görünsə də, lap yaxından onların bir-birinə qarışmış budaqları, insan fiqurlarını əks etdirən, yüksək zövqlə işlənmiş çox incə bir sənət əsəri olduğunu görəcəksiniz. Heykəl-kompozisiyanın ifadə etdiyi məna budur ki, həyatda hər şey bir-birinə bağlıdır və öz axarı ilə gedir. Zənnimizcə, belə bir abidə Vahidin özü kimi dünyada bir dənədir...

***P.S. İkinci Dünya müharibəsində qələbənin 80 illiyi ərəfəsində bir faktı da qeyd etmək yerinə düşər. 1943-cü ildə Vətənə sevgi, düşmənə nifrət və qələbəyə inamla dolu “Hərbi qəzəllər” kitabına görə Əliağa Vahid “Azərbaycan SSR-in Əməkdar artisti” fəxri adına layiq görülüb. Bu təvazökar titula sahib olan Vahid ömrünün sonuna qədər, doğrudan da, zəmanənin yetişdirdiyi və xalqın şairi olaraq qaldı. Bu adla onu qəzəllərinin pərəstişkarları olan adi insanlar, bütün yaradıcılığını həsr elədiyi doğma xalqı təltif edib.***

***“...Bizdə çox vaxt şairə ölümündən sonra qiymət verməyə, hörmət etməyə başlayırıq. Gözəl söz ustadı Əliağa Vahidlə də eyni hadisə baş verdi. Sağlığında rəsmən tanınmasa da, amma, o, xalqın qəlbində həqiqi xalq şairi kimi yaşayırdı. Bildiyimiz kimi, zaman hər şeyi öz yerinə qoyur...” (Azərbaycanın Xalq şairi Nəbi Xəzri).***

***Bu gün onun yaradıcılığı Azərbaycan, bütövlükdə, Şərq poeziyasında xüsusi yer tutur. Xanəndələrin bir neçə nəsli böyük sənətkarın qəzəlləri üzərində muğamlar ifa ediblər və bu ənənə indi də davam edir. Azərbaycanın dahi şairləri – Nizami, Xaqani, Nəsimi, Şirvani və başqaları da qəzəl janrında yazıblar. Amma fitri istedadına görə müasirləri Vahidi dahi Füzuli ilə müqayisə edib, özünün yazdığı kimi, onun yadigarı hesab ediblər...***

***Tərcümə etdi:***
***İmran BƏDİRXANLI***
***XQ***

---

Konstitusiya və Suverenlik İli

# Qızlar təhsilsiz qalmasın!

***Bu mövzuda keçirilən konfransda qızların təhsil hüququ geniş müzakirə edildi***

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Bakı Dövlət Universitetinin birgə əməkdaşlığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Qızların təhsil hüququ” mövzusunda konfrans keçirilib.**

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Azərbaycanda vətəndaşların, o cümlədən qızların və qadınların əlçatan, keyfiyyətli təhsil almaları, müxtəlif peşə və ixtisaslara yiyələnmələri, öz bilik və bacarıqları ilə insan kapitalını zənginləşdirməsi üçün zəruri şəraitin yaradıldığını bildirib. Əlavə edib ki, ölkədə qızların təhsili, qadınların elmi araşdırmalarda və idarəetmədə iştirakı sürətlə dəyişən müasir dünyanın tələblərinə, yeni çağırışlara davamlı olaraq cavab verməkdədir.

Ali təhsil ocaqlarında təhsil alan, doktoranturada elmi tədqiqat işi ilə məşğul olan qadınların sayının artmaqda olduğunu diqqətə çatdıran E. Babayev peşə və ixtisas seçimi işinin təhsilalanların istək və maraqlarına uyğun aparılması istiqamətində ciddi işlər aparıldığını qeyd edib.

Komitə sədri Bahar Muradova təhsilin hər bir insanın fundamental hüququ olduğuna diqqət çəkib. Qızların təhsilini yalnız fərdi inkişaf, ailə maraqları kontekstində deyil, həm də cəmiyyətin tərəqqisi və iqtisadi güclənməsi baxımından vacib amil kimi gələcəyə qoyulmuş əhəmiyyətli bir sərmayə adlandırıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə qəbul edilən dövlət proqramları və məqsədyönlü islahatların, həyata keçirilən layihələrin insan kapitalının inkişafını təmin etməklə yanaşı qızların təhsil imkanlarının artmasına da geniş şərait yaratdığını vurğulayıb.

Ölkənin Birinci-vitse prezidenti Mehriban xanım Əliyevanın və onun rəhbərliyi ilə Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi vurğulayan Bahar Muradova, gənclərin, xüsusilə də yeniyetmə qızların təhsili, onların problemlərinin həllinə yönələn çoxsaylı layihələrin icra edildiyini bildirib.

Komitə sədri BDU ilə imzalanacaq əməkdaşlıq Memorandumunun təhsil sahəsində qarşıda duran vəzifələrlə bağlı səyləri birləşdirmək işinə, o cümlədən təhsilin müxtəlif sahələrində, mütəxəssis hazırlığında bərabər iştirakçılığa töhfə verəcəyini bildirib.

Elm və təhsil naziri Emin Əmrullayev qızların təhsilinin inkişafı və təhsilə əlçatanlığının təmin edilməsinin qadınların cəmiyyətdəki rolunun artırılması baxımından olduqca vacib olduğunu deyib. Qızların müxtəlif pillələrdə təhsili ilə bağlı statistik göstəriciləri diqqətə çatdıran nazir Azərbaycanda 20 il əvvəllə müqayisədə bu gün 3 dəfə çox gəncin təhsil aldığını, onların sırasında gənc qızların sayının artdığını vurğulayıb. O, hələ də dünyanın bəzi yerlərində qızların təhsil hüquqlarının məhdudlaşdırıldığını, bu təhdidlərin açıq şəkildə müzakirəsinə ehtiyac olduğunu əlavə edib.



Rəsmi çıxışlar dinlənildikdən sonra BDU ilə AQUPDK arasında elmi-tədqiqat, təhsil, sosial və innovativ layihələr çərçivəsində əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məqsədilə memorandum imzalanıb. Sənədi qurum rəhbərləri Bahar Muradova və Elçin Babayev imzalayıb.

Daha sonra Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov fondun həyata keçirdiyi dəstək layihələri haqqında məlumat verib və nəticələri səsləndirib. İcra edilən layihələrin inkişafı istiqamətində gələcək planlardan danışıb, təqaüdçülərə və təhsilalanlara uğurlar arzu edib. Milli Məclisin deputatı, Elm və təhsil komitəsinin üzvü Mehriban Vəliyeva qızların təhsilinə qoyulan sərmayənin həm də cəmiyyətimizin gələcək inkişafına qoyulduğunu bildirib.

Elmi təhsilin ən yüksək səviyyəsi adlandıran BDU-nun kafedra müdiri Sacidə Əbdülvahabova, Dövlət Gömrük Akademiyasının tələbəsi Fidan Mehdiyeva, şəhid polkovnik-leytenant Anar Əliyevin həyat yoldaşı Vüsalə Əliyeva qızların təhsilini davam etdirərək elmə töhfə verməli olduğunu, bu sahədə qadınların sayının artdığını qeyd ediblər.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Bəxtiyar Vahabzadə – 100

# Vətəndaşlıq poeziyasının zirvəsi

**Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Vahabzadənin anadan olmasının 100 ili tamam olur. Prezident İlham Əliyev şairin yubileyinin qeyd edilməsi haqqında 21 fevral 2025-ci il tarixli sərəncam imzalayıb.**

Sərəncamın preambula hissəsində qeyd olunub ki, Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli-azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir.



Rəsmi sənəddə Mədəniyyət Nazirliyinə Elm və Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

Qeyd etmək fərəhlidir ki, türk ədəbiyyatının böyük nümayəndəsinin yubileyi ilə bağlı təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında çoxsaylı tədbirlər keçirilir. Dünən TÜRKSOY-un Ankaradakı baş ofisində "Bəxtiyar Vahabzadənin Anım İli"nin açılışı münasibətilə təntənəli tədbir keçirilib. Bu barədə qərar hələ 2023-cü ilin oktyabrında TÜRKSOY-un Mədəniyyət Nazirləri Daimi Komitəsinin Şuşada keçirilən 40-cı iclasında qəbul edilib. Bu beynəlxalq qurum əvvəllər də unudulmaz şairin yaradıcılığına dair konfranslar təşkil edib, onun əsərlərinin xarici dillərə tərcüməsinə şərait yaradıb.

Xalq şairi, Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor Bəxtiyar Vahabzadə 1925-ci il avqustun 16-da Şəkidə anadan olub. O, xaricdə də ölkəmizi layiqincə təmsil edib, milli mədəniyyətin təbliği üçün səylərini əsirgəməyib. Xalq şairi bir sıra orden və medallarla, o cümlədən Azərbaycan Respublikasının ali dövlət mükafatı – "İstiqlal" ordeni ilə təltif edilib. Böyük qələm ustası 2009-cu il fevralın 13-də ömrünün 84-cü ilində dünyasını dəyişib.

Bəxtiyar Vahabzadə şeirlərinin birində yaşamaq istəyi haqqında deyirdi:

**Bir rəngi yox, göylərin min rəngini sevirəm,**
**Bir gülü yox, güllərin çələngini sevirəm.**
**Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,**
**Həyatı həyat kimi yaşamaq istəyirəm!**

İftixarla deyə bilərik ki, şair həm həyatı həyat kimi yaşayıb, həm də nəsillərinə bir nümunə olub.

Xalq şairinin yaradıcılığının müxtəlif aspektləri hər an alimlərin diqqət mərkəzindədir. Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Elnarə Qaragözovanın "Dilimizin təəssübü poeziya və elm tandemində" məqaləsi də bu qəbildəndir. Həmin məqaləni oxucularımıza təqdim edirik.

*XQ*

# Dilimizin təəssübü şeir və elm tandemində



**Bəxtiyar Vahabzadə irsi milli ədəbiyyatımızın sütunlarından biridir desək, yəqin ki, yanılmarıq. Şairin yaradıcılığı haqqında saysız dəyərli araşdırmalar dərc edilmiş, ölkə mətbuatında və xarici dərgilərdə maraqlı tədqiqatlar işıq üzü görmüşdür.**

Görkəmli şairin irsi dilçi alimlərin də diqqətindən kənar qalmayıb. O özü də daim dil məsələsinə həssaslıqla yanaşıb. Bu mövzu şairin yaradıcılığından qırmızı xətlə keçir. "Ana dili", "Mənim anam", "Oğluma", "Əlifba", "Latın dili" şeirlərində dilin cəmiyyət, millət üçün önəmi, dilin qorunmasının vacibliyi poetik şəkildə ümumiləşdirilib. "Ana dili" şeiri şairin bir çağırışı, harayı kimi səslənir:

**Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,**
**Bu dil bir-birimizlə əhdi-peymanımızdır.**
**Bu dil tanıtmış bizə bu dünyada hər şeyi.**
**Bu dil əcdadımızın bizə qoyub getdiyi**
**Ən qiymətli mirasdır, onu gözlərimiz tək**
**Qoruyub, nəsillərə biz də hədiyyə verək.**

"Mənim anam" şeiri həcmcə kiçik olsa da, özündə qalın romanlara sığacaq bir fikri, paralelliyi ehtiva edir: ana-dil. Bunların hər ikisi eyni dərəcədə müqəddəsdir, toxunulmazdır, unudulmazdır. İkisi də bir-birinə bağlıdır, ayrılmazdır:

**Savadsızdır,**
**Adını da yaza bilmir mənim anam...**
**Ancaq mənə say öyrədib,**
**Ay öyrədib, il öyrədib,**
**Ən vacibi, dil öyrədib mənim anam...**

Bəxtiyar Vahabzadə üçün dil anadır, vətəndir. "Bakı vaxtı ilə" şeirində radioda doğma dilin sədalarını eşidən şair özünü vətəndə hiss edir. Doğma dil onu qanadlarına alıb ana yurda aparır.

Şairin dilə həssaslığı, dili korlayanlara, onu sevməyənlərə qarşı kəskin mövqeyi həm poetik irsində, həm də publisistik yazılarında öz əksini tapıb. Bu baxımdan onun "Ana dilim - ana kokum", " İftiraya cavab" və s. publisistik məqalələri maraq doğurur. B.Vahabzadə "Ana dilim-ana kokum" məqaləsində yazır: "Hansi dilin zərurətindən danışsaq, bizi alqışlayır və beynəlmiləlçi adlandırırlar. Amma "çaşıb" ana dilinin zərurətindən danışan kimi, anasının dilini bilməyən, ona həqarətlə baxanlar bizə şübhə ilə yanaşır, ən yaxşı halda bizi "geri qalmış adam", özünü isə irəli getmiş, mədəni və müasir adam hesab edir.

B.Vahabzadənin "İftiraya cavab" məqaləsi Çingiz Aytmatovun qırğız dilində məktəb və bağçaların açılması, ana dilinin dövlət dili səviyyəsinə qaldırılması fikirlərinə "milli təkəbbür və milli məhdudiyyət" damğası vuran məqaləyə cavab olaraq yazılıb. B.Vahabzadə ana dilinin təbliğinin əhəmiyyətini vurğulayaraq yazır: "...Dil yalnız ondan istifadə edəndə, həmin dildə danışanda yaşayır və inkişaf edir. Həm də dil təkcə məişət mövzusunda danışanda, sadəcə olaraq ondan istifadə edəndə yox, ondan dövlət dili kimi istifadə edəndə yaşayır... Ziyalısı ana dilində danışmayan xalqın nəinki dili, özü də ölümə məhkumdur".

Akademik Ağamusa Axundovun şairin poetik irsi ilə ilgili fikir və mülahizələri xüsusi əhəmiyyət kəsb edir. Alimin Bəxtiyar Vahabzadə poeziyası haqqında fikirlərinə keçməzdən öncə onun dilin inkişafında və yaşamasında ədiblərin roluna və vəzifələrinə dair fikirlərini xatırlatmaq yerinə düşər: "Gələcək nəsillər bizim dövrümüzün dilinə qiymət verərkən, yenə də birinci növbədə ən qüdrətli müasir yazıçılarımızın dilinə əsaslanacaqlar. Deməli, bədii əsərlərin dili yalnız bu və ya digər bir əsərin sadəcə ifadə tərzi deyildir. O, eyni zamanda, nəsillərin nəsillərə yadigarıdır. Beləliklə, bədii dilin gözəlliyi yazıçıların üzərinə öz peşələri ilə bağlı olan professional bir məsuliyyət qoymaqla məhdudlaşıb qalmır, o eyni zamanda bədii yaradıcılığı özünə sənət götürənlərin üzərinə vətəndaşlıq məsuliyyəti qoyur".

Ağamusa Axundov şair və yazıçıları dildən istifadə bacarığına görə bir neçə kateqoriyaya bölür. "Elə yazıçılar vardır ki, onlar ümumxalq dilindən öz istedadları və həssaslıqları sayəsində məharətlə istifadə edirlər. Belə yazıçıların üslubu gözəl olur, onların dili də gözəl bədii dil adlanır. Bəzi yazıçılar öz istedadlarının dərəcəsindən asılı olaraq, ümumxalq dilinin ən gizli nemətlərini yaxşı seçə bilmir, üzdən gedirlər. Belə yazıçıların da özünə məxsus üslubu, dili olur. Lakin bir də istedadsız və tənbəl yazıçılar vardır ki, özlərinin az-çox yeni və müvəffəqiyyətli sözlərini qüdrətli sənətkarların parlaq üslublarının işığında oturub yazırlar. Əlbəttə, bunlar yazıçı olmaqdan daha çox, sayğac işlətməyi, debit, kredit və s. bu kimi şeyləri öyrənib müxtəlif rəqəmləri əvvəlcədən müəyyən edilmiş ayrı-ayrı qrafalara düzən hesabdar kimi bir şeydirlər". Bəxtiyar Vahabzadə məhz "ümümxalq dilindən öz istedadları və həsasslıqları sayəsində məharətlə istifadə edən" şairlərdəndir. Ağamusa müəllim "Şair və dil" məqaləsində B. Vahabzadənin "İztirabın sonu" poemasının dilini təhlil edərək şairin şeirlərindəki cəlbediciliyin sirrinin məhz bununla bağlı olduğunu qeyd edir.

Dilçi-akademik "Şeir sənəti və dil" kitabında da Bəxtiyar Vahabzadə poeziyasına müraciət edib, şairin müxtəlif şeirlərinin linqvistik təhlilini verib. Alim şairin heca vəzninin ondördlük, yeddilik və beşlik ölçülərindən məharətlə istifadə etdiyini, həmin şeirlərin ustalıqla qələmə alındığını qeyd edir. Bəxtiyar Vahabzadənin əruz vəznində yazdığı şeirlərini də yüksək qiymətləndirir: "Həmin vəzndən şairlərimizin orta və gənc nəslinə mənsub olanlar da məharətlə istifadə edirlər. Məsələn, 1970-1973-cü illərdə B. Vahabzadə "Əsgər-şair", "Sevdim, bildim ki…", "Düşüncə" kimi gözəl avazlı şerlər yaratmışdır."

Qeyd etməliyik ki, Ağamusa Axundov Bəxtiyar Vahabzadə poeziyasının yalnız linqvistik cəhətlərindən deyil, bədii məziyyətlərindən də söz açıb. Bu baxımdan onun "Ədəbiyyat və incəsənət" qəzetinin 1 avqust 1986-cı il tarixli 31-ci sayında dərc edilmiş "Şeirin hikməti" məqaləsi maraq doğurur. Məqalə Xalq şairinin "Seçilmiş əsərləri"nin II cildinin çap olunması münasibətilə yazılıb. Akademik, Bəxtiyar Vahabzadə poeziyasını təhlil edərkən şairin dildən istifadə incəliklərinə də toxunur: "Şairin bədii obrazlarla, ən çeşidli məcazlarla zəngin olan poetik dili heyrətli bir sadəliklə, aydınlıqla seçilir. "Heyf" şeirindəki misralarda olan kimi:

**Heyf o ilahi, qövsi qaşlara**
**Sınacaq kədərli düşüncələrdən**

Tək bir "sınacaq" sözünün köməyi ilə şair bütöv bir bədii portret çəkmiş, fikirdən sınmış qaşları, o qaşların sahibini oxucunun gözləri önündə canlandırmışdır. Bəxtiyar eyni bir predmeti bəzən ən müxtəlif sözlərlə rəngləyir. Lakin sözlərin müxtəlifliyi onların təyin etdiyi predmetin qavranılmasını mürəkkəbləşdirmir, əksinə daha da əyaniləşdirir".

Ağamusa Axundov Bəxtiyar Vahabzadə poeziyasını "xəncər tiyəsi kimi iti olan bir işıq selinə" bənzədir, bu poeziyanın fəlsəfi dərinliyini, düşüncə vüsətini yüksək qiymətləndirir, bu dərinliyin, vüsətin oxucu beynini işıqlandırdığını, qəlbləri riqqətə gətirdiyini bildirir. Akademik Bəxtiyar Vahabzadə poeziyasının əsas xüsusiyyətlərini ümumiləşdirərək, belə demək mümkünsə, qısa tərifini verir: "Bəxtiyarın poeziyasını anamız torpağa oxşatmaq olar. Elə bir torpağa ki, sinəsində boynubükük bənövşə də bitirir, ildırıma baş əyməyən palıd da. Bəxtiyarın şeirləri ən kövrək və həzin hisslərin incə tərənnümü olduğu kimi, yüksək pafoslu, publisist nəfəsli, haylı-haraylı vətəndaş sözləridir. Gözəl lirik şeirlər müəllifi Bəxtiyarın şeirlərində məhəbbətin fəlsəfəsi poeziyanın bənzərsiz gözəlliyi ilə bəzənir".

***Elnarə QARAGÖZOVA,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Sertifikasiya: Uğur qazananlar 2 dəfə çoxdur



**Ölkəmizdə təhsilverənlərin sertifikatlaşdırılması prosesi davam edir. Elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında bildirib ki, ümumi sertifikasiyada iştirak edən müəllimlərin 88 faizi uğur qazanıb. Yüksək nəticə göstərən müəllimlərin sayı sertifikasiyada qənaətbəxş nəticə göstərməyənlərdən iki dəfə çoxdur.**

Test imtahanı mərhələsində 120 dəqiqə müddətində onların tədris etdiyi fənn üzrə ümumtəhsil proqramlarına, tədris metodikasına və təlim strategiyalarına aid 60 sual təqdim edilir. Bu mərhələnin nəticələri üzrə balların hesablanması avtomatlaşdırılmış rejimdə proqram təminatı vasitəsilə həyata keçirilir və imtahan başa çatdıqdan dərhal sonra elan edilir.

Test imtahanında azı 30 bal toplamış təhsilverənlər sertifikatlaşdırmanın müsahibə mərhələsinə keçmək hüququ qazanır. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, sertifikatlaşdırmanın nəticəsinə uyğun olaraq tədris edilən dərs saatına görə test imtahanı mərhələsində 50 baldan yuxarı nəticə göstərən müəllimlərin vəzifə maaşına 35 faiz, keçid balını toplayan müəllimlərin vəzifə maaşına isə 10 faiz aylıq əlavələr edilir.

Faktiki olaraq, 2022–2024-cü illərdə, ümumilikdə, 65 min nəfərə yaxın müəllim sertifikatlaşdırmaya cəlb edilib. Bu prosesdən 55 min nəfər uğurla keçib, 17 min nəfərdən çox müəllimin əməkhaqqına 35 faiz, 38 mindən çox müəllimin əməkhaqqına isə 10 faiz əlavə tətbiq edilib. Nəticədə, əməkhaqqına 35 faiz əlavə tətbiq olunmuş müəllimlər üzrə orta aylıq 1295 manat, 10 faiz əlavə tətbiq olunmuş müəllimlər üzrə isə orta aylıq əməkhaqqı 980 manat təşkil edib.

Cari ildə əlavə 20 mindən çox müəllimin bu prosesə cəlb olunması və bu məqsədlə dövlət büdcəsində əlavə 60,8 milyon manat olmaqla, ümumilikdə, sertifikatlaşdırma çərçivəsində əməkhaqqı əlavələri üçün 154,4 milyon manat vəsait nəzərdə tutulub.

Sertifikasiya savadlı və ixtisasını bilməyən müəllimlər arasında fərq qoya bilən imtahandır. Burada kəsilən müəllimlərə şərait yaradılır ki, növbəti ildə təkrar imtahanda iştirak etsin. Amma təkrar sertifikasiya nəticəsi uğursuz olan müəllimlərin əmək müqaviləsinə xitam verilir. Hər iki sertifikasiyadan uğur qazanmayan müəllimlər həssas əhali qrupuna aiddirsə, onlara məktəblərdə qeyri-pedaqoji vəzifələr təklif edilir. Burada məqsəd kimlərinsə işdən çıxarılması deyil, gələcək nəsilin savadlı və əmin əllərdə olmasını təmin etməkdir.

İndiyədək imtahan vermiş pedaqoqlardan, təxminən, 5 mini uğurlu nəticə göstərmədiyi üçün əmək müqaviləsinə xitam verilib. Görünən budur ki, sertifikasiyadan keçə bilməyən müəllimlərin, təxminən, 60 faizi ucqar rayonlarda, kəndlərdə dərs deyənlərdir. Ekspertlər sertifikasiyadan uğur qazanmayan müəllimlərin çoxunun ucqar ərazilərdən olmasına səbəb kimi müəyyən mənada mərkəzdən kənarda qalmasını, təlimlərdə tam iştirak edə bilməməsini, materiallarla lazımınca əhatə olunmamasını və digər səbəbləri əsas gətirirlər.

Təhsil eksperti Elçin Murad "XQ"yə bildirib ki, şagirdlərə daha bacarıqlı və bilikli müəllimlərin dərs deməsi vacib şərtdir. Müəllim sinfə daxil olarkən daha peşəkarcasına dərs deməlidir. Hər gün öz üzərində işləyən və sinifdə yaradıcı fəaliyyət göstərən müəllimlərin sertifikasiya imtahanından keçmək problemi yoxdur.

Məlumat üçün qeyd edək ki, bu il sertifikasiyaya 22 min müəllim cəlb olunacaq. 2025-ci ildə biologiya, kimya, fizika, coğrafiya, informatika üzrə, 2026-cı ildə isə tarix, texnologiya, təsviri incəsənət və fiziki tərbiyə üzrə sertifikatlaşdırılmanın birinci mərhələsi keçiriləcək.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Reza Deqati vandallığın dilsiz qurbanlarını danışdırır



**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Qarabağ Dirçəliş Fondunun birgə layihəsi olan "Dağıdılmış irs: səssiz şahidlər" fotoalbomu çap olunub.**

İllüstrativ nəşr Ermənistanın Qarabağ və Şərqi Zəngəzurun işğalı müddətində (1992-2023-cü illər) Azərbaycanın mədəni irsinin dağıdıldığı çoxsaylı vandalizm aktlarına və dağıntılara işıq salır. Fotoalbomun tərtibatçısı məşhur fotoqraf Reza Deqatidir.

Əsasən, beynəlxalq auditoriya üçün nəzərdə tutulan fotoalbomda Qarabağ ərazisində yerləşən, tarixin səssiz şahidləri olan məhv edilən və dağıdılan mədəni irs nümunələrinin işğaldan əvvəlki və sonrakı fotoları yer alıb. Albomdakı fotolar tarixi faktlar olmaqla yanaşı, mədəniyyətin məhv edilməsinin ağır nəticələrini və onun bərpasının vacibliyini önə çıxarır.

Qeyd edək ki, Azərbaycanın tarixi torpaqlarının 30 ilə yaxın davam edən işğalı zamanı minlərlə tarixi mədəniyyət abidəsi – dini abidələr, qədim daş heykəllər, muzeylər, tarixi memarlıq dəyərinə malik yaşayış binaları xarabalığa çevrilib. Talan edilən və ya dağıdılan abidələrə 78 məscid, 22 muzey, 808 istirahət obyekti, 4 rəsm qalereyası, 4 teatr, 2 konsert salonu, 9 tarixi saray və 700-dən çox kitabxana daxildir. İşğal dövründə hətta qəbirlər murdarlanıb, dəfn olunan mərhumların qalıqları vandalizmə məruz qalıb.

Bütün bu vəhşiliklərin məqsədi Qarabağda və ətraf ərazilərdə azərbaycanlıların minilliklər boyu yaşayan mədəni irsinin izlərini silmək idi. Dağıdılan mədəni irs arasında Aşağı və Yuxarı Gövhər Ağa, Köçərli və Mardinli Cümə məscidləri kimi dini tikililər inək və donuz tövlələrinə çevrilmiş, məşhur Azərbaycan şairi Xurşidbanu Natəvanın saray kompleksi, böyük Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsi, Qarabağ xanlığının banisi və ilk xanı Pənah Əli xan Cavanşirin Ağdamdakı sarayı, böyük bəstəkar və müsəlman Şərqində ilk operanın müəllifi Üzeyir Hacıbəylinin və peşəkar vokal sənətinin banisi Bülbülün ev-muzeyləri dağıdılıb, yararsız vəziyyətə salınıb.

Dünyada ilk insan məskənlərindən hesab olunan Azıx və Tağlar mağaralarından hərbi məqsədlər üçün istifadə olunub. Dağıdılan bu abidələrin hər biri Azərbaycan xalqının tarixi, mədəniyyəti, mənəviyyatı ilə sıx bağlıdır. İşğal zamanı təkcə İslam dini abidələri deyil, həm də Qafqaz Alban Apostol Kilsəsi və Pravoslav Xristian abidələri də erməni vandalizminin və saxtakarlığının hədəfinə çevrilib.

İşğal altında qalmış ərazilərimizdə tarix və mədəniyyət abidələrinin məqsədyönlü şəkildə məhv edilməsi, onların etnik və hətta dini mənşəyinin qəsdən saxtalaşdırılması və mənimsənilməsi beynəlxalq humanitar hüquqa və müvafiq beynəlxalq hüquqi sənədlərə ziddir. "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının, "Dünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il konvensiyasının açıq şəkildə pozulmasıdır.

"Dağıdılmış irs: səssiz şahidlər" fotoalbomu Azərbaycanın qədim mədəni irsinin silinməsinə yönələn düşünülmüş siyasəti ifşa etmək məqsədilə nəşr olunub. Fotoalbom Ermənistanın Azərbaycanın maddi-mədəni irsinə qarşı törətdiyi cinayətlərin yalnız bir hissəsini əhatə edir.

İngilis dilində nəşr olunan fotoalbom müharibələrin sülhə, inkişafa və bəşəriyyətə verdiyi acı nəticələr haqqında düşünməyə vadar edir.

Fotoalbom dağıdılan mədəni irs, onun qorunmasının vacibliyini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və bu isiqamətdə qlobal həmrəyliyi təşviq etmək üçün mühüm vasitədir.

***R.TAHİR***
***XQ***

Beynəlxalq həyat

# G20: Qlobal problemlərin növbəti müzakirəsi

**Dünən İyirmilik Qrupu (G20) ölkələrinin xarici işlər nazirlərinin Cənubi Afrikanın Yohannesburq şəhərində ikigünlük iclası işə başlayıb. Uzun illərdən sonra ilk dəfə bu görüşə ABŞ qatılmayıb. Dövlət Departamentinin rəhbəri Marko Rubionu tədbirdə ABŞ-ın Cənubi Afrikadakı səfiri Dana Braun əvəzləyib. İclasda Rusiyanı xarici işlər naziri Sergey Lavrov təmsil edib. Çinin XİN başçısı Van İ də iştirakçılar arasındadır. Türkiyəni Yohannesburq görüşündə xarici işlər naziri Hakan Fidan təmsil edib.**

Cənubi Afrika Respublikasının lideri Cyril Ramaphosa xarici işlər nazirlikləri rəhbərlərinin görüşünü şəxsən açıb: “Nəhayət, siz dünyanın indiyədək mövcud olan ən gözəl ölkəsinə gəlmisiniz”, – deyə onları saslamlayıb. Ölkəsinin dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatlarından biri olduğunu vurğulayan C.Ramaphosa deyib: “G20 sammitinin ilk dəfə Afrika torpağında keçirilməsi əlamətdardır. Bu, Afrika ölkələri ilə dünya arasında əməkdaşlığı inkişaf etdirmək üçün əla fürsətdir. Bu sammitin yeri Afrikanın səsinin eşidilməsinə ehtiyac olduğunu vurğulayır”.

CAR prezidenti qeyd edib ki, geosiyasi gərginlik və artan dözümsüzlük, münaqişələr və müharibələr, iqlim dəyişikliyi, pandemiya, enerji və ərzaq təhlükəsizliyi məsələləri – bütün bunlar “onsuz da kövrək olan qlobal birgəyaşayışı” təhdid edir. O, əminliklə bildirib ki, G20 kimi forumlar bu problemləri birlikdə həll etməyə kömək edir.

C.Ramaphosa açılış nitqində Rusiya və Ukrayna arasındakı, eləcə də Yaxın Şərq və Afrika qitəsindəki münaqişələri xatırladaraq qısaca qeyd edib ki, G20-nin vəzifəsi bu münaqişələrin diplomatik yolla həllinə tərəfdar olmaqdır. Cənab Ramaphosa çıxışında daha sonra iqlim dəyişikliyinə toxunaraq bu məsələni “təhlükə deyil, hətta real fəlakət” adlandırıb.

Mətbuata açıq hissədən sonra görüş, bütövlükdə, bağlı qapılar arxasında keçirilib və qlobal geosiyasi vəziyyətin müzakirəsinə həsr olunub.

Tədbir çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidan rusiyalı həmkarı Sergey Lavrovla görüşüb. “Anadolu” agentliyinin məlumatına görə, görüş zamanı Rusiya–Ukrayna müharibəsinə son qoyulması prosesi müzakirə olunub: “Nazirlər Rusiya–Ukrayna müharibəsinə son qoyulması prosesini dəyərləndirib və bu çərçivədə son danışıqları müzakirə ediblər”, – deyə Türkiyə XİN-in bununla bağlı məlumatında qeyd edilir.

Çinin xarici işlər naziri Van İ də bildirib ki, ölkəsi Rusiya və ABŞ-ın əldə etdikləri son “konsensus” da daxil olmaqla, Ukraynada davam edən genişmiqyaslı müharibəyə son qoymaq səylərini dəstəkləyir. O, bu barədə G20 sammiti çərçivəsində RF XİN başçısı Sergey Lavrovla görüşdə deyib.




Çin xarici işlər nazirinin sözlərinə görə, Pekin “maraqlı tərəflərin bir-birinin narahatlıqlarını nəzərə alan uzunmüddətli və davamlı həll yolu tapa biləcəyinə ümid edir”.

Van İ bildirib: “Çin sülhə nail olmaq üçün bütün səyləri, o cümlədən ABŞ və Rusiyanın əldə etdiyi son konsensusa dəstək verir”. O əlavə edib ki, ölkəsi sülh danışıqlarında “konstruktiv rol” oynamağa hazırdır.

Böyük Britaniyanın xarici işlər naziri Devid Lemmi isə rusiyalı həmkarı Sergey Lavrovun G20 ölkələri diplomatlarının qapalı iclasındakı çıxışından sonra Moskvanın Ukrayna ilə sülh bağlamaq arzusunda olmadığını bildirib. “Reuters”in məlumatına görə, o deyib ki, dünyanın ən böyük iqtisadiyyatlarının xarici işlər nazirlərinin görüşü G20 üzvləri arasında Ukrayna müharibəsi ilə bağlı mübahisənin kölgəsində qalıb.

Britaniya rəsmisi Londonun ABŞ-dan təhlükəsizlik zəmanəti olmadığı halda Ukraynaya sülhməramlıların daxil edilməsinə dəstək verib-verməyəcəyi ilə bağlı sualı cavablandırıb: “Biz danışıqlar yolu ilə nizamlamaya daha yaxın deyilik. Və deməliyəm ki, mən rusların və Lavrovun burada dediklərinə qulaq asanda, əslində, bu sülhə nail olmaq üçün heç bir istək görmürəm”.

***P.ƏMİRCANOV***
***XQ***

# Bakıda qar: qış sərt üzünü göstərdi



## *Şəhər sakinləri isə məmurlardan gileylidirlər*

**Azərbaycan paytaxtı qışın oğlan çağının şıltaqlıqları ilə üz-üzədir. Belə ki, fevralın 20-də axşam saatlarından Bakıda və Abşeron yarımadasında qar yağmağa başlayıb. Havanın temperaturu mənfi 2 dərəcəyədək enib. Fevralın 21-dən sonra isə hətta gündüz saatlarında temperatur 0 dərəcədən aşağı olub, yollar buz bağlayıb.**

Bu dəfə qarın daha “uzunömürlü” olacağı məlum olub. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova bildirib ki, Bakı və Abşeron yarımadasında mənfi temperatur və qar yağması prosesi ötən dövrlərdə 1–2 gün ərzində müşahidə olunurdusa, bu dəfə isə soyuq və



qeyri-sabit hava şəraiti 5 gün ərzində davam edəcək və bu qışın ən uzunmüddətli soyuq dövrü olacaq.

Təəssüf ki, qarın yağması ilə dünən səhər tezdən işə yollanan çox sayda şəhər sakini üçün problemlər yaranıb. Belə ki, bir çox avtobus marşrutlarının fəaliyyətində gecikmələr olub. Bu da əksər dayanacaqlarda sıxlıq yaradıb. Sakinlərin sözlərinə görə, bəzi avtobuslar xəttə çox gec buraxılıb.

Bu yazının müəllifləri dünən şəhərin küçələrində xeyli dolaşdılar. Küçələrdə səkilər buz bağladığı üçün yaşlı insanlar yeriməkdə çətinlik çəkirdilər. Ara-sıra yollarda sürüşüb yıxılanlar da qarşımıza çıxırdı.

Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna zəng edib öyrəndik ki, onlara qarlı hava şəraiti ilə əlaqəli olaraq, 53 nəfər müraciət edib. Xəsarət alan şəxslərdə, əsasən, sınıqlar, bilək və qolun said nahiyyəsində deformasiya, kəskin ağrı və şişkinlik müşahidə olunub. Bir neçə nəfərə cərrahi müdaxilə göstərilib.

Paytaxtın mərkəzi küçələrinin birində çətinliklə yeriyən bir yaşlı kişi müxbir olduğumuz biləndə aidiyyəti qurumlardan narazılıq edərək dedi:

– Şəhəri qara əvvəlcədən hazırlamaq lazım idi. Əgər hər dəfə qar yağan zaman Bakı qəfil yaxalanırsa, deməli, məsul qurumlar öz işlərini yetərincə yerinə yetirə bilmirlər.

Yeri gəlmişkən, regionlarımızda qış öz sərt üzünü göstərir. Məsələn, Qobustan və Şamaxı rayonları ərazisində yağan qar dünən axşam saatlarında daha da intensivləşib. Bunun nəticəsində Bakı–Şamaxı–Yevlax avtomobil yolunun 105-120-ci kilometrliyində yaranan buzlaşma nəqliyyatın hərəkətində müəyyən çətinliklərə səbəb olub.



Lakin həmin yolların buzdan təmizlənməsi üçün hərəkət hissəsinə duz-qum qarışığı səpilib. Dünəndən ərazidə xüsusi təyinatlı texnika və canlı qüvvə işləyir, yolların qar və buzdan təmizlənməsi istiqamətində tədbirlər davam etdirilir.

Qeyd edək ki, ölkənin digər dağlıq və yüksək dağətəyi ərazilərində də güclü qar və buzlaşma müşahidə olunub. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hidrometeorologiya Mərkəzinin məlumatına əsasən, Naxçıvan şəhərinə, Ordubad rayonunun Parağaçay, Nürgüt, Şahbuz rayonunun Kükü, Biçənək, Şərur rayonunun Axura, Culfa rayonunun Ərəfsə, Göydərə kəndlərinə və digər yüksək dağlıq ərazilərə qar yağıb.

Qarın hündürlüyü Naxçıvan şəhərində 10, Ordubad şəhərində 5, Parağaçayda 13, Nürgütdə 12, Culfa şəhərində 3, Göydərədə 14, Ərəfsədə 11, Şahbuz şəhərində 8, Biçənəkdə 11, Kükündə 22, Şərur şəhərində 7, Axurada 11, Kəngərli rayonunda 8, Sədərək rayonunda isə 8 santimetr olub. Muxtar respublikanın yerli əhəmiyyətli avtomobil yolları qardan təmizlənir, hərəkətin təhlükəsizliyi təmin olunur.

Qar çətinliklər yaratsa da, o, həm də bərəkət, təmiz hava, sağlamlıqdır. Təbiətin bu neməti uçaq, yeniyetmələr, xüsusən də sevən və sevilənlərə xüsusi ovqat və sevinc bəxş edir.

***Məsaim ABDULLAYEV,***
***Kəmalə ABDİNOVA,***
***Elşən AĞALAR (foto)***
***XQ***

*(Ftə rep tjı )*



# Qazax: novruzgülü, bir də Göyəzən dağı...

**Səhər tezdəndir. Hara baxırsan, sanki, ağ tül çıxır qarşına, ağappaq tül... Ağacların ətəkləri geniş gəlin paltarına bənzəyir. Parklardakı heykəllər uzaqdan “Şaxta baba”nı xatırladır. Yolların kənarlarına qar topaları yığılsa da, maşınlar çox rahat gedib-gəlirlər. Hiss olunur ki, bu sahəyə məsul şəxslər işlərini əvvəlcədən bilən adamlardır. Baxırsan, şəhər gül kimidir.**

Bəli, Qazaxa ilk qar düşüb. Hamı sevinir. Daha çox uşaqlar bu sevinci yaşasalar da, böyüklər də, sanki, bu günü gözləyirmiş. Amma gəlin etiraf edək ki, elə yerlər var nəinki qarın, heç qışın gəlməsini arzulamırlar. Xüsusilə, bəzi şəhər və rayonların kommunal təsərrüfat işçiləri. Çünki qışa əvvəlcədən hazırlıq görməyiblər, texnika vaxtında saz vəziyyətə gətirilməyib, qum, duz tədarükü aparılmayıb və ya kifayət qədər deyil. Qazaxda isə tamam başqa bir vəziyyətdir. Burada iş əvvəlcədən elə qurulub ki, heç kimə heç nə demək, tapşırmaq lazım gəlmir. Məsuliyyətsizliyə rayon rəhbərliyi tərəfindən necə reaksiya veriləcəyini hamı bilir.



Budur, ADA Universitetinin Qazax Mərkəzinin bir qrup tələbəsi imtahana daha yaxşı hazırlaşmaq, həm də qarın sevincini yaşamaq üçün səhər tezdən təhsil ocağına gəliblər. Qeyd edək ki, Qazax Müəllimlər Seminariyasının tarixi binasında 2022-ci ilin oktyabrından ADA Universiteti Qazax Mərkəzi fəaliyyət göstərir. ADA universitetinin rektoru Hafiz Paşayevin təşəbbüsü ilə burada tarixi binalar çox yüksək səviyyədə bərpa olunmuş, gözəl bir təhsil ocağı yaradılmışdır.

Tələbələrdən birinin əyilib qarı eşələdiyini görürəm. Birdən “tapdım!” deyib qışqırır. Hamı ona tərəf qaçır. Qarın altından tapıb çıxardığı novruzgülünü oxşaya-oxşaya fəxrlə hamıya göstərir. Tələbələrin sevinci sevincə qarışır.

O qədər də hündür olmayan ağaclar pambıq kollarını xatırladır.

Belə havada Qazaxın rəmzi sayılan Göyəzən dağını yaxından görməmək, necə deyərlər, salam verməmək günahdır. Mərkəzdən 20 kilometr aralıda yerləşsə də, yolllarin açıq olmasından istifadə edərək Göyəzənə yaxınlaşırıq. Alpout və Abbasbəyli kəndləri ərazisində yerləşən dağ qatı dumana bürünüb. Uzaqdan vulkan püskürən dağa bənzəyir. Ətrafda qarın hündürlüyü az qala yarım metrə çatır.

...Qazaxın yazı-yayı kimi, qışı da gözəldir. Adamları ondan da gözəldir! Son illər bu gözəllik hər addımda–tarlada, müəssisədə, məktəbdə, çöldə-biyabanda daha qabarıq hiss olunur. Belə gözəlliyi bu qış günündə bir daha gördük!

***Hm let QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

**Qazax**



“Azərbaycan Hava Yolları”
Qapalı Səhmdar Cəmiyyəti
*ofis ləvazimatlarının illik satın alınması məqsədilə*
***AÇIQ TENDER ELAN EDİR***

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin ofis ləvazimatlarının satın alınması üçün açıq tenderində iştirakçılar Laman.r.ibrahimova@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 3 mart 2025-ci il, saat 17.00-dəkdir.
Prosedur üzrə əlaqələndirici şəxs – Ləman İbrahimova.
Satınalma üzrə mütəxəssis Laman.r.ibrahimova@azal.az
Əlaqə telefonu – (+994 12) 497-26-00 / daxili – 5831.

“Salyan-Aqrotexservis” ASC
səhmdarlarının nəzərinə!

10 aprel 2025-ci il saat 12.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***
**1.** 2024-cü il üçün cəmiyyətin illik maliyyə hesabatlarının müzakirəsi və təsdiq edilməsi.
**2.** Digər məsələlər.

Əlaqə telefonu – (070) 660-77-46.
Ünvan – Salyan şəhəri, 20 Yanvar küçəsi 116.

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 40 (30734) 22 fevral 2025-ci il, şənbə

İdman

## Gimnastımız Dünya Kubokunun finalında



**Azərbaycanın idman gimnastı Nikita Simonov Almaniyanın Kotbus şəhərində keçirilən Dünya Kubokunda finala yüksəlib.**

Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, idmançı halqalarla hərəkətlərdə yüksək nəticə göstərərək həlledici mərhələyə vəsiqə qazanıb.

Qeyd edək ki, yarışa fevralın 23-də yekun vurulacaq.

## Türkiyədə tullanma gümüş medalı




**Azərbaycan atleti Yekaterina Sarıyeva Türkiyənin İstanbul şəhərində keçirilmiş "Ruhi Sarıalp tullanmalar kuboku"nda uğurla çıxış edib.**

Azərbaycan Atletika Federasiyasından verilən məlumata görə, idmançımız qadınlar arasında üçtəkanla tullanma növü üzrə gücünü sınayıb.

O, 13.38 metr nəticə ilə gümüş medala sahib çıxıb.

## 4 boksçumuz da yarımfinala çıxıb




**Rumıniyada gənc boksçular arasında "Drakula Open" beynəlxalq turnirində millimizin daha 4 idmançısı qələbə qazanaraq yarımfinala vəsiqə qazanıb.**

Növbəti mərhələdə Zidan Hümbətov (54 kq) Daniel Turcan (Moldova), Sübhan Babayev (57 kq) Maksim Çekin (Ukrayna), Mircəlal Mirağayev (80 kq) George Balan (Rumıniya), Məhəmməd Cəfərov (+92 kq) ukraynalı Volodimir Derkaçla gücünü yoxlayacaq.

Yarımfinala yüksələn Azərbaycan boksçuları özləri üçün, azı ,bürünc medalı da təmin ediblər. Qeyd edək ki, bundan əvvəl 3 boksçumuz yarımfinala vəsiqə qazanıb.

"Drakula Open"də final döyüşləri fevralın 23-də olacaq.

*Leyla QURBANOVA*
*XQ*

Futbol tariximizdən

# Günün mübarək, kapitan!

**Tale bizə SSRİ çempionatlarında Azərbaycanın ən yaxşı komandası "Neftçi"nin şərəfini qorumuş daha bir futbolçunu xatırlamaq, onun 1937-ci ildə həyata vəsiqə almış və hazırda 88 yaşlı kollektivin heyətində keçdiyi yola nəzər salmaq imkanı yaratmışdır.**



Bu gün – 22 fevral sabiq FİFA referisi, beynəlxalq dərəcəli hakim-inspektor Asim Xudiyevin həyatında xüsusi bir gündür. Yaşıl meydanlarda inamlı çıxışı ilə yadda qalmış, bir müddət də komandanı qolunda kapitan sarğısı ilə meydana çıxarmış o uzaq illərdə mərkəz müdafiəçimizin doğum günüdür – 68 yaşının tamam olması münasibətilə təbrikləri qəbul edir.

A.Xudiyev səkkiz il – 1977-1984-cü illərdə SSRİ çempionatlarının güclülər dəstəsində 201 oyunun iştirakçısı olmuşdur. Bir çempionatda ən çox görüşü 1981-ci ildə keçirmişdir – 32 oyun. O, 1977-ci ildə "Neftçi"də çıxışlarına başlayanda komanda dörd illik fasilədən sonra yenicə birinci dəstədən güclülər dəstəsinə qayıtmışdı. Həmin il məşqçilər Xudiyevə 9 oyunda etimad göstərmişlər. Komanda isə 30 görüşdə 27 xal toplayaraq, 16 kollektiv arasında finişə 13-cü çatmışdır. Özünün ilk çempionatında Asimin müdafiə xəttində oyundaşları Rəşid Özbəyov, Asəf Namazov, Arif Orucov, Rafiq Quliyev, Bəxtiyar Qulamov, Valeri Oqerçuk və başqaları olmuşlar.

Bayaq 1981-ci il mövsümünü xatırladıq. İki səbəbdən həmin çempionat üzərində bir qədər ətraflı dayanaq. Əvvəla, 1911-ci ildə (respublikamızda tutbolun tarixi rəsmən həmin ildən hesablanır) meydana çıxmış Azərbaycan futbolunun 1981-ci ildə 70 illiyi qeyd olunmuşdur. "Neftçi" də güclülər dəstəsinə qayıtdıqdan sonra ən yaxşı nəticəsinə məhz həmin il sevinmiş, 32 xalla 10-cu yeri tutmuşdur. İkincisi isə, A. Xudiyev ölkə birinciliyi matçlarında ən çox məhz həmin ildə meydana çıxmış, yuxarıda xatırlatdığımız kimi, 32 görüşdə iştirak etmişdir.

"Neftçi" formasında oynadığı bütün illər ərzində doğma kollektivin, onunla da birlikdə Azərbaycan futbolunun şərəfini layiqincə qorumuş A.Xudiyev daim əzmkar mübarizəsi ilə fərqlənmiş, müdafiənin mərkəzində qapımızın təhlükəsizliyini təmin etmək üçün cəsarətli oyun nümunəsi göstərmişdir.

Bakılı futbolçunun SSRİ-nin olimpiya yığma komandası heyətində iki yoldaşlıq görüşünə cəlb olunduğunu da qeyd edək. Hər iki oyun 1982-ci ildə keçirilmişdir. Sovet kollektivi əvvəlcə öz meydanında Polşa komandasına qalib gəlmiş (2:1), sonra isə səfərdə Trinidad və Tobaqo futbolçuları üzərində qələbə qazanmışdır (5:0).

Coşğun gənclik illərində "Neftçi"yə, Azərbaycan futboluna ürəkdən xidmət etmiş, indi isə onun sadiq pərəstişkarı olan A. Xudiyev bu gün də sevimli idman növündə fəaliyyətini davam etdirir, beynəlxalq rəsmi yarışlarda müxtəlif ölkələrin stadionlarında hakim həmkarlarının işini qiymətləndirir, bu zaman həm də bitərəf azarkeş kimi bir-birindən maraqlı oyunlardan əsl zövq alır. UEFA öz turnirlərində Azərbaycan təmsilçisini görüşlərə hakim-inspektor təyin edərkən yaxşı bilir ki, Tofiq Bəhramov və Eldar Əzimzadə məktəbinin davamçısı ona həvalə edilən işi lazımi səviyyədə yerinə yetirəcək.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## Floridada Xocalını anım günü keçiriləcək

**ABŞ-ın Florida ştatının Mayami-Deyd dairəsində bu ilin 26 fevralı Xocalını anım günü elan edilib. Bu barədə dairənin meri Daniella Levin Kava və Komissarlar Şurasının sədri Entoni Rodriges bəyannamə imzalayıblar. Məlumatı Diasporla iş üzrə Dövlət Komitəsi verib.**


Proclamation

Bəyannamədə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda 600-dən çox günahsız insanın, mülki şəxsin amansızlıqla qətlə yetirildiyi qeyd olunub. Beynəlxalq insan haqları təşkilatı "Human Rights Watch"un Xocalı soyqırımını regionda baş verən ən dəhşətli qətliam adlandırması sənəddə vurğulanıb. Dairə sakinləri Xocalı soyqırımının 33-cü ildönümünü anım günü olaraq xüsusi hörmət və ehtiramla qeyd etməyə dəvət olunub.

Sənəd Floridada fəaliyyət göstərən Azərbaycan–Amerika Mədəniyyət Assosiasiyasının təşəbbüsü ilə imzalanıb və assosiasiyanın rəhbəri Töhfə Eminovaya təqdim edilib.

Xatırladaq ki, 2006-cı ildə Mayamidə yaradılan bu qurum Azərbaycanın tarixi, mədəniyyəti və çağdaş həqiqətlərinin ABŞ-da təbliği, gənclərimiz arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstərir.

*P.ƏMİRCANOV*
*XQ*

SAĞLAMLIQ

## Qatıq ağdır – canın sağdır...

**Qatıq sevənlərdə bütün səbəblərdən ölüm faizi digərlərinə nisbətən daha aşağıdır. Bu nisbət məhsulun yağlılıq dərəcəsinə və miqdarına görə dəyişir. Çinli alimlər uzunmüddətli tədqiqatlardan sonra gəldikləri bu qənaəti açıqlayıblar. Onların araşdırmalarının nəticələri "Journal of Global Health"də dərc edilib.**

Bildirilir ki, tədqiqat üçün 186 mindən çox insanın məlumatı araşdırılıb. Məlum olub ki, qatıq sevənlərdə ölüm nisbəti onu yeməyənlərlə müqayisədə daha aşağı olub. Üstəlik, faydalı təsir istənilən miqdarda və müxtəlif yağlılıq dərəcəsi olan qatıqlardan əldə edilib. Gündə 50 qrama qədər normal yağlılıqlı turş süd məhsulunun minimal istehlakı ölüm riskini 18 faiz, 50–100 qram yeyənlərdə – 7 faiz, 100 qramdan çox qatıq qəbul edənlərdə isə 4 faiz azaldıb. Yağsız qatıq üçün müvafiq olaraq risklərin azalması belədir: 12, 9 və 5 faiz.

Bundan başqa müəyyən edilib ki, gündə cəmi 80–125 qram qatıq yemək 2-ci tip diabet riskini 14 faiz azaldır. Oxşar effektlər ürək-damar xəstəlikləri və metabolik sindroma da (piylənmə, 2-ci tip diabet, ürək və damar xəstəlikləri və sair) aid olub.

Məqalədə bildirilir ki, qatığın tərkibində olan faydalı bakteriyalar (Bolqar çöpü)



uzunömürlülüyün açarıdır. Bu məhsul, həmçinin zülal, süd yağının fosfolipidləri, təbii trans yağlar, "K1" və "K2" vitaminləri, kalsiumla zəngindir. Bütün bunlar sağlamlığa və ömür uzunluğuna müsbət təsir göstərir.

*Z.HÜSEYNLİ*
*XQ*

## İnternetsiz xoşbəxtlik?!

**Bu gün müasir insan öz həyatını internetsiz təsəvvür edə bilmir. Bununla belə, mobil internetin söndürülməsi bizi daha xoşbəxt edə bilər. Bu asılılığı Kanada və ABŞ alimləri müəyyən ediblər.**

Alimlərin araşdırması PNAS Nexus jurnalında dərc olunub. Araşdırmada 467 nəfər iştirak edib. Onlar iki qrupa bölünüblər. Birinci qrup – iştirakçıların təxminən yarısı – iki həftə ərzində telefonlarına internetə giriş bloklaşdırıcı proqram yükləyiblər. İkinci könüllülər qrupu da eyni addımı atıb. Qeyd edək ki, bütün iştirakçıların internetə stasionar çıxışı olub.

Maraqlıdır ki, 467 nəfərdən yalnız 266-sı bloklaşdırıcı proqramın quraşdırılmasına razılıq verib və yalnız 119-u mobil interneti, ən azı, 10 gün kəsilmiş vəziyyətdə saxlayıb.

Alimlərin fikrincə, könüllülər həyatdan məmnunluq və psixi sağlamlıq kimi subyektiv göstəriciləri tədricən yaxşılaşdırıblar. Bundan əlavə, onlar uzun müddət ərzində diqqəti cəmləmək üçün obyektiv ölçmə qabiliyyətlərini yaxşılaşdırıblar.

"Onlayn dünyaya daim bağlı olmaq baha başa gəlir, çünki bu əlaqə azaldıqda psixoloji fəaliyyət yaxşılaşır. İnternetə qoşulan digər cihazların istifadəsinin azaldılmasının oxşar təsirlərə səbəb olub-olmadığını düşünməyə dəyər", – ekspertlər vurğulayıblar.

*Leyla HADİ*
*tələbə-jurnalist*



Hava

## Bakıda arabir qar yağacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasının bəzi yerlərində arabir qar yağacağı gözlənilir. Gündüz yağıntıda fasilə olacaq. Arabir güclənən şimal-qərb küləyi əsəcək, günün ikinci yarısında mülayimləşəcək. Havanın tempe-



raturu gecə 2-5° şaxta, gündüz 2° şaxtadan 1°-dək isti olacaq. Gecə və səhər yollar buz bağlayacaq. Atmosfer təzyiqi 769 millimetr civə sütunu, nisbi rütubət gecə və gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 2°-dək isti, dağlarda gecə 8-13° şaxta, yüksək dağlıq ərazilərdə 16-21° şaxta, gündüz 5-8° şaxta olacağı ehtimal edilir. Bəzi yerlərdə yolların buz bağlama ehtimalı var.

*Q.QASIMOV*
*XQ*

### ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi inzibati idarəetmə fakültəsinin akademik məsləhətçisi Murad Həsənxanlıya atası

**ŞİRZAD HƏSƏNXANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3204
SİFARİŞ 375
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00